RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

№ 102 (10122) 12 iyun 2026-cı il CÜMƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR





# Avrasiyanı birləşdirən unikal bağlantı modeli

Azərbaycanın yaratdığı bu yeni reallığın ən böyük uğurlarından biri də dünya nəhənglərinin ölkəmizə olan xüsusi diqqətidir. Bu gün qlobal arenada bir çox məsələdə əks tərəflərdə dayanan, rəqabət aparan böyük güclərin - Çinin, ABŞ-nin, Avropa İttifaqının (Aİ) - eyni zamanda Azərbaycanla əməkdaşlıq etməyə böyük maraq göstərməsi təkrarsız mənzərədir.

Çin-Azərbaycan əlaqələri gündən-günə inkişaf edir. Ötən ilin aprelində Prezident İlham Əliyevin bu ölkəyə dövlət səfəri zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanması böyük uğurdur. Faktdır ki, Çindən yola düşən yüklərin Avropaya ən qısa və təhlükəsiz yolla çatması məhz Orta dəhlizin aktivliyindən asılıdır. Pekinin Bakı ilə əlaqələrə xüsusi əhəmiyyət verməsinin səbəblərindən biri də məhz budur.

ABŞ-Azərbaycan münasibətlərində tamamilə yeni səhifə açılıb. Dövlət başçısı İlham Əliyevin ötən ilin avqustunda Vaşinqtona səfəri çərçivəsində imzalanan "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" Ağ Evin Bakıya olan strateji baxışının göstəricisidir.

Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Hazırda Azərbaycan qazını idxal edən 16 ölkədən 10-unun məhz Avropa İttifaqının üzvü olması da bunu sübut edir.

Ancaq Aİ üçün rəsmi Bakı, sadəcə, etibarlı qaz tədarükçüsü deyil, həm də iqtisadiyyatın gələcəyi olan "yaşıl enerji" layihələrində və Trans-Xəzər nəqliyyat əlaqələrində mühüm strateji tərəfdaşdır. Brüssellə imzalanan strateji sənədlər və birgə investisiya planları bu marağın ən aydın göstəricisidir. Cari il 2-3 iyun tarixlərində Bakı şəhərində Azərbaycan ilə Avropa İttifaqının nümayəndə heyətləri arasında yeni hərtərəfli saziş layihəsi üzrə həlledici danışıqlar aparılıb. Konstruktiv ruhda keçən müzakirələrin mühüm nəticəsi olaraq, 2026-2030-cu illəri əhatə edən Avropa İttifaqı- Azərbaycan Tərəfdaşlıq Prioritetləri sənədinin layihəsi ilkin olaraq razılaşdırılıb.

Bütün bu faktlar sübut edir ki, rəsmi Bakı kənar diktələrdən uzaq, tamamilə müstəqil siyasi xətt yürüdür. Azərbaycan əks qütbləri ortaq iqtisadi maraqlar ətrafında birləşdirən mərkəz rolunu oynayır.

5

## Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Əs-səlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə Sizə, Azərbaycan Respublikası Hökumətinə və xalqına ən səmimi təbriklərimi çatdırmaqdan məmnunam.

Bruney-Darüssalam ilə Azərbaycan Respublikası arasında otuz ildən artıqdır mövcud olan səmimi dostluq münasibətlərini çox yüksək qiymətləndirirəm. Ölkələrimizin bu mühüm əlaqələrinin həm ikitərəfli əsasda, həm də beynəlxalq səviyyədə, o cümlədən Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində daha da inkişaf edəcəyinə ümidvaram.

Allah-taala zati-alinizə möhkəm cansağlığı və xoşbəxtlik, Azərbaycan xalqına isə davamlı tərəqqi və rifah nəsib etsin.

Vəssəlamu aleykum və rəhmətullahi və bərəkətuhu.

***Hacı Həssənal BOLKİAH,***
***Bruney-Darüssalamın Sultanı***

## Azərbaycan Respublikasının Birinci vitse-prezidenti xanım Mehriban Əliyevaya

Zati-aliləri!

Azərbaycan Respublikasının Müstəqillik Günü münasibətilə Sizə ən səmimi təbriklərimi çatdırmaqdan böyük məmnunluq duyuram.

Fürsətdən istifadə edərək, Azərbaycanın Fələstin məsələsinə göstərdiyi prinsipial dəstəyə, həmçinin ölkələrimiz arasında qarşılıqlı hörmət, həmrəylik və əməkdaşlıq əsasında formalaşmış davamlı dostluq münasibətlərinə görə dərin minnətdarlığımı bildirirəm.

Qarşılıqlı maraqlarımıza və dost xalqlarımızın rifahına xidmət etmək məqsədilə ikitərəfli münasibətlərimizin daha da möhkəmləndirilməsinə, həmçinin bütün sahələr üzrə əməkdaşlığın və əlaqələndirmənin genişləndirilməsinə sadiqliyimizi bir daha təsdiq edirik.

Zati-aliləri, Azərbaycan Respublikasına davamlı tərəqqi və firavanlıq arzulayır, Sizə ən yüksək ehtiramımı bildirirəm.

*Hörmətlə,*

***Hüseyn əl-ŞEYX,***
***Fələstin Dövlətinin vitse-prezidenti***

## Dayanıqlı və rəqabətqabiliyyətli inkişafın Azərbaycan nümunəsi



Milli iqtisadiyyatın rəqabətədavamlılığının artması və şaxələndirmə siyasəti son onillikdə istehsalın həcmində və strukturunda keyfiyyət dəyişikliklərinə yol açıb. Xatırladaq ki, 2015-ci ildə ümumi daxili məhsul təxminən 54 milyard manat səviyyəsində idisə, son on ildə baş verən dəyişikliklər nəticəsində bu göstərici 2025-ci ildə 129 milyard manata yüksələrək 2 dəfədən çox artıb. Lakin burada başlıca məqam iqtisadi böyümənin kəmiyyəti yox, keyfiyyət tərkibidir. Əgər əvvəlki dövrlərdə ölkə iqtisadiyyatının əsas sütununu enerji sahəsi təşkil edirdisə, son illərdə qeyri-neft sektorunun ÜDM-də payı 70 faizə qədər yüksəlib. Bu tendensiya nümayiş etdirir ki, iqtisadi tərəqqi yalnız karbohidrogen gəlirlərindən asılı deyil. Belə ki, qeyri-neft sənayesində istehsal həcmi son on ildə 2, kənd təsərrüfatı məhsulları istehsalı isə 1,5 dəfə artıb. Xidmət sektorunun payı 40 faizdən 50 faizə yüksələrək iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən birinə çevrilib.

İqtisadiyyatın şaxələndirilməsi və sənayenin inkişafı fonunda ölkəmizin daxili resursları və istehsal sahələri coğrafi baxımdan da genişlənib. Tarixi Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsindən bu yana Azərbaycan iqtisadiyyatı özünün ən böyük və hərtərəfli strateji transformasiya dövrünə qədəm qoyub. Bu yeni mərhələ, sadəcə, postmünaqişə dövrünün bərpası deyil, bütövlükdə milli iqtisadiyyatın regional və qlobal miqyasda yenidən strukturlaşdırılması prosesidir.

6

## TANAP-ın istifadəyə verilməsindən 8 il ötür

### Azərbaycanla Türkiyənin birgə layihəsi bütün Avrasiya məkanına fayda gətirir

TANAP Azərbaycanla Türkiyənin birgə layihəsidir. Lakin bu xətt təkcə iki ölkə və region üçün deyil, həm də bütün Avrasiya məkanı üçün önəm daşıyan layihədir. Bu gün Azərbaycan 16 ölkəyə qaz ixrac edir və bu, son hədd deyil. Uzun ixrac yolları isə Türkiyədən - TANAP-dan keçir.

Deyilənlərə onu da əlavə etmək istədik ki, 2026-cı ilin yanvar-mart ayları ərzində Azərbaycan xarici ölkələrə 6,5 milyard kubmetr təbii qaz ixrac edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 8,3 faiz artım deməkdir. İxracın istiqamətləri isə belədir: Avropa - 3 milyard kubmetr, Türkiyə - 2,4 milyard kubmetr (bunun 1,5 milyard kubmetri TANAP vasitəsilə), Gürcüstan - 0,8 milyard kubmetr, Suriya - 0,3 milyard kubmetr. Bu dövrdə ölkədə ümumi qaz hasilatı 12,6 milyard kubmetr təşkil edib. 2026-cı ilin yanvar-aprel aylarında Azərbaycanın xaricə təbii qaz ixracı 8,416 milyard kubmetr olub.

7




## Neft qiymətləri yenidən artdı



Beynəlxalq maliyyə qurumları Körfəzdəki böhrandan sonra öz proqnozlarını dərhal dəyişdilər. Hazırkı vəziyyət qlobal bazarda qiymətlərin 80-103 ABŞ dolları aralığına yüksəlməsinə səbəb olub. Bu gərginlik səbəbindən aparıcı institutlar yeni rəqəmlərini açıqlayıblar. Belə ki, "Fitch Ratings" 2026-cı il üçün "Brent" neftinin orta qiymət proqnozunu 87 ABŞ dollarına qaldırdığı halda, "Goldman Sachs" yaxın dövrdə bu qiymətin orta hesabla 90 ABŞ dolları təşkil edəcəyini gözləyir.

Körfəzdə yaşananlar bir daha sübut edir ki, qlobal enerji bazarı coğrafi sərhədlərə sığmayan, hər bir hadisəyə dərhal reaksiya verən vahid və həssas bir sistemdir. Bir tərəfdən, dövlətlərin strateji ehtiyatlarının sürətlə tükənməsi, digər tərəfdən isə, neft tankerlərinin hədəf alınması qlobal iqtisadiyyatı böyük təhlükə altına qoyur. İndi bütün diqqət rəsmi enerji agentliklərinin hesabatlarındadır. Körfəzdə dəniz nəqliyyatının təhlükəsizliyi təmin edilməsə, bu, təkcə enerji sektorunu sarsıtmayacaq. Bu böhran neft ixrac edən ölkələrin gəlirlərindən tutmuş qlobal iqtisadi artıma qədər hər şeyə mənfi təsir edə bilər. Yanacağın qiymətinin yüksək olması dünyada yeni bir inflyasiya dalğası yaradaraq gündəlik tələbat mallarının da kəskin bahalaşmasına yol açacaq. Başqa sözlə, müasir dünya iqtisadiyyatının və sıravi istehlakçıların rifahı hazırda birbaşa Hörmüzdəki sabitlikdən asılı vəziyyətdədir.

5

# Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə

Zati-aliləri!

Ölkənizin Müstəqillik Günü münasibətilə Qambiya Respublikası Hökuməti və xalqı adından Sizə, Azərbaycan Respublikası Hökumətinə və xalqına ən səmimi təbriklərimi və ən xoş arzularımı çatdırmaqdan məmnunam.

Qambiya Respublikası ilə Azərbaycan Respublikası arasında qarşılıqlı hörmətə, ortaq dəyərlərə və beynəlxalq əməkdaşlığın, inkişafın təşviqi ilə bağlı birgə səylərə əsaslanan uzunmüddətli dostluq münasibətləri inkişaf etmişdir.

Qəti şəkildə əminəm ki, müdrik rəhbərliyinizlə ölkələrimiz və xalqlarımız arasında təhsil, gənclərin inkişafı və bu sahələrdə potensialın artırılması istiqamətlərində əməkdaşlıq qarşılıqlı fayda naminə dərinləşməkdə davam edəcək.

Fürsətdən istifadə edərək ölkələrimiz arasında ikitərəfli münasibətlərin daha da möhkəmləndirilməsində Sizinlə işləməyə hazır olduğumu bir daha təsdiq edirəm.

Bu əlamətdar bayram münasibətilə Sizə və Azərbaycan xalqına rifah arzulayıram.

*Hörmətlə,*

***Adama BARROU,***
***Qambiya Respublikasının Prezidenti***

❖ ❖ ❖

Zati-aliləri!

Azərbaycanın Müstəqillik Günü münasibətilə Sizə və xalqınıza təbriklərimi və ən xoş arzularımı çatdırıram.

Fürsətdən istifadə edərək ölkələrimiz arasında mükəmməl səviyyədə olan əməkdaşlığa görə Sizə minnətdarlığımı bildirirəm. İkitərəfli əlaqələrimizin daha da genişləndirilməsinə həmişə hazır olduğumuzu bir daha təsdiqləyirəm.

Ölkənizə davamlı tərəqqi arzulayır, zati-alinizə olan ən yüksək ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

*Hörmətlə,*

***Edi RAMA,***
***Albaniya Respublikasının Baş naziri***

# İqtisadi Şuranın iclasında Ələt Azad İqtisadi Zonasına dair tapşırıqlar verilib

İyunun 11-də Baş nazir Əli Əsədovun rəhbərliyi ilə İqtisadi Şuranın iclası keçirilib.

Nazirlər Kabinetindən AZƏRTAC-a bildirilib ki, iclasın gündəliyində Ələt Azad İqtisadi Zonasının fəaliyyətinin təşkili ilə bağlı görülmüş işlər, həlli vacib infrastruktur məsələləri, strateji baxış və inkişaf perspektivləri, həmçinin xidmət sektorunun iqtisadi artımda rolu və inkişaf potensialı, xidmət sektorunda müəyyən edilmiş prioritet istiqamətlər, təkliflər və digər cari məsələlər ətraflı müzakirə olunub.

Prezidentin köməkçisi - Prezident Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri Şahmar Mövsümovun və iqtisadiyyat naziri Mikayıl Cabbarovun gündəlikdəki məsələlər üzrə təqdimatları dinlənilib. İqtisadi Şuranın üzvləri və Ələt Azad İqtisadi Zonasının İdarə Heyətinin sədri Valeh Ələsgərov təqdim olunan məsələlərə dair çıxış ediblər.

İclasın yekununda İqtisadi Şuranın üzvlərinin rəy və təklifləri nəzərə alınmaqla müvafiq qərarlar qəbul olunub və aidiyyəti qurumlara tapşırıqlar verilib.



# Parlamentdə kənd təsərrüfatının inkişafına dair ictimai dinləmə keçirilib

İyunun 11-də Milli Məclisdə "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"ndan irəli gələn vəzifələr barədə ictimai dinləmə keçirilib.



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Ulu Öndər Heydər Əliyevin ölkəmizdə kənd təsərrüfatının inkişafında xüsusi rolunu qeyd edib. Deyib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən mühüm dövlət proqramları, layihələr, imzalanan fərman və sərəncamlar, xüsusilə regionların sosial-iqtisadi inkişafı istiqamətində görülən tədbirlər aqrar sektorun daha da inkişaf etdirilməsinə zəmin yaradıb. Dövlət başçımız cari il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə bu barədə ətraflı söz açaraq əldə olunan uğurlara, yol verilən çatışmamazlıqlara, qarşıda duran vəzifələrə öz münasibətini bildirib. Prezidentin çıxışında səsləndirilən fikirlərin və qəbul edilən "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın aqrar sektorun inkişafı üçün aydın yol xəritəsi olduğunu vurğulayıb.

Tahir Rzayev dövlət proqramının önəmini və bununla bağlı geniş müzakirələrin vacibliyini qeyd edib. O, Milli Məclisin Sədri Sahibə Qafarovanın tövsiyəsi ilə parlamentin Aqrar siyasət, İqtisadi siyasət, sənaye və sahibkarlıq, Təbii ehtiyatlar, energetika və ekologiya komitələrinin Kənd Təsərrüfatı Nazirliyi ilə birgə bugünkü dinləmənin təşkil edildiyini deyib və tədbirin keçirilməsinə göstərdiyi dəstəyə görə spikerə təşəkkürünü bildirib.

Komitə sədri kənd təsərrüfatının Azərbaycan iqtisadiyyatının əsas sahələrindən olduğunu və dövlətimiz tərəfindən aqrar sektora xüsusi diqqət yetirildiyini söyləyib. Qeyd edib ki, kənd təsərrüfatı milli və ərzaq təhlükəsizliyinin təmin olunmasında, kəndlərdə məskunlaşmanın qorunmasında, yeni iş yerlərinin açılmasında və əhalinin gəlirlərinin artırılmasında mühüm rol oynayır. Bu sahənin inkişafı, ilk növbədə insan amilinə, həmçinin vətəndaşların həyat şəraitinin və rifahının yaxşılaşdırılmasına xidmət edir.

Tahir Rzayev ölkə rəhbərinin aqrar sektorun iqtisadiyyatda rolunun genişləndirilməsini, ərzaq təhlükəsizliyinin gücləndirilməsini, məhsuldarlığın artırılmasını, müasir, innovativ texnologiyaların tətbiqini, subsidiya mexanizminin, dövlət dəstəyinin daha da təkmilləşdirilməsini başlıca məqsəd kimi qarşıya qoyduğunu vurğulayıb. O, bu vəzifələrin dövlət proqramında aydın şəkildə öz əksini tapdığını deyib. Qeyd edib ki, sənədə əsasən, müəyyən olunmuş illər üzrə aqrar sektorun inkişafı üçün 6 milyard manat vəsaitin ayrılması və 3 milyard manatdan çox özəl investisiyanın cəlb edilməsi nəzərdə tutulur.

Bildirilib ki, Milli Məclis aqrar sektorun inkişafına yönəlmiş dövlət dəstəyinin həyata keçirilməsində daim öndə olub. Ölkəmizdə kənd təsərrüfatının möhkəm hüquqi bazası formalaşdırılıb. Dövlət proqramlarında qarşıya qoyulan vəzifələrin ictimaiyyətə çatdırılmasında və təşviqində parlament yaxından iştirak edir. Habelə vurğulanıb ki, dövlət başçımızın aqrar sahəyə göstərdiyi diqqət və qayğı ölkəmizin davamlı inkişaf strategiyasının mühüm tərkib hissəsidir və bu siyasət gələcək nəsillərin ərzaq təhlükəsizliyinin etibarlı şəkildə təmin olunmasına xidmət edir.

Sonra kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxış edib. O, kənd təsərrüfatının Azərbaycanın sosial-iqtisadi inkişafında xüsusi yer tutan strateji sahələrdən biri olduğunu qeyd edib. Nazir cari il mayın 25-də Prezident İlham Əliyevin sədrliyi ilə keçirilən kənd təsərrüfatının inkişafına həsr olunmuş müşavirədə yeni proqramın hazırlanmasının zəruriliyinin vurğulandığını söyləyib. Eyni zamanda ərzaq təhlükəsizliyinin gücləndirilməsi, idxalın azaldılması, yerli istehsalın artırılması, infrastrukturun inkişafı və investorların bu sahəyə cəlbi ilə bağlı tapşırıqların verildiyini bildirib.

Məcnun Məmmədov "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nın önəmindən danışaraq, sənədə əsasən müasir çağırışlara uyğun hüquqi bazanın formalaşdırılmasının, qarşıdakı dövrdə kənd təsərrüfatı, balıqçılıq və akvakultura sahələrində normativ-hüquqi təşəbbüslərin həyata keçirilməsinin nəzərdə tutulduğunu deyib.

Aqrar sahədə qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində görüləsi işlərdən bəhs edən nazir kənd təsərrüfatı fəaliyyəti, məhsulu və istehsalçısı kimi əsas anlayışların təsbitinin, aqrar xidmətlər və dövlət dəstəyi mexanizmlərinin hüquqi əsaslarının formalaşdırılmasının, habelə aqrar terminologiyanın unifikasiyasının, iqlim dəyişikliklərinin, kənd yerlərinin inkişafı və dayanıqlı istehsal kimi müasir yanaşmaların qanunvericilikdə əks olunmasının vacibliyini qeyd edib. O, həmçinin balıqçılıq və akvakultura sahəsində qanunvericiliyin yenilənməsinin, bu sahədə rəqəmsallaşmanın genişləndirilməsinin, qeydiyyat və uçotun sadələşdirilməsinin, elektron xidmətlərin tətbiqinin və idarəetmənin təkmilləşdirilməsinin təmin edilməsinin nəzərdə tutulduğunu bildirib. Bununla yanaşı, bitkiçilik sektorunda toxumçuluq sahəsində islahatların aparılacağını söyləyib. Eyni zamanda bildirilib ki, dövlət proqramının əsas istiqamətlərindən biri torpaq ehtiyatlarından səmərəli istifadədir. Bu məqsədlə kənd təsərrüfatı torpaqlarının parçalanmasının qarşısının alınması və torpaq konsolidasiyası mexanizmlərinin tətbiqi nəzərdə tutulur. Bu sahədə qanunvericilik dəyişiklikləri ilə hüquqi və institusional baza yaradılacaq, torpaqların birləşdirilməsi və səmərəli istifadəsi təmin ediləcək. Bununla yanaşı, fermerlərin maliyyə resurslarına çıxışının genişləndirilməsi ilə bağlı müvafiq addımların atılması planlaşdırılır.

Məcnun Məmmədov dövlət proqramı çərçivəsində nəzərdə tutulan normativ-hüquqi islahatların aqrar sektorun idarə edilməsinin təkmilləşdirilməsinə, rəqabətqabiliyyətliliyinin artırılmasına, investisiya mühitinin yaxşılaşdırılmasına və kənd təsərrüfatının müasir inkişaf çağırışlarına uyğun şəkildə transformasiyasına töhfə verəcəyini vurğulayıb.

Sonra tədbirdə Aqrar Tədqiqatlar Mərkəzinin direktoru Rəşad Hüseynov çıxış edərək, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı"nı slaydlar vasitəsilə təqdim edib.

O, son 10 il ərzində ölkədə kənd təsərrüfatının müxtəlif istiqamətlərində məhsulların istehsalında müşahidə edilən artım, infrastruktur və resurs bazası üzrə əldə edilən nailiyyətlər barədə məlumat verib. Bununla yanaşı, resurs və ətraf mühit təsirləri, torpaqların inkişafı, iqlim dəyişiklikləri, habelə struktur və iqtisadi təsirlər, müasir texnologiyaların tətbiqi, ixrac potensialı, urbanizasiya, kadr potensialı, xarici təsirlər ilə bağlı qarşıda duran çağırışlardan bəhs edib.

Məruzəçi ölkə Prezidentinin tapşırığına uyğun olaraq, eyni zamanda, yuxarıda qeyd olunan çağırışları nəzərə alaraq, Kənd Təsərrüfatı Nazirliyi tərəfindən müvafiq dövlət proqramının hazırlandığını bildirib. O, dövlət proqramının 5 prioritet istiqamət, 16 fəaliyyət istiqaməti, 86 tədbir və 23 hədəf indikatorlarından ibarət olduğunu söyləyib. Dövlət proqramının qısamüddətli dövrü əhatə etdiyini, layihə əsaslı tədbirlərin həyata keçirilməsinin, regionların inkişafına yönəlmiş işlərin görülməsinin, o cümlədən infrastruktur və investisiya layihələrinin nəzərdə tutulduğunu qeyd edib.

Diqqətə çatdırılıb ki, dövlət proqramında fundamental və dəstəkləyici tədbirlər əks olunub. Dəstəkləyici tədbirlər çərçivəsində qanunvericilik təşəbbüsləri, institusional islahatlar və rəqəmsallaşma ilə bağlı məsələlər əhatə olunur. Fundamental tədbirlər çərçivəsində buğda bitkisi üzrə istehsal potensialının gücləndirilməsi, pambıqçılıq klasterinin inkişafı, müasir suvarma sistemləri ilə təminatın yaxşılaşdırılması, pilot konsolidasiya layihəsinin tətbiqi, intensiv bağların genişləndirilməsi, istixana sahələrinin inkişafı, taxıl siloları və soyuducu anbar infrastrukturunun yaxşılaşdırılması ilə bağlı, iribuynuzlu heyvandarlıq, qoyunçuluq, quşçuluq sektorlarında, balıqçılıq və akvakultura sahəsində hədəf göstəricilər və tədbirlər müəyyən edilir. Bununla yanaşı, dövlət proqramında göstərilən işlərin həyata keçirilməsi üçün maliyyə ehtiyacı və investisiya mənbələri barədə də məlumat verilib.

Sonra Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Azər Əmiraslanov, İntizam komissiyasının sədri Eldar İbrahimov çıxış ediblər.

Çıxışlarda vurğulanıb ki, ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, qeyri-neft sektorunun genişləndirilməsi, regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsi, ixrac potensialının artırılması və müasir texnologiyaların tətbiqi istiqamətlərini vahid inkişaf konsepsiyasında birləşdirən dövlət proqramı ölkənin dayanıqlı iqtisadi inkişafını təmin edən mühüm strateji sənədlərdən biridir. Son illərdə qlobal ərzaq bazarlarında müşahidə edilən qiymət dəyişkənliyi, iqlim dəyişikliklərinin təsirləri, logistika zəncirlərində yaranan problemlər və geosiyasi proseslər kənd təsərrüfatının strateji əhəmiyyətini daha da artırıb. Bu şəraitdə daxili istehsalın gücləndirilməsinin və ərzaq təminatının etibarlı əsaslar üzərində qurulmasının dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğu vurğulanıb.

Diqqətə çatdırılıb ki, qarşıdakı illərdə torpaq və su ehtiyatlarından maksimum səmərəli istifadə etməklə yüksək əlavə dəyər yaradan, rəqabətqabiliyyətli və ixracyönümlü aqrar modelin formalaşdırılması əsas hədəflər sırasındadır. Bu baxımdan kənd təsərrüfatında intensiv inkişaf modelinə keçid dövlət proqramının mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Çıxışlarda aqrar istehsalda rəqəmsal texnologiyaların tətbiqi, "ağıllı suvarma" sistemlərinin genişləndirilməsi, müasir seleksiya və toxumçuluq fəaliyyətinin inkişafı, elmi tədqiqatların istehsal prosesləri ilə inteqrasiyası, innovativ yanaşmaların təşviqi və aqrar sahədə kadr potensialının gücləndirilməsinin məhsuldarlığın artırılmasına xidmət edən əsas amillər olduğu bildirilib.

Qeyd edilib ki, əkin sahələrinin strukturunun təkmilləşdirilməsi, torpaq ehtiyatlarının səmərəli idarə olunması, aqrar rayonlarda əhalinin rifah səviyyəsinin yüksəldilməsi, kənd yerlərində məşğulluğun artırılması, aqrar siyasətdə ixtisaslaşmanın dərinləşdirilməsi və elektron kənd təsərrüfatı sisteminin inkişaf etdirilməsi qarşıda duran mühüm vəzifələrdəndir. Həmçinin fermerlərin dövlət dəstəyi mexanizmlərinə çıxışının genişləndirilməsinin, subsidiya və güzəştli kredit mexanizmlərinin təkmilləşdirilməsinin, kənd təsərrüfatı kooperasiyalarının inkişafının və aqrar sığorta sisteminin əhatə dairəsinin genişləndirilməsinin sektorun dayanıqlığını artıracağı vurğulanıb.

Çıxışlarda işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və quruculuq işlərinin kənd təsərrüfatının inkişafı üçün yaratdığı yeni imkanlardan da bəhs olunub. Bildirilib ki, həmin ərazilərdə su anbarlarının və müasir suvarma infrastrukturunun istifadəyə verilməsi əkin sahələrinin su təminatının yaxşılaşdırılmasına, su ehtiyatlarının balanslı və səmərəli idarə edilməsinə, monitorinq və nəzarət sistemlərinin qurulmasına mühüm töhfə verir.

Vurğulanıb ki, həyata keçirilən məqsədyönlü siyasət nəticəsində kənd təsərrüfatı ölkə iqtisadiyyatının aparıcı sahələrindən biri kimi mövqeyini daha da möhkəmləndirəcək, ərzaq təhlükəsizliyinin təmin olunmasına, qeyri-neft ixracının artmasına və regionların davamlı inkişafına mühüm töhfələr verəcək.

Məsələ ilə bağlı müzakirələrdə Aqrar siyasət komitəsinin sədr müavini Razi Nurullayev, deputatlar Ziyad Səmədzadə, Əlibala Məhərrəmzadə, Əli Məsimli, Vüqar İskəndərov, Tahir Mirkişili, Müşfiq Cəfərov, Aydın Hüseynov, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədr müavini İlham Bayramov və Azərbaycan Dövlət Aqrar Universitetinin rektoru Zəfər Qurbanov çıxış edərək, aqrar sahədə qarşıya qoyulan vəzifələrin, həyata keçiriləcək tədbirlərin vacibliyindən bəhs ediblər, bəzi qeyd və təkliflərini səsləndiriblər.

Sonra kənd təsərrüfatı naziri Məcnun Məmmədov çıxışlarda qaldırılan məsələlərə münasibət bildirib.

***"Azərbaycan"***

# Orta dəhliz qlobal ticarətin dayanıqlılığını təmin edir

Yaxın Şərqdə artan gərginlik dünya ticarət marşrutlarının təhlükəsizliyi məsələsini yenidən gündəmə gətirib. Xüsusilə Qırmızı dəniz və Süveyş kanalı ətrafında yaranan risklər alternativ nəqliyyat yollarının əhəmiyyətini artırır. Bu baxımdan Orta dəhliz son illərdə daha çox diqqətçəkən marşrutlardan birinə çevrilib.



**Milli Məclisin deputatı Aydın HÜSEYNOV** qəzetimizə açıqlamasında deyib ki, Orta dəhliz Çin, Mərkəzi Asiya, Xəzər dənizi, Azərbaycan, Gürcüstan və Türkiyə üzərindən Avropaya uzanan nəqliyyat xəttidir. Bu marşrut Şərqlə Qərbi birləşdirən ən qısa və təhlükəsiz alternativlərdən biri hesab olunur. "Hazırda dünya ticarətinin təxminən 12 faizi Süveyş kanalı vasitəsilə həyata keçirilir. Bölgədə hər hansı hərbi və ya siyasi gərginlik yükdaşımaların gecikməsinə, nəqliyyat xərclərinin artmasına və təchizat zəncirlərində problemlərə səbəb olur. Son aylarda baş verən hadisələr bunu bir daha təsdiqlədi. Belə şəraitdə Orta dəhliz yükdaşımaların şaxələndirilməsi baxımından strateji əhəmiyyət qazanır. Bu marşrut vasitəsilə Çin ilə Avropa arasında yüklərin daşınma müddəti orta hesabla 15-20 günə qədər azalır. Müqayisə üçün qeyd etmək olar ki, bəzi dəniz marşrutlarında bu müddət 35-45 günə qədər uzana bilir", - deyə o əlavə edib.

Azərbaycanın Orta dəhlizin əsas iştirakçılarından biri olduğunu deyən deputat qeyd edib ki, son illərdə ölkədə nəqliyyat və logistika infrastrukturuna böyük investisiyalar yatırılıb. Bakı Beynəlxalq Dəniz Ticarət Limanının yükaşırma gücü hazırda ildə 15 milyon ton təşkil edir və gələcəkdə bunun 25 milyon tona çatdırılması nəzərdə tutulur. Bakı-Tbilisi-Qars dəmir yolu da bu marşrutun əsas həlqələrindən biridir.

A.Hüseynov bildirib ki, 2024-cü ildə Orta dəhliz üzrə yükdaşımaların həcmi əvvəlki illərlə müqayisədə əhəmiyyətli artım göstərib: "Beynəlxalq təşkilatların proqnozlarına görə, yaxın illərdə bu marşrutla daşınan yüklərin həcmi daha da yüksələcək. Bu isə region ölkələri üçün əlavə gəlirlər, yeni investisiyalar və iqtisadi imkanlar deməkdir".

Deputat vurğulayıb ki, Yaxın Şərqdə davam edən qeyri-müəyyənlik fonunda Orta dəhliz təkcə alternativ nəqliyyat xətti deyil, həm də qlobal ticarətin dayanıqlılığını təmin edən vacib strateji marşrut kimi önə çıxır. Azərbaycanın bu dəhlizdə oynadığı rol isə ölkənin beynəlxalq logistika və nəqliyyat mərkəzi kimi mövqeyini daha da gücləndirir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# Vaşinqtonda Xəzər Siyasət Mərkəzinin təşkilatçılığı ilə ənənəvi Trans-Xəzər Forumu keçirilib



AZƏRTAC xəbər verir ki, forumda Azərbaycan, ABŞ, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Türkiyə və digər ölkələrdən yüksəkvəzifəli rəsmilər, eləcə də regional və qlobal səviyyədə nüfuzlu nümayəndələr iştirak ediblər. Builki tədbir həm də Xəzər Siyasət Mərkəzinin fəaliyyətinin 10 illiyinə təsadüf edib.

Forum "Orta dəhliz dönüş nöqtəsində: Trans-Xəzər regionu üçün gələcək nəslin inkişafı" mövzusu altında təşkil olunub.

Xəzər Siyasət Mərkəzinin baş icraçı direktoru Əfqan Nifti bildirib ki, ABŞ-nin həm enerji, həm texnologiya, həm də kritik minerallar sahələrində Mərkəzi Asiya və Qafqaza marağı getdikcə artır. O qeyd edib ki, ötən ilin avqustunda Prezident Donald Trampın iştirakı ilə Ağ Evdə Azərbaycan və Ermənistan liderlərinin görüşünün keçirilməsi, eləcə də C5 formatında Mərkəzi Asiya ölkələri rəhbərlərinin Vaşinqtonda qəbul olunması ABŞ-nin regiona strateji marağının və əməkdaşlığa verdiyi önəmin daha da artdığını göstərir.

Qazaxıstan Prezidentinin ABŞ ilə danışıqlar üzrə xüsusi nümayəndəsi Ercan Kazıxan onlayn çıxışında bildirib ki, Qazaxıstan ABŞ və regional tərəfdaşlarla əməkdaşlığın daha da dərinləşdirilməsi üçün geniş imkanlar görür. Onun sözlərinə görə, ölkəsi regional tərəfdaşları ilə birlikdə Orta dəhlizin rəqəmsal komponentinin inkişafı üzərində çalışır. Bu kontekstdə o, Qazaxıstanı və Azərbaycanı Xəzər dənizinin dibi ilə birləşdirəcək Trans-Xəzər fiber-optik kabel layihəsini xüsusi vurğulayıb. Kazıxan qeyd edib ki, layihənin 2026-cı ilin sonunadək tamamlanması nəzərdə tutulur.

Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev onlayn çıxışı zamanı bildirib ki, Orta dəhliz artıq, sadəcə, nəqliyyat marşrutu olmaqdan çıxaraq Avropa, Cənubi Qafqaz, Mərkəzi Asiya və digər regionları birləşdirən strateji geoiqtisadi sistemə çevrilməkdədir. Onun sözlərinə görə, hazırda bu transformasiyanın dərinləşdiyi mərhələ müşahidə olunur. Hikmət Hacıyev vurğulayıb ki, Körfəz regionu və Yaxın Şərqdə münaqişələrin kəskinləşdiyi bir dövrdə Orta dəhlizin strateji əhəmiyyəti daha da artır.

Özbəkistan Prezidentinin müşavirinin müavini Cavlon Vahabov bildirib ki, bütün Mərkəzi Asiya regionunun xarici bazarlara çıxışını genişləndirə biləcək alternativ marşrutların mövcudluğu böyük əhəmiyyət daşıyır. Onun sözlərinə görə, Orta dəhliz təkcə tranzit marşrutu deyil, həm də rəqabət qabiliyyətinin artırılması, dayanıqlığın gücləndirilməsi və iqtisadi inkişafın təşviqi baxımından strateji əhəmiyyət kəsb edir. Vahabov bu kontekstdə Trans-Xəzər ölkələri arasında əməkdaşlığın genişlənməsi istiqamətində əldə olunan irəliləyişi yüksək qiymətləndirib. O, xüsusilə Türk Dövlətləri Təşkilatı çərçivəsində yükdaşımalar üçün icazə prosedurlarının sadələşdirilməsi və bu sahədə əldə edilən nailiyyətləri vurğulayıb.

Qırğızıstan Prezidentinin beynəlxalq təşəbbüslər üzrə xüsusi nümayəndəsi Edil Baisalov çıxışı zamanı Orta dəhlizin həm Qırğızıstan, həm də bütövlükdə region üçün yaratdığı yeni imkanlardan bəhs edib. O, bu marşrutun regional əlaqələrin genişlənməsi, ticarətin inkişafı və iqtisadi inteqrasiyanın dərinləşməsi baxımından əhəmiyyətini diqqətə çatdırıb.

Tədbirə xüsusi qonaq qismində qatılan ABŞ Senatının Xarici Əlaqələr Komitəsinin üzvü, senator Stiv Deyns ABŞ, Mərkəzi Asiya və Qafqaz ölkələrinin artıq strateji baxımdan bir-birinə daha da yaxınlaşdığını deyib. O bildirib ki, bu fundamental dəyişiklik nəticəsində münasibətlər hazırda olduqca müsbət mərhələyə qədəm qoyub. Onun sözlərinə görə, Mərkəzi Asiyada və Qafqazda artan iqtisadi inteqrasiya birgə maraqlara xidmət edəcək, əhali üçün daha geniş iqtisadi inkişaf imkanları yaradacaq və ümumi təhlükəsizliyi gücləndirəcək.

Konfransın davamında "Orta dəhliz: Strateji seçimin gücləndirilməsi və təhlükəsiz şəbəkələrin qurulması", "Rəqəmsal suverenlik və sənaye süni intellekti: texnologiya növbəti inkişaf vektoru kimi", "Kritik minerallar", "Enerji təhlükəsizliyi: dəyişən qlobal bazarda Xəzər hövzəsi" və "Orta dəhliz boyunca biznes investisiyaları" mövzularında panel müzakirələri keçirilib.

Panel sessiyalarında Azərbaycan, ABŞ və digər ölkələrdən dövlət qurumlarının nümayəndələri, ekspertlər, eləcə də Birləşmiş Ştatların biznes dairələrinin təmsilçiləri çıxış edərək müvafiq sahələr üzrə fikir və təcrübələrini bölüşüblər.

# *Kənd təsərrüfatının inkişafında yeni mərhələ:* dövlət siyasəti, ictimai iştirakçılıq və yeni prioritetlər

Azərbaycanın iqtisadi inkişaf strategiyasında kənd təsərrüfatı hər zaman xüsusi yer tutub.



Son illər həyata keçirilən məqsədyönlü islahatlar, dövlət dəstəyi mexanizmlərinin təkmilləşdirilməsi, müasir texnologiyaların tətbiqi və fermerlərin fəaliyyətinin stimullaşdırılması aqrar sektorun inkişafında yeni imkanlar yaradıb. Bu gün ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsi, idxaldan asılılığın azaldılması və ixracyönümlü istehsalın genişləndirilməsi dövlət siyasətinin əsas prioritetlərindən biridir.

Prezident İlham Əliyevin 2026-cı il mayın 25-də kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirədə səsləndirdiyi fikirlər də bu sahənin ölkənin gələcək inkişafı baxımından strateji əhəmiyyətini bir daha ortaya qoydu. Dövlət başçısı vurğuladı ki, kənd təsərrüfatı yalnız iqtisadiyyatın mühüm sahəsi deyil, həm də ölkənin ərzaq və milli təhlükəsizliyinin əsas dayaqlarından biridir. Azərbaycan Prezidenti məhsuldarlığın artırılması, innovasiyaların tətbiqi və ixrac potensialının genişləndirilməsi ilə bağlı mühüm tapşırıqlar verdi. Bu tapşırıqlar aqrar sektorun inkişafında keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilir.

Məhz bu baxımdan iyunun 11-də Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyində keçirilən "Azərbaycanın kənd təsərrüfatının inkişafında yeni prioritetlər" mövzusunda ictimai müzakirə xüsusi əhəmiyyət daşıyır. Aqrar sahə profilli qeyri-hökumət təşkilatlarının iştirak etdiyi tədbirdə dövlət başçısının müəyyən etdiyi prioritetlər fonunda vətəndaş cəmiyyətinin bu prosesdə rolu geniş müzakirə olundu. Agentliyin Müşahidə Şurasının üzvü, Milli Məclisin deputatı Rizvan Nəbiyev çıxışında bildirdi ki, Prezident İlham Əliyevin kənd təsərrüfatının inkişafı ilə bağlı müəyyən etdiyi vəzifələr aqrar sahədə yeni inkişaf mərhələsi yaradır.

Rizvan Nəbiyev xüsusilə vurğulayıb ki, aqrar sahədə fəaliyyət göstərən qeyri-hökumət təşkilatları bu prosesdə daha fəal iştirak etməli, öz ideya və təklifləri ilə aparılan islahatlara töhfə verməlidirlər. Diqqətçəkən məqamlardan biri də aqrar mövzuların QHT Agentliyinin növbəti qrant müsabiqələrinin əsas istiqamətlərindən biri kimi müəyyənləşdirilməsidir. Bu qərar vətəndaş cəmiyyətinin aqrar siyasətin həyata keçirilməsində rolunun daha da gücləndirilməsinə xidmət edəcək.

Tədbirdə çıxış edən İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müşaviri Bağış Əhmədov aqrar sektorun inkişaf perspektivləri barədə ətraflı məlumat verib. O bildirib ki, kənd təsərrüfatı ümumi daxili məhsulda 5,9 faiz paya malik olsa da, kənd yerlərində məşğulluğun təmin olunması və ərzaq təhlükəsizliyinin qorunmasında əvəzsiz rol oynayır. Səsləndirilən proqnozlara görə, 2030-cu ilədək kənd təsərrüfatında yaradılan əlavə dəyərin 2025-ci illə müqayisədə ən azı 10,4 faiz artacağı gözlənilir. Bu artımın əsas mənbəyi isə ixrac potensialının genişlənməsi olacaq. Gözləntilərə əsasən, kənd təsərrüfatı, balıqçılıq və emal məhsullarının ixracı qeyd olunan dövrdə təxminən 34 faiz artacaq.

Müzakirələr zamanı aqrar sahədə elmin və innovasiyaların roluna da xüsusi diqqət ayrılıb. İtaliya-Azərbaycan Universitetinin Kənd təsərrüfatı və qida elmləri fakültəsinin müəllimi, professor Sahil Quliyev iqlim dəyişiklikləri şəraitində aqrar istehsalın dayanıqlığının təmin olunması üçün müasir texnologiyaların, rəqəmsal həllərin və elmi yeniliklərin tətbiqinin vacibliyini qeyd edib. O, aqrar təhsil müəssisələri, elmi-tədqiqat institutları və fermerlər arasında əməkdaşlığın genişləndirilməsinin gələcək inkişaf üçün mühüm əhəmiyyət daşıdığını vurğuladı.

Kənd Təsərrüfatı Nazirliyi yanında İctimai Şuranın sədri Mürvət Həsənli isə aqrar sahədə fəaliyyət göstərən çoxsaylı assosiasiyaların və vətəndaş cəmiyyəti institutlarının bir platformada təmsil olunmasının əhəmiyyətindən danışdı. O bildirdi ki, fermerlərin problemlərinin operativ şəkildə öyrənilməsi, onların təkliflərinin aidiyyəti qurumlara çatdırılması və qərarların qəbulunda ictimai iştirakçılığın təmin edilməsi aqrar siyasətin effektivliyini artıran mühüm amillərdəndir. Müzakirələrdə iştirak edən QHT nümayəndələri də kənd təsərrüfatının müxtəlif istiqamətləri üzrə təkliflərini səsləndirdilər. "Azərbaycan Trüfel İstehsalçılarının İnkişafına Dəstək" İctimai Birliyinin sədri Lalə Həmidova ölkədə yüksək gəlir gətirən trüfel istehsalının inkişafı üçün geniş imkanların formalaşdığını diqqətə çatdırdı.

Tədbirdə səsləndirilən mühüm fikirlərdən biri də aqrar sahədə maarifləndirmənin gücləndirilməsi ilə bağlı oldu. Bildirildi ki, xüsusilə radio və digər media platformalarında kənd təsərrüfatı ilə bağlı məlumatların daha geniş yayılmasına, ixtisaslaşmış vətəndaş cəmiyyəti institutlarının mövqelərinin ictimaiyyətə çatdırılmasına ciddi ehtiyac var. Məhz bu məqsədlə müzakirələrə ölkənin aparıcı radio kanallarının rəhbər şəxsləri də dəvət olunublar.

Bütün bunlar göstərir ki, Prezident İlham Əliyevin müəyyən etdiyi yeni inkişaf prioritetləri fonunda Azərbaycan kənd təsərrüfatı keyfiyyətcə yeni mərhələyə qədəm qoyur. Dövlət qurumları, elmi müəssisələr, özəl sektor, fermerlər və vətəndaş cəmiyyəti institutlarının birgə fəaliyyəti ölkənin ərzaq təhlükəsizliyinin daha da möhkəmlənməsinə, ixrac imkanlarının genişlənməsinə və kənd yerlərinin davamlı inkişafına mühüm töhfə verəcək. QHT Agentliyində keçirilən ictimai müzakirə də məhz bu strateji məqsədlərə xidmət edən geniş əməkdaşlıq platformasının formalaşdığını nümayiş etdirdi.

***Elşən QƏNİYEV,***
***İlham BABAYEV (foto),***
***"Azərbaycan"***

# Xalq-lider birliyinin təntənəsi

İyunun 11-də Nəsimi Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası (YAP) Nəsimi rayon təşkilatı və Azərbaycan Dillər Universitetinin birgə təşkilatçılığı ilə 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş "Milli Qurtuluş Günü: Xalq-lider birliyinin təntənəsi" mövzusunda tədbir keçirilib.






Əvvəlcə Ulu Öndər Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Çıxış edən Yeni Azərbaycan Partiyası Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri, Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı Tahir Budaqov qeyd edib ki, tariximizin taleyüklü səhifələrindən biri olan Milli Qurtuluş Günü ölkəmizin gerçək müstəqilliyini və tənəzzüldən xilas olaraq tərəqqi mərhələsinə yüksəlməsini təmin edən tarixi dönüş nöqtəsi kimi yaddaşlara əbədi həkk olunub: "Sirr deyil ki, 1991-cı ildə dövlət müstəqilliyini bərpa etmiş ölkəmiz ciddi daxili və xarici təhdidlərlə üzləşmişdi. Dərin iqtisadi və siyasi böhrandan əziyyət çəkən Azərbaycan Ermənistanın genişlənən hərbi təcavüzü fonunda regionda təcrid vəziyyətinə düşmüşdü. Belə bir mürəkkəb dönəmdə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı Azərbaycanı ağır sınaqlardan xilas etdi və gələcək inkişafın möhkəm təməllərini yaratdı".

YAP Sədrinin müavini vurğulayıb ki, 1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Respublikası Ali Sovetinin Sədri seçilməsi ilə müasir tariximizdə yeni mərhələnin əsası qoyuldu: "Ulu Öndərin zəngin dövlətçilik təcrübəsi və uzaqgörən siyasəti sayəsində ölkədə sabitlik bərpa olundu, ictimai-siyasi proseslər sağlam məcraya yönəldildi, qanunun aliliyi təmin edildi və dövrün çağırışlarına uyğun milli inkişaf strategiyası uğurla həyata keçirilməyə başlandı. 1993-2003-cü illərdə ölkəmizə rəhbərlik edən dahi şəxsiyyət Heydər Əliyevin müdrik siyasəti Azərbaycan xalqına ən dəyərli milli sərvətimiz olan dövlət müstəqilliyini bəxş etdi, ölkəmizin demokratiya və sosial-iqtisadi inkişaf yolunda əmin addımlarla irəliləməsini, beynəlxalq münasibətlər sisteminin nüfuzlu dövlətinə çevrilməsini şərtləndirdi".

Tahir Budaqovun sözlərinə görə, 2003-cü ildə xalqımız Heydər Əliyev yoluna sədaqət nümayiş etdirərək cənab İlham Əliyevə yüksək etimad göstərdi: "Bu, Ümummilli Liderin müəyyənləşdirdiyi siyasətin alternativsizliyinə qətiyyətli inamın birmənalı ifadəsi idi. Zamanın Ulu Öndərə başa çatdırmağa imkan vermədiyi işləri onun siyasi varisi İlham Əliyev müvəffəqiyyətlə yerinə yetirdi. Heydər Əliyev siyasətinin tarixi ənənələrə, milli-mənəvi dəyərlərə, dövlətçilik maraqlarına və çağdaş reallıqlara uyğun davam etdirilməsi Azərbaycanı sürətli inkişaf yoluna çıxardı. İqtisadi gücünü, siyasi nüfuzunu, hərbi qüdrətini artıran, beynəlxalq mövqeyini möhkəmləndirən ölkəmiz şanlı Zəfər zirvəsinə yüksəldi".

YAP Sədrinin müavini bildirib ki, Ulu Öndərin tükənməz dövlətçilik irsinin, o cümlədən Milli Qurtuluş məfkurəsinin yeni nəslə dolğun surətdə çatdırılmasında, Azərbaycan gəncliyinin milli maraqlara sadiq, yüksək vətəndaş məsuliyyətinə malik şəxsiyyətlər kimi yetişdirilməsində ali təhsil müəssisələrinin də üzərinə mühüm vəzifələr düşür: "Müasir dövrdə universitetlər yalnız peşəkar kadrlar hazırlayan elm və təhsil müəssisələri deyil, eyni zamanda dövlətçilik irsinin, milli-mənəvi dəyərlərin, azərbaycançılıq ideologiyasının təbliğ olunduğu önəmli ictimai institutlardır. Bu xüsusda Azərbaycan Dillər Universitetinin fəaliyyəti mühüm əhəmiyyətə malikdir. Universitetdə gənclərin müasir biliklərə yiyələnməsi, xarici dilləri dərindən öyrənməsi, kommunikasiya bacarıqlarının inkişaf etdirilməsi ilə yanaşı, tarixi köklərə bağlı və dövlətçilik ənənələrinə sadiq vətəndaşlar kimi formalaşdırılması xüsusi diqqət mərkəzində saxlanılır".

Tahir Budaqov qeyd edib ki, müasir dövrdə gənclərin qarşısında duran əsas vəzifə yüksək bilik və bacarıqlara yiyələnmək, milli maraqları hər zaman üstün tutmaq və əzmkar fəaliyyəti ilə ölkəmizin gələcəyinə layiqli töhfə verməkdir: "Əminik ki, Milli Qurtuluşdan başlanan şanlı Zəfər yolu bundan sonra da xalqımıza tarixi nailiyyətlər qazandıracaqdır. Hər birinizi 15 İyun - Milli Qurtuluş Günü münasibətilə ürəkdən təbrik edir, xalqımızın rifahı və ölkəmizin tərəqqisi naminə məqsədyönlü fəaliyyətinizdə uğurlar arzulayıram".

Azərbaycan Dillər Universitetinin rektoru, Xalq yazıçısı, akademik Kamal Abdulla çıxışında bildirib ki, 1993-cü ilin iyun ayında Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışı Azərbaycanda vətəndaş müharibəsi təhlükəsinin qarşısını aldı. Onun sözlərinə görə, ovaxtkı vəziyyətdən xalqı xilas etməyi Heydər Əliyev kimi böyük şəxsiyyət bacara bilərdi: "Azərbaycanın müasir dövlətçilik tarixində 15 İyun - Milli Qurtuluş Günü xüsusi siyasi və tarixi əhəmiyyətə malikdir. Bu gün təkcə hakimiyyət dəyişikliyi və ya siyasi hadisə kimi deyil, Azərbaycan dövlətinin müstəqilliyini qoruyub saxlaması, parçalanmaq təhlükəsindən xilas olması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından taleyüklü mərhələ kimi qiymətləndirilir. Məhz 1993-cü ilin iyununda xalqın təkidli tələbi ilə Ulu Öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı Azərbaycanı dərin böhrandan çıxararaq sabitlik, inkişaf və dövlət quruculuğu mərhələsinə gətirib çıxardı".

Kamal Abdulla qeyd edib ki, bu gün Azərbaycanın əldə etdiyi uğurların əsasında 1993-cü ildən başlanan dövlət quruculuğu siyasəti dayanır: "Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi inkişaf strategiyası nəticəsində ölkədə güclü dövlət institutları formalaşdı, sosial-iqtisadi inkişaf təmin edildi, ordu quruculuğu sahəsində mühüm nailiyyətlər əldə olundu. Prezident İlham Əliyevin rəhbərliyi ilə həmin siyasi kurs müasir dövrün çağırışlarına uyğun şəkildə davam və inkişaf etdirilərək yeni mərhələyə yüksəldildi. Azərbaycanın iqtisadi, siyasi və hərbi gücünün artması nəticəsində ölkəmiz öz ərazi bütövlüyünü və suverenliyini tam bərpa etdi. 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Zəfər, 2023-cü ildə ölkənin bütün ərazisində suverenliyin tam təmin olunması Ulu Öndərin əsasını qoyduğu dövlətçilik strategiyasının uğurlu nəticəsi kimi dəyərləndirilir. Prezident İlham Əliyevin ifadə etdiyi kimi, bu Zəfər həm də ata vəsiyyətinin yerinə yetirilməsi, Azərbaycan xalqının tarixi ədalətinin bərpası idi".

Milli Qurtuluş Gününün milli birliyin təmin olunması və gələcək inkişaf yolunun müəyyənləşdirilməsi baxımından müstəsna əhəmiyyət daşıdığını söyləyən Kamal Abdulla deyib ki, məhz bu gün Azərbaycan xalqının öz taleyini müəyyənləşdirdiyi, dövlətçiliyin xilası naminə doğru siyasi seçim etdiyi tarixi dönüş nöqtəsidir: "Ulu Öndər Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində mövcudluğunu davam etdirən Azərbaycan dövləti hazırda Prezident İlham Əliyevin rəhbərliyi ilə yeni uğurlara imza atır, regionun aparıcı güc mərkəzlərindən biri kimi mövqeyini daha da möhkəmləndirir".

Kamal Abdulla Azərbaycan Dillər Universitetinin inkişafında da Ulu Öndər Heydər Əliyevin böyük xidmətlərinin olduğunu deyərək ali məktəbin professor-müəllim heyəti və tələbələrinin hər zaman dövlətçiliyə sadiq qaldığını vurğulayıb.

Çıxış edən Azərbaycan Dillər Universitetinin professoru Fərman Zeynalov bildirib ki, xilaskarlıq missiyasını öz üzərinə götürən Ulu Öndər Heydər Əliyev Azərbaycanı real təhlükələrdən qurtarmaqla yanaşı, gələcək inkişaf strategiyasını müəyyənləşdirdi: "Ulu Öndərin gərgin fəaliyyəti, səyləri nəticəsində ölkədə ictimai-siyasi sabitlik bərqərar olundu, böyük təhlükə mənbəyi olan qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirildi, sosial-iqtisadi dirçəlişə yol açan islahatlar başlandı".

Onun sözlərinə görə, Azərbaycanın müstəqil dövlət kimi inamlı inkişafını, tarixin ən çətin sınaqlarından uğurla çıxmasını təmin edən Ulu Öndər Heydər Əliyev, sözün əsl mənasında, xilaskar və qurucu Lider rolunu oynadı: "Mübaliğəsiz demək olar ki, müstəqil Azərbaycan Ümummilli Lider Heydər Əliyevin şah əsəridir. Bu əsərin təməl daşının qoyulduğu gün - 15 iyun tariximizin ən parlaq səhifələrindən biridir. Ümummilli Liderin xalqımız və dövlətçiliyimiz qarşısında ən mühüm xidmətlərindən biri də Azərbaycanın tərəqqi yolunda əmin addımlarla irəliləməsini təmin edəcək layiqli varis yetişdirməsidir. Ulu Öndərin ideyalarını uğurla həyata keçirən Prezident İlham Əliyevin müdrik siyasəti nəticəsində ölkəmiz dinamik inkişaf edir, dünya arenasında müstəqil siyasət yürüdən ölkə kimi layiqli yer tutur, milli maraqlarımız qətiyyətlə tam şəkildə qorunur", - deyə F.Zeynalov vurğulayıb.

Azərbaycan Dillər Universitetinin 3-cü kurs tələbəsi Fəxriyyə Mirzəyeva çıxışında qeyd edib ki, Milli Qurtuluş Günü dövlətçilik tarixində dönüş nöqtəsi, Azərbaycanın müstəqilliyinin qorunması və möhkəmləndirilməsi yolunda mühüm hadisə kimi yaddaşlara həkk olunub. O deyib ki, bu gün biz müstəqil, güclü və inkişaf edən Azərbaycanda yaşayırıqsa, məhz bunun təməlində məhz Ulu Öndərimizin hakimiyyətə tarixi qayıdışı dayanır: "Bu gün Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz uğurlu inkişaf yolunu davam etdirir. Azərbaycan gəncliyi üçün geniş imkanlar yaradılıb. Təhsil, elm, innovasiya, beynəlxalq əməkdaşlıq və sahibkarlıq sahələrində gənclərə göstərilən diqqət gələcəyin savadlı, peşəkar və vətənpərvər nəslinin formalaşmasına xidmət edir".

O bildirib ki, gənclər yalnız savadlı mütəxəssis olmaqla kifayətlənməməli, həm də bilik və bacarıqlarını daim inkişaf etdirərək Azərbaycanın gələcək uğurlarında fəal iştirak etməlidirlər. "Mənim üçün bu tədbir həm də xüsusi mənəvi əhəmiyyət daşıyır. Çünki Yeni Azərbaycan Partiyasının sıralarına yeni qoşulmağım və partiya vəsiqəsi almağım bir gənc olaraq məni qürurlandırır. Etimadı doğrultmaq, dövlətçilik dəyərlərinə sadiq qalmaq, ölkəmizin inkişafı naminə fəal olmaq və Ulu Öndər Heydər Əliyevin ideyalarına, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətə dəstək vermək hər bir gənc üçün böyük şərəfdir".

Sonra partiya sıralarına yeni qəbul olunan şəxslərə üzvlük vəsiqələri təqdim olunub.

Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

Sonda 15 İyun - Milli Qurtuluş Gününə həsr olunmuş konsert proqramı təqdim olunub.

***"Azərbaycan"***

**1993 MİLLİ QURTULUŞ 2026**

# Milli qurtuluşdan güclü və qalib Azərbaycana



Azərbaycanın müasir dövlətçilik salnaməsinin ən əlamətdar tarixlərindən olan 15 İyun - Milli Qurtuluş Günü respublikamızın öz müstəqilliyini itirmək və parçalanmaq təhlükəsi ilə üz-üzə qaldığı bir məqamda xalqın öz taleyinə sahib çıxdığı dönüş nöqtəsidir. Bu tarix xalqın Ümummilli Lider Heydər Əliyevə dərin və sarsılmaz inamının, milli birliyinin və qurtuluşunun rəmzidir. 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçilən Heydər Əliyev dövləti xilas etməklə bərabər, gələcək nəsillərə güclü, müstəqil və qüdrətli bir ölkə miras qoydu.

1990-cı illərin əvvəllərində kritik həddə çatan ictimai-siyasi böhran Azərbaycanı məhvolma təhlükəsi ilə üz-üzə qoymuşdu. Müstəqilliyimizin ilk illərində hakimiyyətdə olan siyasi qruplaşmaların səriştəsiz siyasəti respublikada vəziyyəti idarəolunmaz hala gətirib çıxarmışdı. 1992-ci ilin may ayında hakimiyyəti ələ keçirən AXC-Müsavat cütlüyü, dövlət idarəçiliyindəki qeyri-peşəkarlıq, şəxsi ambisiyalar və hakimiyyət davası ilə ölkəni vətəndaş müharibəsi həddinə çatdırmışdı. İqtisadiyyat tamamilə tənəzzülə uğramış, ordu quruculuğu isə milli maraqlara zidd, səriştəsiz insanların əlinə keçmişdi.

Dövlət idarəçiliyindəki bu boşluq ağır nəticələrə gətirib çıxarmışdı. Ermənistanın işğalçılıq siyasəti qarşısında ordu nizamsızlığı və vahid komandanlığın olmaması ciddi ərazi itkilərinə yol açmışdı.

1992-ci ilin mayında 10 gün ara ilə Şuşa və Laçının, 1993-cü ilin aprelində isə Kəlbəcərin işğal altına düşməsi ölkənin coğrafi və hərbi cəhətdən parçalanması ilə nəticələnmişdi. Respublikanın hər yerində qıtlıq, səfalət hökm sürmüşdü. Yüz minlərlə soydaşımız yurdundan didərgin düşərək çadır düşərgələrində, vaqonlarda, yataqxanalarda ağır məhrumiyyətlər içərisində yaşamağa məcbur olmuşdu. Küçələrdən gələn, dövlət idarəçiliyi və təcrübəsi olmayan təsadüfi şəxslərin yüksək vəzifələrə gətirilməsi, ölkədə qardaş qanının axıdılmasını qaçılmaz etmişdi.

1993-cü il iyunun 4-də Gəncədə baş verən hadisələr də ölkədəki proseslərin məntiqi nəticəsi idi. Ölkənin daxilində vətəndaş müharibəsi alovlanır, separatçı qüvvələr baş qaldırır, dövlət faktiki olaraq parçalanmaq təhlükəsi yaşayırdı.

Bu xaos şəraitində xalqın yeganə ümid yeri görkəmli dövlət xadimi Heydər Əliyev idi. Buna görə də çətin durumunda xalqın nəzər-diqqəti Naxçıvana - Ulu Öndərə yönəldi. Blokada şəraitində belə muxtar respublikanı qorumağı bacaran, təcrübəsi və xarizması ilə dünya səviyyəli siyasətçi kimi tanınan Heydər Əliyev dövlətin və xalqın yeganə nicatı idi. Xalqın təkidli dəvəti ilə 1993-cü il iyunun 9-da Bakıya gələn Heydər Əliyev proseslərə müdaxilə edərək ilk növbədə hərbi böhranın daha da dərinləşməsinin, vətəndaş qarşıdurmasının qarşısını aldı. Prezident İlham Əliyev bu barədə deyib: "Çox ağır, faciəvi illər idi. 1992-ci ildə AXC-Müsavat rejimi hakimiyyəti qanunsuz şəkildə zəbt etdikdən sonra vəziyyət daha da ağırlaşdı, pisləşdi. Ölkə idarəolunmaz vəziyyətə düşmüşdü. Məhz o illərdə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi alovlanmış və torpaqlarımız işğal altına düşmüşdü. Ölkəmizdə xaos, total böhran hökm sürürdü, iqtisadiyyat iflic vəziyyətdə idi. Əlbəttə ki, Azərbaycan xalqı çıxış yolu axtarırdı. Onu da əlavə edim ki, AXC-Müsavat rejimi ölkədə vətəndaş müharibəsini başlamışdı. Xalqımız nicat yolunu Heydər Əliyevin simasında gördü, onu hakimiyyətə dəvət etdi və bir daha öz müdrikliyini təsdiqlədi".

1993-cü il iyunun 15-də Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçilməsi ilə respublikamızın tarixinə "Milli Qurtuluş Günü" kimi həkk olunan, dövlətçiliyimizin və müstəqilliyimizin əbədiləşdirilməsini təmin edən yeni və tarixi bir mərhələ başladı. Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə ölkədə sabitliyin bərqərar olunması, separatizmin aradan qaldırılması istiqamətində təxirəsalınmaz addımlar atıldı. Həmin dövrkü reallıqlar şəraitində bunları həyata keçirmək siyasi qətiyyət və əzmkarlıq tələb edirdi. Bu baxımdan, Heydər Əliyevin Azərbaycan Ali Sovetinin Sədri seçildikdən sonra hərbi-siyasi böhranın aradan qaldırılması istiqamətində həyata keçirdiyi fəaliyyət Ulu Öndərin siyasi dühasının təntənəsinə çevrildi.

Həmin ilin oktyabr ayında Heydər Əliyevin Azərbaycan Prezidenti seçilməsi isə bütün xalqın Ulu Öndərə olan inamının növbəti təcəssümü oldu. Beləliklə, 1993-cü ilin iyununda Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı, ölkəmizi uçurumun kənarından döndərərək, dövlətçiliyimizin sarsılmaz təməllərini atdı və bu gün qürurla yaşadığımız, ərazi bütövlüyü tam bərpa olunmuş müstəqil Azərbaycanın formalaşmasına yol açdı.

Ulu Öndər yaxşı bilirdi ki, işğal altındakı torpaqları azad etmək üçün güclü ordu və iqtisadi müstəqillik lazımdır. O, bu çətin yolda gələcək Zəfərin strategiyasını hazırladı və atəşkəs dövrünü dövlətin gücləndirilməsi üçün fürsət kimi dəyərləndirdi.

1994-cü ilin may ayında Ermənistanla atəşkəs elan edildikdən sonra Heydər Əliyev bütün qüvvə və bacarığını ölkənin sosial-iqtisadi inkişafına, silahlı qüvvələrimizin tamamilə yenidən qurulması işinə yönəltdi. 1994-cü il sentyabr ayının 20-də "Əsrin müqaviləsi"ni imzalamaqla Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyasının əsasını qoydu. Ulu Öndər həmin dövrdə çox yaxşı başa düşürdü ki, ölkəyə investisiyaların qoyulmasını təmin etmədən və iqtisadiyyatı inkişaf etdirmədən iqtisadi geriliyi aradan qaldırmaq mümkün olmayacaqdır. "Əsrin müqaviləsi"nin imzalanması və ölkənin neft sənayesinə investisiyaların cəlb olunması Azərbaycanın tarixində yeni dövrün başlanğıcını qoydu.

Taleyüklü məsələləri həll edən dahi rəhbər fundamental təməllərə əsaslanan dövlət quruculuğuna başladı. Azərbaycan Respublikasının müstəqilliyinin əbədiliyini təmin edəcək institusional strukturlar formalaşdırıldı, 1995-ci ilin noyabrında qəbul olunan və tariximizə Heydər Əliyev Konstitusiyası kimi daxil olan Əsas Qanunun qəbulu demokratik, dünyəvi və vətəndaş cəmiyyəti quruculuğu əsasında dövlətimizin formalaşması, siyasi və hüquq sistemlərində sabit özülün yaradılması işində ilk mərhələ oldu. Odur ki, müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbulu müasir tariximizin ən mühüm hadisələrindən biri olmaqla Ulu Öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən sayılır.

Həmin dövrdə paralel olaraq Azərbaycanın ərazi bütövlüyünün tanınması üçün diplomatik sahədə çox ciddi addımlar atıldı. Bunlardan ən önəmlisi 1996-cı il ATƏT-in Lissabon Sammiti idi. Bu sammitdə Ulu Öndər Heydər Əliyev misilsiz diplomatik iradə nümayiş etdirdi. Ermənistanın işğalçılıq siyasətini beynəlxalq səviyyədə ifşa edən Heydər Əliyevin qətiyyəti nəticəsində ATƏT-in 53 üzv ölkəsi Azərbaycanın ərazi bütövlüyünü, suverenliyini və sərhədlərinin toxunulmazlığını dəstəkləyən prinsipləri qəbul etdi. Bu, Azərbaycanın diplomatik mübarizədə qazandığı ən parlaq tarixi qələbələrdən biri, Ermənistanın beynəlxalq səviyyədə təcridinin başlanğıcı və Qarabağın işğaldan azad edilməsinin hüquqi fundamenti idi.

Ulu Öndər Heydər Əliyevin Qarabağa qayıdış inamı onun dövlətçilik fəlsəfəsinin ən sarsılmaz və ən həssas nöqtəsi idi. O, Qarabağın işğalını Azərbaycanın ürəyinə vurulmuş bir yara kimi görürdü və bu yaranın sağalacağına, torpaqların geri qaytarılacağına bir an belə şübhə etmirdi.

Dahi şəxsiyyətin ən çətin dövrlərdə belə səsləndirdiyi "Qarabağ Azərbaycanın ayrılmaz hissəsidir" fikri həm də gələcək qələbənin ideoloji proqramı idi. Ulu Öndər Azərbaycanın tarixi torpaqlarının işğal altında qalmasını müvəqqəti hal kimi qiymətləndirir və beynəlxalq ictimaiyyəti bu ədalətsizliyi qəbul etməməyə çağırırdı. Mötəbər tribunalardan Qarabağ həqiqətlərini dünyaya çatdıran dahi şəxsiyyət işğalçılıq siyasətinin ifşası üçün sistemli diplomatik yol xəritəsi çəkirdi.

Ulu Öndərin "Bizim hamımızın elliklə, obalıqla xalqımızın, millətimizin bir müqəddəs arzusu, istəyi, bir müqəddəs məqsədi vardır. O da Azərbaycanın ərazi bütövlüyünün bərpa olunmasıdır… biz bu arzumuza mütləq çatacağıq... …İşğal edilmiş torpaqlarımızın hamısı azad olunacaq, nəyin bahasına olursa-olsun azad ediləcəkdir" sözləri ilə ifadə etdiyi qayıdışa sarsılmaz inamı xalqın mübarizə əzmini sınmağa qoymurdu.

Heydər Əliyev öz siyasəti ilə ordu quruculuğuna, iqtisadi gücə və beynəlxalq nüfuza önəm verərək, gələcək Zəfərin təməlini məhz o illərdə qoydu.

Heç şübhəsiz dahi siyasətçi Heydər Əliyevin cənab İlham Əliyevi öz siyasi varisi kimi müəyyən etməsi Azərbaycanın müasir tarixinin ən strateji və uzaqgörən qərarlarından biri, dövlətçiliyimizin qüdrətlənməsini və uğurlarının davamlılığını təmin edən tarixi seçim oldu. Bu qərar Azərbaycanın gələcək taleyi üçün düşünülmüş məsuliyyətli siyasi kursun varisliyi idi.

1 oktyabr 2003-cü ildə Azərbaycan xalqına müraciətində Heydər Əliyev cənab İlham Əliyevi layiqli namizəd kimi təqdim edərkən, onun siyasi hazırlığını, intellektual səviyyəsini və ən əsası, dövlətçilik təfəkkürünü xüsusi vurğulamışdı. Ulu Öndərin bu tarixi mesajı xalqın gələcəyə olan etimadını möhkəmləndirdi: "İnanıram ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, tədbirləri İlham Əliyev başa çatdıra biləcək".

Təbii ki, bu qərarın arxasında cənab İlham Əliyevin uzun illər boyu keçdiyi siyasi məktəb dururdu. O, 1990-cı illərin əvvəllərindən etibarən Ulu Öndərin yanında olmaqla, dövlət idarəçiliyinin bütün incəliklərini, daxili və xarici siyasətin prinsiplərini birbaşa özündən öyrənmişdi. Neft strategiyasının həyata keçirilməsində sərgilədiyi yüksək peşəkarlıq, beynəlxalq qurumlarda göstərdiyi effektiv fəaliyyət cənab İlham Əliyevin liderlik potensialını, eyni zamanda Ulu Öndərin siyasi xəttinin ən sadiq davamçısı olduğunu təsdiqləmişdi.

Ulu Öndərin cənab İlham Əliyevi siyasi varisi seçməsi, Azərbaycanın öz müstəqilliyini qoruması və daha da güclənməsi üçün atılmış ən doğru addım idi. Bu qərar, Azərbaycanın dövlətçilik xəttinin pozulmadan, daha böyük uğurlara doğru inamla irəliləməsinin təminatçısı oldu. Ümummilli Liderin vaxtilə müəyyənləşdirdiyi "Azərbaycanın inkişaf strategiyası" cənab İlham Əliyevin rəhbərliyi ilə yeni mərhələyə qədəm qoydu. İqtisadi müstəqillik, güclü ordu və milli birliyin daha da təkmilləşdirilməsi Azərbaycanı regionun lider dövlətinə çevirdi. Qısa müddətdə ölkə iqtisadiyyatını şaxələndirərək yüksək templi inkişafa rəvac verən Prezident İlham Əliyev Azərbaycanı beynəlxalq arenada sözükeçən qüdrətli dövlət etdi.

Ümummilli Lider Heydər Əliyevin ən böyük arzusu olan Qarabağın azadlığı, Prezident İlham Əliyevin rəhbərliyi və Ali Baş Komandanlığı ilə 44 günlük Vətən müharibəsində reallığa çevrildi.

Bu tarixi missiyanın zirvəsi 2020-ci il 8 noyabrda yaşandı. Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşanı azad etməklə, həm xalqımızın torpaq həsrətinə son qoydu, həm də ata vəsiyyətini yerinə yetirdi. Bu Qələbə, eyni zamanda 1993-cü ildə başlanan qurtuluş missiyasının ən böyük təntənəsi oldu.

Azərbaycan Qarabağ və Şərqi Zəngəzurda genişmiqyaslı bərpa-quruculuq işləri aparır, Böyük qayıdışı uğurla gerçəkləşdirir. 15 iyun tarixi bizə göstərdi ki, xalq və lider birliyi, müdrik qərarlar və məqsədyönlü siyasət ən ağır şəraitdən belə dövləti zirvələrə daşıya bilir.

Bu gün Azərbaycan Cənubi Qafqazın lider dövləti və qlobal miqyasda strateji tərəfdaş kimi çıxış edir. Bərqərar edilən yeni geosiyasi reallıq, daxili sabitlik, sülh mühiti və dinamik inkişaf edən iqtisadiyyat müasir Azərbaycanın simasını müəyyən edən əsas amillərdir. Reallıq ondan ibarətdir ki, Azərbaycan artıq regional layihələrin iştirakçısı deyil, qlobal əhəmiyyətli təşəbbüslərin müəllifi və əsas hərəkətverici qüvvəsidir.

Ölkəmizin gerçəkləşdirdiyi mühüm fəaliyyətlərdən biri regionda formalaşdırdığı sülh gündəliyidir. 2020-ci ildə Vətən müharibəsində qazanılan tarixi Qələbə və ardınca suverenliyin tam bərpası Cənubi Qafqazda çoxillik münaqişəyə son qoydu.

Azərbaycanda mövcud olan multikulturalizm və tolerantlıq mühiti, həmçinin beynəlxalq miqyasda irəli sürülən sülh təşəbbüsləri ölkəmizə dünyada "sabitlik adası" ünvanı qazandırıb. Bu sülh mühiti təkcə ölkəmiz üçün deyil, bütün Cənubi Qafqaz və Avrasiya məkanı üçün təhlükəsizlik qarantıdır.

Ulu Öndərin iqtisadiyyatın şaxələndirilməsi barədə vaxtilə verdiyi tövsiyələr bu gün tam reallığa çevrilib. Enerji resurslarından əldə olunan gəlirlər qeyri-neft sektorunun, infrastrukturun, rəqəmsal iqtisadiyyatın və insan kapitalının inkişafına yönəldilib.

Şərqlə Qərbin, Şimalla Cənubun kəsişməsində yerləşən Azərbaycan dünyanın ən strateji enerji və logistika mərkəzlərindən birinə çevrilib.

*Bu möhtəşəm uğurların və sarsılmaz dövlətçilik xəttinin arxasında Ümummilli Lider Heydər Əliyevin uzaqgörən siyasi strategiyası və qoyduğu möhkəm təməllər dayanır.*

*Bəli, zaman sübut etdi ki, Ulu Öndər Heydər Əliyevin uzaqgörənliklə müəyyən etdiyi strateji xətt ölkəmizi bütün fırtınalardan qoruyaraq ən uca zirvələrə daşıyıb. Prezident İlham Əliyevin rəhbərliyi ilə bu təməllər üzərində ucalan müasir Azərbaycan gələcəyə doğru böyük inamla addımlayır.*

***Ziyafət ƏSGƏROV,***
***Azərbaycan Respublikası Milli Məclisi Sədrinin müavini***

# Dövlətçiliyin xilasına aparan yol

Tarixdə elə məqamlar olur ki, həmin günlər bir dövrün sonu yox, yeni bir mərhələnin başlanğıcı kimi yadda qalır. Bəzən bir xalqın taleyi aylarla, illərlə deyil, cəmi bir neçə günün içində həll edilir. 1993-cü ilin iyun hadisələri də xalqımızın taleyində məhz belə dönüş nöqtələrindən biri oldu.

Müstəqilliyini yenicə bərpa etmiş Azərbaycan dövlətçiliyi ağır sınaqlarla üz-üzə idi. Ölkə siyasi böhran, hərbi məğlubiyyətlər, iqtisadi tənəzzül və vətəndaş qarşıdurması təhlükəsi ilə qarşılaşmışdı. Amma xalqımız gələcəyə böyük ümidlərlə baxırdı. Bilirdi ki, müstəqilliyi əldə etmək qədər onu qoruyub saxlamaq da siyasi təcrübə, uzaqgörənlik və dövlətçilik təfəkkürü tələb edir. Təəssüf ki, həmin dövrdə hakimiyyətə gələn qüvvələr bu ağır məsuliyyəti dərk etmirdilər.

1992-1993-cü illərdə ölkədə yaranmış vəziyyət dövlətçiliyin ən təhlükəli mərhələlərindən biri kimi tarixə düşdü. Ermənistanın hərbi təcavüzü davam edir, cəbhədən ağır xəbərlər gəlirdi. Kəndlər, qəsəbələr, rayonlar işğal olunur, yüzlərlə Azərbaycan gənci Vətən uğrunda şəhid olurdu. Üstəlik, hər gün minlərlə ailə doğma yurdunu tərk edərək məcburi köçkünə çevrilirdi. Qarabağda və ətraf rayonlarda yaşanan faciələr təkcə hərbi məğlubiyyət deyil, həm də dövlət idarəçiliyindəki ciddi problemlərin nəticəsi idi.

Ölkədə siyasi hakimiyyət uğrunda gedən mübarizə dövlət maraqlarını kölgədə qoymuşdu. İdarəetmə sistemində peşəkarlıq əvəzinə təsadüfi təyinatlar üstünlük təşkil edir, strateji qərarlar isə çox vaxt emosiyalar və siyasi ambisiyalar əsasında verilirdi. Belə vəziyyət dövlət institutlarının fəaliyyətinə mənfi təsir göstərir, hakimiyyət daxilində qarşıdurmalar dərinləşirdi. Nəticədə ölkədə anarxiya meyilləri güclənir, dövlətin dayaqları zəifləyirdi.

Bütün bunların fonunda Qarabağ cəbhəsində vəziyyət gündən-günə ağırlaşırdı. 1993-cü ilin aprelində Kəlbəcərin işğalı Azərbaycan cəmiyyətində ciddi sarsıntı yaratdı. Bu hadisə haqlı olaraq hərbi uğursuzluqla bərabər, dövlət idarəçiliyində böhranın açıq göstəricisi kimi qəbul edilirdi. Xalq hakimiyyətin vəziyyətə nəzarət edə bilmədiyini görürdü.

Kəlbəcərin işğalından sonra vəziyyət daha da ağırlaşmışdı. Ağdərə istiqamətində uğursuz əməliyyatlar, Laçın dəhlizinə nəzarətin itirilməsi və cəbhə xəttində yaranan pərakəndəlik ölkədə ümumi ruh düşkünlüyü yaratmışdı. Gənclər vətən uğrunda canlarından keçsələr də, onların qəhrəmanlığı siyasi səriştəsizliyin yaratdığı problemləri aradan qaldırmağa yetmirdi.

Ən ağır məqamlardan biri isə ölkədə yaranmış qaçqın və məcburi köçkün problemi idi. Ermənistandan və Azərbaycanın işğal olunmuş rayonlarından yüz minlərlə insan ev-eşiyini tərk etmək məcburiyyətində qalmışdı. Məktəblər, mədəniyyət ocaqları, xəstəxanalar və inzibati binalar qaçqınların müvəqqəti məskunlaşma yerinə çevrilmişdi. İnsanlar vaqonlarda, yataqxanalarda, yarımçıq tikililərdə yaşamağa məcbur idilər.

Həmin illər ölkəmiz yalnız hərbi və siyasi deyil, həm də ağır sosial-iqtisadi böhran yaşayırdı. SSRİ dağıldıqdan sonra pozulan iqtisadi münasibətlər üzündən Azərbaycan ağır sosial-iqtisadi problemlərlə üzləşmişdi. İstehsal müəssisələrinin əksəriyyəti dayanmış, kənd təsərrüfatında məhsuldarlıq aşağı düşmüşdü. Ölkədə hiperinflyasiya tüğyan edirdi. Bunlardan əlavə, maaşlar və pensiyalar vaxtında verilmir, insanların alıcılıq qabiliyyəti sürətlə aşağı düşürdü. Ərzaq təminatı sahəsində yaranan problemlər əhalinin gündəlik həyatına ciddi təsir göstərirdi. Çörək növbələri, əsas istehlak məhsullarının çatışmazlığı və qiymət artımı cəmiyyətin bütün təbəqələrində narazılıq yaradırdı. Azərbaycan ilk dəfə müstəqillik dövründə real humanitar böhran təhlükəsi ilə üzləşmişdi. Bütün bunların fonunda hakimiyyət daxilində vəziyyət daha da mürəkkəbləşirdi. Dövlət idarəçiliyində peşəkarlıq prinsipi arxa plana keçmişdi. Siyasi loyallıq və emosional çıxışlar bəzən idarəetmə bacarığından üstün tutulurdu.

1993-cü ilin iyununda isə böhran öz kuliminasiya nöqtəsinə çatdı. Gəncədə baş verən məlum hadisələr dövlət hakimiyyətinin nəzarətdən çıxdığını göstərirdi. 4 iyun hadisələri zamanı hökumət qüvvələri ilə Surət Hüseynovun rəhbərlik etdiyi hərbi birləşmələr arasında silahlı qarşıdurma baş verdi. İnsan tələfatı ilə nəticələnən bu hadisələr artıq Azərbaycanın vətəndaş müharibəsi astanasına gəlib çatması demək idi. Həmin ilin iyununda baş verən hadisələr ölkəmizin müasir tarixində dönüş nöqtəsinə çevrildi. Həmin günlər söhbət sadəcə hakimiyyət dəyişikliyindən getmirdi, dövlətin taleyi, xalqın gələcəyi və müstəqilliyin qorunub saxlanılması əsas məsələ idi. 4 iyun hadisələri göstərdi ki, Azərbaycan idarəolunmaz vəziyyətə gəlib çıxıb. Hakimiyyət daxilində parçalanma, dövlət institutlarının zəifləməsi, cəbhədəki uğursuzluqlar Azərbaycan dövlətinin taleyini sual altına alıb.

Belə mürəkkəb şəraitdə xalqın diqqəti Naxçıvana - böyük dövlətçilik təcrübəsinə malik Heydər Əliyevə yönəldi. Azərbaycanı parçalanmaq təhlükəsindən xilas edə biləcək yeganə siyasətçi kimi qəbul olunan Heydər Əliyevin Bakıya dəvət edilməsi artıq zamanın və tarixin tələbinə çevrilmişdi. 1993-cü il iyunun 9-da Ulu Öndər Heydər Əliyevin Bakıya qayıdışı ölkənin ictimai-siyasi həyatında yeni mərhələnin başlanğıcı oldu. İyunun 15-də Ümummilli Liderin Azərbaycan Milli Məclisinin Sədri seçilməsi isə sonralar Milli Qurtuluş Günü kimi tarixə həkk olundu.

Milli qurtuluş Azərbaycan dövlətçiliyinin xilası demək idi. Məhz həmin tarixdən sonra ölkədə sabitliyin təmin olunması, dövlət institutlarının möhkəmləndirilməsi, nizami ordu quruculuğu, iqtisadi inkişaf strategiyasının hazırlanması və beynəlxalq əlaqələrin qurulması istiqamətində ardıcıl siyasət həyata keçirilməyə başlandı. 1993-cü ilin oktyabrında xalqın etimadı ilə Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev qısa müddətdə ölkədə siyasi sabitliyi bərpa etdi, vətəndaş qarşıdurmasının qarşısını aldı və müstəqil dövlətçiliyin möhkəm təməlini formalaşdırdı. Sonrakı illər həyata keçirilən genişmiqyaslı islahatlar, "Əsrin müqaviləsi", iqtisadi dirçəliş, ordu quruculuğu və milli dövlətçilik konsepsiyasının yaradılması müasir Azərbaycanın inkişaf yolunu müəyyənləşdirdi.

Bu gün geriyə nəzər saldıqda aydın görünür ki, 15 iyun sadəcə bir tarixi hadisə deyil, eyni zamanda xalqımızın öz dövlətini qorumaq iradəsinin, milli həmrəyliyinin və gələcəyə inamının təcəssümüdür. Əgər 1993-cü ilin iyununda xalq düzgün seçim etməsəydi, Azərbaycan dövlətçiliyinin sonrakı taleyi tamamilə fərqli ola bilərdi. Bu baxımdan, Milli Qurtuluş Günü təkcə keçmişin deyil, həm də bugünkü güclü və müstəqil Azərbaycanın əsasını təşkil edən tarixi mərhələdir.

Qurtuluşa gedən yol yalnız ölkəmizin xilası ilə başa çatmadı. Həmin yol sonradan dövlətçiliyin möhkəmlənməsinə, iqtisadi inkişafın təmin edilməsinə, güclü ordunun formalaşmasına, nəhayət, tarixi Zəfərə aparan böyük yolun başlanğıcına çevrildi.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

# MDB iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının iclası keçirilib



İyunun 11-də Qazaxıstan Respublikasının Burabay qəsəbəsində MDB iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 82-ci iclası keçirilib.

DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən verilən məlumata görə, tədbirdə ölkəmizi Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-polkovniki Şahin Bağırovun rəhbərlik etdiyi nümayəndə heyəti təmsil edib.

İclasda Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Gömrük Xidməti Rəhbərləri Şurasının 81-ci iclasında qəbul edilmiş qərarların icra vəziyyəti və MDB iştirakçısı olan dövlətlərin gömrük xidmətləri arasında gömrük nəzarəti proseslərində istifadə olunan informasiya texnologiyaları və proqram vasitələri, perspektiv rəqəmsal həllər, eləcə də inspeksiya-baxış komplekslərindən istifadə üzrə qabaqcıl təcrübələrin müzakirəsi aparılıb. Tədbir çərçivəsində MDB iştirakçısı olan dövlətlərin gömrük xidmətlərinin malların təsnifatı məsələləri üzrə İşçi Qrupunun yenilənmiş tərkibi təsdiq edilib, o cümlədən gömrük işinin müxtəlif sahələri üzrə fikir mübadiləsi aparılıb və bir sıra istiqamətlər müəyyən edilib.

# Neft qiymətləri yenidən artdı

Dünya iqtisadiyyatının strateji nöqtələrindən biri olan Yaxın Şərq regionu yenidən qlobal gündəmin diqqət mərkəzindədir. Son günlər burada hərbi və siyasi gərginliyin kəskin şəkildə artması dünya birjalarında neft qiymətlərinin kəskin dalğalanmasına səbəb olub. Beynəlxalq bazarlar hər zaman siyasi sabitliyə və təhlükəsiz logistikaya ehtiyac duyur. Lakin strateji dəniz yollarında və qlobal neft nəqliyyatının keçid məntəqələrində baş verən hərbi qarşıdurmalar təchizat axınını iflic etmək təhlükəsi yaradır. Neftin qiyməti son iki ayın ən aşağı səviyyəsinə düşmüşdü. Lakin son günlərdə alovlanan hərbi böhran qiymətləri yenidən artırdı.




Körfəzdə baş verən hər bir hadisə dünya enerji bazarına birbaşa təsir edir. Burada baş verən hadisələrin ən qorxulu tərəfi dünyanın ən mühüm dəniz keçidlərindən olan Hörmüz boğazının tamamilə bağlanması oldu. Regiondakı hərbi qüvvələr vəziyyətin kritik olduğunu və boğazdan keçmək istəyən hər bir gəmiyə atəş açılacağını elan etdilər. Çox keçmədən iki böyük ticarət gəmisinin vurulması bu xəbərdarlığın nə qədər ciddi və təhlükəli olduğunu göstərdi. Hörmüz boğazı qlobal neft istehlakının və daşınmasının təxminən beşdəbirini təmin edir. Bu qapının bağlanması regional problem olmaqdan çıxıb, qlobal bir böhrana çevrilib. Çünki bu tıxanma Asiyadan Amerikaya qədər hər bir zavodun işinə, yanacaqdoldurma məntəqələrindən tutmuş nəhəng aviasiya şirkətlərinə qədər hər kəsin cibinə təsir göstərir.

Gərginliyin yenidən artması fonunda beynəlxalq neft birjaları buna dərhal reaksiya verdi. Əvvəlki seanslarda təxminən 3 faiz ucuzlaşaraq nisbi sakitlik nümayiş etdirən qiymətlər hərbi əməliyyatların aktivləşməsi ilə yenidən sıçrayış etdi. "Brent" nefti 90-96 ABŞ dolları arasında sürətlə bahalaşaraq 94,64 ABŞ dollarına çatdı. Amerika nefti "WTI" də bənzər şəkildə 2 faizə yaxın dəyər qazanaraq 90,03 ABŞ dollarını keçdi. "OPEC" səbəti isə artıq 102 ABŞ dollarına yaxınlaşır. Dünyada gündəlik 100 milyon barel neft işləndiyini nəzərə alsaq, qiymətin hər 1 dollar artması qlobal iqtisadiyyata milyardlarla dollar əlavə yük deməkdir. Əgər bölgədəki gərginlik davam edərsə və dəniz yolları açılmazsa, neftin qiyməti tarixi rekorda yüksələ bilər.

Qlobal birjalardakı bu kəskin gərginlik dalğası təbii olaraq Azərbaycanın əsas ixrac məhsulu olan neftin qiymətində də dərhal özünü büruzə verib. Dünya bazarlarında yüksələn tendensiya səbəbindən "Azeri Light" markalı Azərbaycan neftinin də qiyməti artıb.

Builki dövlət büdcəsində "Azeri Light" neftinin 1 barelinin orta qiyməti 65 ABŞ dollarından hesablanıb. Hazırkı real qiymətlər büdcə proqnozundan təxminən 30 dollar bahadır. Tarixi keçmişə nəzər saldıqda, "Azeri Light" markalı neftin çox böyük bir qiymət trayektoriyasından keçdiyini görmək olar. Bu marka üçün tarixi ən aşağı qiymət qlobal pandemiyanın pik nöqtəsində, 2020-ci il aprelin 21-də 15,81 ABŞ dolları kimi qeydə alınmışdı. Maksimal qiymət isə qlobal iqtisadi bum dövrünə, 2008-ci ilin iyuluna təsadüf edir ki, həmin vaxt Azərbaycan nefti 149,66 ABŞ dolları həddində tarixi rekorda imza atmışdı. Hazırkı 96 dollarlıq hədd isə bazarda regional risklərin yaratdığı yüksək tələbin bariz nümunəsidir.

Qiymət artımına təsir göstərən digər mühüm faktor sənaye hesabatlarında öz əksini tapan kommersiya xam neft ehtiyatlarının kəskin şəkildə azalmasıdır. Amerika Neft İnstitutunun son hesabatlarına görə, neft ehtiyatları bazarın gözlədiyi 3,4 milyon barellik enişi xeyli üstələyərək gözlənilmədən 9,12 milyon barel azalıb. Hazırda bir çox ölkələrin strateji neft ehtiyatları son illərin ən aşağı səviyyəsinə enib. Dövlətlər yanacağın bahalaşmasının və inflyasiyanın qarşısını almaq üçün enerji şirkətlərinə milyonlarla barel borc neft verməyi planlaşdırırlar. Lakin bu müvəqqəti addım problemi kökündən həll etmir, sadəcə, zaman qazanmağa xidmət edir. Əsl çarə strateji dəniz yollarında təhlükəsizliyin tam bərpa olunması və hərbi gərginliyin dayandırılmasıdır. Əks halda, qlobal enerji bazarı daha böyük sarsıntılarla üz-üzə qalacaq.

Beynəlxalq maliyyə qurumları Körfəzdəki böhrandan sonra öz proqnozlarını dərhal dəyişdilər. Hazırkı vəziyyət qlobal bazarda qiymətlərin 80-103 ABŞ dolları aralığına yüksəlməsinə səbəb olub. Bu gərginlik səbəbindən aparıcı institutlar yeni rəqəmlərini açıqlayıblar. Belə ki, "Fitch Ratings" 2026-cı il üçün "Brent" neftinin orta qiymət proqnozunu 87 ABŞ dollarına qaldırdığı halda, "Goldman Sachs" yaxın dövrdə bu qiymətin orta hesabla 90 ABŞ dolları təşkil edəcəyini gözləyir.

Körfəzdə yaşananlar bir daha sübut edir ki, qlobal enerji bazarı coğrafi sərhədlərə sığmayan, hər bir hadisəyə dərhal reaksiya verən vahid və həssas bir sistemdir. Bir tərəfdən, dövlətlərin strateji ehtiyatlarının sürətlə tükənməsi, digər tərəfdən isə, neft tankerlərinin hədəf alınması qlobal iqtisadiyyatı böyük təhlükə altına qoyur. İndi bütün diqqət rəsmi enerji agentliklərinin hesabatlarındadır. Körfəzdə dəniz nəqliyyatının təhlükəsizliyi təmin edilməsə, bu, təkcə enerji sektorunu sarsıtmayacaq. Bu böhran neft ixrac edən ölkələrin gəlirlərindən tutmuş qlobal iqtisadi artıma qədər hər şeyə mənfi təsir edə bilər. Yanacağın qiymətinin yüksək olması dünyada yeni bir inflyasiya dalğası yaradaraq gündəlik tələbat mallarının da kəskin bahalaşmasına yol açacaq. Başqa sözlə, müasir dünya iqtisadiyyatının və sıravi istehlakçıların rifahı hazırda birbaşa Hörmüzdəki sabitlikdən asılı vəziyyətdədir.

***Təhminə VERDİYEVA, "Azərbaycan"***

# Qərəzindən əl çəkə bilməyən Fransa

## Rəsmi Paris daxili böhranları və məhv olmuş reputasiyası barədə düşünsə daha yaxşı olar

Fransa Azərbaycanla münasibətlərdə qərəzli və destruktiv mövqeyini davam etdirir. Bu ölkənin pozuculuq fəaliyyəti diplomatik fikir ayrılıqları çərçivəsini aşaraq hibrid müharibə müstəvisinə keçib.



Azərbaycanın öz suverenliyini tam bərpa etməsi və beynəlxalq arenada müstəqil güc mərkəzinə çevrilməsi Yelisey sarayında narahatlıq yaratmaqda davam edir. Daxili siyasi böhranları və Afrika başda olmaqla qlobal miqyasda itirdiyi nüfuzu fonunda bu ölkə diqqəti yayındırmaq üçün yenə Azərbaycanı hədəf seçib. "France 24" adlı media orqanında dərc olunan əsassız iddialarla dolu material da Parisin Azərbaycana münasibətinin bariz göstəricisidir.

Bakıya yönəlik təxribatları aktivləşdirmək Makron administrasiyasının həm Fransa daxilində, həm də qlobal arenada yaşadığı ciddi nüfuz böhranı ilə birbaşa bağlıdır. "Sarı jiletlilər"in etirazları, cəmiyyətdə böyük rezonans doğuran pensiya islahatları, idarəolunmaz miqrasiya dalğası və daxili təhlükəsizlik problemləri xalqın hakimiyyətə olan inamını minimuma endirib. Belə bir çıxılmaz şəraitdə cəmiyyətdəki etimad böhranını pərdələmək və diqqəti daxili uğursuzluqlardan yayındırmaq üçün Yelisey sarayı klassik siyasi manipulyasiya texnologiyasına əl atır. Yəni süni xarici gündəm yaratmaqla ölkə ictimaiyyətinin tənqid hədəfindən müvəqqəti də olsa qurtulmaq niyyəti güdür.

Bu mənada Bakının hədəf seçilməsi kortəbii addım deyil, düşünülmüş gedişdir. Azərbaycan Fransanın onilliklər boyu toxunulmaz saxladığı tabunu - Parisin neokolonializm siyasətini, dənizaşırı ərazilərdə törətdiyi insan haqları pozuntularını beynəlxalq müstəvidə açıq şəkildə ifşa etməyi bacarıb. Xüsusilə Bakı Təşəbbüs Qrupunun (BTQ) yarandığı gündən etibarən göstərdiyi fəallıq Parisin ciddi təşvişinə səbəb olub. BTQ dekolonizasiya məsələsini lokal çərçivədən çıxararaq fundamental insan hüquqları və xalqların öz müqəddəratını təyin etməsi prizmasından qlobal gündəliyə daşıyıb. Müstəmləkə idarəçiliyi altında əzilən xalqların səsini dünyaya çatdıran rəsmi Bakının bu fəallığı illərdir başqalarına "demokratiya dərsi" keçən Fransanı indi öz idarəetmə metodlarına görə beynəlxalq hesabat vermək məcburiyyətində qoyub.

Azərbaycana qara yaxmağa çalışan Fransa öz nəzarətindəki torpaqlarda törətdiyi qanunsuzluqları ört-basdır etməyə çalışır. Məsələn, Yeni Kaledoniyada azadlıq və müstəqillik istəyən yerli xalqa qarşı tətbiq edilən sərt qadağalar, kütləvi həbslər və aksiyaların güclə yatırılması Fransa mətbuatında demək olar ki, işıqlandırılmır. Oxşar şəkildə, Korsikada yerli dilin və identikliyin tanınması uğrunda aparılan uzunmüddətli mübarizə və adanın muxtariyyət tələbləri Parisin daxili etnik-siyasi böhranının göstəricisidir, lakin media bu reallıqları ictimaiyyətdən gizlətməyə çalışır.

Makron administrasiyasının qərəzi bəzən idman və mədəniyyət müstəvisinə də sirayət edir. 2024-cü il Paris Yay Olimpiya Oyunlarının açılış mərasimi zamanı fransalı telejurnalistin idman prinsiplərinə tamamilə zidd olaraq Azərbaycana qarşı nümayiş etdirdiyi açıq təxribat və qeyri-peşəkar davranış bunun bariz sübutudur.

Fransanın aşkar qərəzi və qeyri-obyektiv mövqeyi xüsusilə 2020-ci il 44 günlük Vətən müharibəsində Azərbaycanın tarixi qələbəsindən sonra daha da dərinləşdi.

Bu kontekstdə Fransanın media qurumlarının regionda münaqişənin hüquqi və fiziki olaraq bitməsinə, Azərbaycanın ərazi bütövlüyünün qlobal səviyyədə təsdiqlənməsinə baxmayaraq, köhnəlmiş ambisiyaları israrla gündəmə gətirməsi hibrid strategiyanın tərkib hissəsidir. Bu addımlar həm də Azərbaycanın qlobal aləmdə artan nüfuzuna və regional uğurlarına qarşı bir qısqanclıq reaksiyasıdır.

Eyni zamanda Fransa hökuməti regiondakı reallıqları tamamilə kənara qoyaraq, birtərəfli qaydada Ermənistanın maraqlarının müdafiəçisi və vəkili kimi çıxış edir. Makronun İrəvana səfərləri zamanı nümayiş etdirdiyi qeyri-ciddi, diplomatik etiketdən uzaq davranışları və bölgədəki reallıqları görməzdən gələn absurd bəyanatları Fransanın qərəzli siyasətinin növbəti göstəricisi oldu.

Fransa dünyada zəifləyən geosiyasi mövqeyini, qlobal uğursuzluqlarını və zədələnmiş reputasiyasını kompensasiya etmək üçün məqsədyönlü strategiya həyata keçirir. Lakin Paris anlamalıdır ki, Cənubi Qafqazdakı yeni reallıqları güc yolu ilə dəyişmək cəhdləri iflasa məhkumdur. Bakıya qarşı aparılan bu hibrid müharibə və qarayaxma kampaniyaları Azərbaycanı öz müstəqil xarici siyasətindən və qlobal miqyasda apardığı ədalətli mübarizədən döndərə bilməz. Əksinə, Paris selektiv ritorikası və qərəzli hücumları ilə, sadəcə, öz diplomatik təcridini sürətləndirir.

Dənizaşırı ərazilərdə haqq səsini ucaldan xalqların Bakıdan dəstək tapması da göstərir ki, tarixin çarxını geriyə fırlatmaq və neokolonialist ambisiyaları "sülh" adı altında pərdələmək artıq illüziyadır. Yaxşı olar ki, Paris başqalarını ittiham etmək əvəzinə, gec olmadan öz daxili böhranları və zədələnmiş reputasiyası barədə düşünsün.

***İsmayıl QOCAYEV, "Azərbaycan"***

# Avrasiyanı birləşdirən unikal bağlantı modeli

Bu gün Cənubi Qafqaza nəzər salanda qarşımızda tamamilə yeni və fərqli mənzərə açılır. Şahid oluruq ki, uzun illər boyu xəritədə yalnız münaqişələr, gərginliklər və problemlər zonası kimi görünən bu bölgə, indi dünyanın ən mühüm ticarət və əməkdaşlıq mərkəzlərindən birinə çevrilir. Artıq köhnə stereotiplər dağılır, problemlər tarixin arxivinə gömülür. Bu böyük və köklü dəyişikliyin arxasında isə Azərbaycanın apardığı uzaqgörən siyasət dayanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs, regionu münaqişə, böhran zonasından çıxararaq qlobal miqyasda qitələri birləşdirən etibarlı bağlantı ünvanına çevirib.




### Şərqlə Qərbin qovuşduğu məkan

Azərbaycanın coğrafi mövqeyi hər zaman əlverişli olub. Bu coğrafi üstünlüyün real iqtisadi və siyasi gücə çevrilməsi isə düşünülmüş addımların nəticəsidir. Bu gün ölkəmiz Asiya ilə Avropanı, Şərqlə Qərbi ən qısa və ən təhlükəsiz yolla birləşdirən əsas mərkəzdir. Orta dəhliz layihəsi təkcə nəqliyyat marşrutu kimi deyil, qlobal ticarətin yeni onurğa sütunu kimi dünyanın diqqət mərkəzindədir.

Bu layihəni unikal edən əsas cəhət ondan ibarətdir ki, Azərbaycan bura təkcə dəmir yolları və asfalt magistrallar çəkmir, həm də dövrün tələblərinə uyğun olaraq marşrutu modernləşdirir. "Yaşıl enerji dəhlizi" vasitəsilə Xəzər dənizində qurulan külək və günəş-elektrik stansiyalarından alınan təmiz enerji gələcəkdə birbaşa Avropaya ötürüləcək. Eyni zamanda regionu qlobal internet şəbəkəsinə bağlayan nəhəng fiber-optik xətlər məhz Bakıdan keçir. Yəni rəqəmsal dünya da bu yolla hərəkət edir.

Ələt Azad İqtisadi Zonası xarici investorlar və iş adamları üçün böyük istehsal sahələri və azad ticarət imkanları təklif edən mühüm logistik mərkəzdir.

Yeri gəlmişkən vurğulayaq ki, ötən il Vaşinqtonda Zəngəzur dəhlizinin (TRIPP) açılması ilə bağlı razılıq əldə olunub. Bu marşrut həm Şərqlə Qərbi, həm də Şimalla Cənubu birləşdirən ən strateji qovşaq olacaq. Dəhlizin açılması regionun iqtisadi potensialını dəfələrlə artıracaq və ölkələri bir-birinə bağlayaraq həm də müharibə risklərini aradan qaldıracaq.

Bütün bunlarla yanaşı, azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda tikilən beynəlxalq hava limanları, yeni çəkilən yollar və tunellər bu böyük nəqliyyat şəbəkəsinin sürətini qat-qat artırır.

Azərbaycanın yaratdığı bu yeni reallığın ən böyük uğurlarından biri də dünya nəhənglərinin ölkəmizə olan xüsusi diqqətidir. Bu gün qlobal arenada bir çox məsələdə əks tərəflərdə dayanan, rəqabət aparan böyük güclərin - Çinin, ABŞ-nin, Avropa İttifaqının (Aİ) - eyni zamanda Azərbaycanla əməkdaşlıq etməyə böyük maraq göstərməsi təkrarsız mənzərədir.

Çin-Azərbaycan əlaqələri gündən-günə inkişaf edir. Ötən ilin aprelində Prezident İlham Əliyevin bu ölkəyə dövlət səfəri zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanması böyük uğurdur. Faktdır ki, Çindən yola düşən yüklərin Avropaya ən qısa və təhlükəsiz yolla çatması məhz Orta dəhlizin aktivliyindən asılıdır. Pekinin Bakı ilə əlaqələrə xüsusi əhəmiyyət verməsinin səbəblərindən biri də məhz budur.

ABŞ-Azərbaycan münasibətlərində tamamilə yeni səhifə açılıb. Dövlət başçısı İlham Əliyevin ötən ilin avqustunda Vaşinqtona səfəri çərçivəsində imzalanan "Azərbaycan Respublikası və Amerika Birləşmiş Ştatları arasında strateji tərəfdaşlığa dair xartiyanın inkişaf etdirilməsi məqsədilə Strateji İşçi Qrupunun yaradılması haqqında Azərbaycan Respublikası Hökuməti və Amerika Birləşmiş Ştatları Hökuməti arasında Anlaşma Memorandumu" Ağ Evin Bakıya olan strateji baxışının göstəricisidir.

Azərbaycan Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayır. Hazırda Azərbaycan qazını idxal edən 16 ölkədən 10-unun məhz Avropa İttifaqının üzvü olması da bunu sübut edir.

Ancaq Aİ üçün rəsmi Bakı, sadəcə, etibarlı qaz tədarükçüsü deyil, həm də iqtisadiyyatın gələcəyi olan "yaşıl enerji" layihələrində və Trans-Xəzər nəqliyyat əlaqələrində mühüm strateji tərəfdaşdır. Brüssellə imzalanan strateji sənədlər və birgə investisiya planları bu marağın ən aydın göstəricisidir. Cari il 2-3 iyun tarixlərində Bakı şəhərində Azərbaycan ilə Avropa İttifaqının nümayəndə heyətləri arasında yeni hərtərəfli saziş layihəsi üzrə həlledici danışıqlar aparılıb. Konstruktiv ruhda keçən müzakirələrin mühüm nəticəsi olaraq, 2026-2030-cu illəri əhatə edən Avropa İttifaqı- Azərbaycan Tərəfdaşlıq Prioritetləri sənədinin layihəsi ilkin olaraq razılaşdırılıb.

Bütün bu faktlar sübut edir ki, rəsmi Bakı kənar diktələrdən uzaq, tamamilə müstəqil siyasi xətt yürüdür. Azərbaycan əks qütbləri ortaq iqtisadi maraqlar ətrafında birləşdirən mərkəz rolunu oynayır.

### Yeni əməkdaşlıq mühiti

Bölgədə qurulan bu əməkdaşlıq mühiti Ermənistan üçün də taleyüklü bir fürsətdir desək, yanılmarıq. Uzun illər ərzində xəyali və radikal şüarların, kənar güclərin oyuncağı olmaq siyasətinin Ermənistanı iqtisadi çöküşə və tam regional təcridə düçar etdiyi bəllidir.

Ancaq bu gün Azərbaycan Ermənistanla münasibətlərdə faktiki əməkdaşlıq mühiti formalaşdırıb. Ötən il Ağ Evdə sülh sazişi mətninin paraflanmasından sonra iki ölkə arasında normallaşma istiqamətində mühüm addımlar atılıb. Neft məhsullarının və digər zəruri malların Azərbaycan ərazisindən Ermənistana ixrac edilməsi sülhün kağız üzərində deyil, insanların gündəlik həyatında hiss olunan real faydasıdır.

Bir sözlə, Ermənistanın bir dövlət kimi gələcəyi, iqtisadiyyatının xilası birbaşa olaraq onun Cənubi Qafqazda formalaşdırılmış yeni vəziyyətə necə adekvat reaksiya verəcəyindən asılıdır. Azərbaycanın təklif etdiyi sülh modeli heç bir ölkəni kənarda qoymur, əksinə, hamının xeyrinə olan kollektiv inkişafa yönəlibdir. Ermənistan bu layihələrə və sülh gündəliyinə qoşulmaqla regional tərəqqinin bir hissəsi ola bilər. Seçim İrəvanındır, ya köhnə xəyallarla inkişafdan kənarda qalmaq, ya da Bakının yaratdığı yeni reallığa uyğunlaşıb tərəqqi etmək.

Göründüyü kimi, rəsmi Bakının atdığı hər bir strateji addım, reallaşdırdığı irimiqyaslı layihələr ölkəmizi regional miqyasdan çıxararaq ən etibarlı qlobal əməkdaşlıq ünvanına çevirməkdədir.

Həm də Azərbaycanın ortaya qoyduğu inkişaf və əməkdaşlıq modeli, yürütdüyü uzaqgörən siyasət təkcə ölkəmiz, Cənubi Qafqaz üçün deyil, Şərqlə Qərbi, Şimalla Cənubu birləşdirən bütöv bir Avrasiya coğrafiyası üçün tərəqqi, sabitlik və iqtisadi rifah vəd edir.

Bəli, bu gün regional hüdudları aşaraq qlobal bağlantı mərkəzinə çevrilən Azərbaycan, bəşəriyyətin ortaq inkişafına töhfə verməyin əyani formulunu nümayiş etdirir. Şübhəsiz ki, bu strateji xətt həm ölkəmizin beynəlxalq nüfuzunu sarsılmaz edir, həm də onun ətrafında formalaşan geniş coğrafiyanı qlobal tərəqqinin yeni fəal qüvvəsinə çevirir.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# "TRIPP dəhlizi həm Mərkəzi Asiya, həm də Cənubi Qafqaz üçün real vədlər verir"

"Cənubi Qafqaz olmadan Orta dəhliz olmaz. Azərbaycan və Ermənistandan keçən TRIPP dəhlizi Orta dəhliz üçün fürsətdir". Bu sözləri AZƏRTAC-a açıqlamasında Xəzər Siyasət Mərkəzinin baş eksperti Erik Rudenşiold deyib.

O bildirib ki, hazırda Orta dəhliz yükdaşıma qabiliyyətini demək olar ki, maksimum dərəcədə artırır. "Biz Mərkəzi Asiyanın strateji mineral hasilatını, hər cür yükdaşımaları inkişaf etdirmək istəyini görürük. Bunun üçün daha çox tutuma ehtiyac var. Düşünürəm ki, TRIPP dəhlizi həm Mərkəzi Asiya, həm də Cənubi Qafqaz üçün real vədlər verir. Bu bölgənin həm Avropadan Asiyaya, həm də Asiyadan Avropaya bütün region üçün nəqliyyat mərkəzi kimi çiçəklənəcəyini görəcəyik", - deyə o əlavə edib.

# Dayanıqlı və rəqabətqabiliyyətli inkişafın Azərbaycan nümunəsi



Azərbaycanın iqtisadi inkişaf strategiyası milli iqtisadiyyatın dayanıqlılığının artırılması, şaxələndirmə və qeyri-neft sənayesinin gücləndirilməsi üzərində qurulub. İqtisadiyyatın liberallaşdırılması və sahibkarlığın dəstəklənməsi istiqamətində görülən işlər, iş adamlarına verilən güzəştli kreditlər, lisenziyaların rəqəmsallaşdırılması və biznesin qeydiyyatı prosedurlarının maksimum sadələşdirilməsi daxili bazarda sağlam rəqabət mühitini əhəmiyyətli dərəcədə gücləndirib.

Məhz bu islahat xətti makroiqtisadi sabitliyin qorunmasında və xarici təsirlərə qarşı iqtisadiyyatın immunitetinin güclənməsində həlledici rol oynayır. Azərbaycana davamlı valyuta axınının təmin edilməsi iqtisadi müstəvidə ölkəmizin ən böyük nailiyyətlərindən biridir. Həyata keçirilən genişmiqyaslı struktur və vergi-gömrük islahatları, biznes mühitinin şəffaflaşdırılması və rəqəmsal ekosistemin qurulması ölkəmizin investisiya cəlbediciliyini artırıb. Bu addımlar ölkəmizin maliyyə müstəqilliyini gücləndirərək, xarici valyuta resurslarının ölkəmizə cəlb edilməsinə fundamental zəmin formalaşdırıb. Xüsusilə indiki mərhələdə, qlobal ticarət qarşıdurmalarının kəskinləşdiyi bir dövrdə bu faktor xüsusi önəm daşıyır. Ən azından ona görə ki, beynəlxalq maliyyə bazarlarındakı dalğalanmaların ölkəmizə mənfi təsirləri minimuma enir. Paralel olaraq, bu amil milli valyutanın sabitliyini daha etibarlı şəkildə sığortalayır.

Qeyri-neft sənayesi üzrə ixrac potensialının güclənməsi, ölkə hüdudlarından kənarda gerçəkləşdirilən layihələrdən əldə edilən vəsaitlər valyuta ehtiyatlarımızın sürətlə çoxalmasını təmin edir. Ələlxüsus, son illərdə qeyri-neft sektoru ölkəyə xarici valyuta qazandıran əsas drayverlərdən birinə çevrilib. Bu, qeyri-neft sektoru sahəsinin şaxələndirilməsi istiqamətində həyata keçirilən islahatların real bəhrə verdiyinin sübutudur.

Milli iqtisadiyyatın rəqabətədavamlılığının artması və şaxələndirmə siyasəti son onillikdə istehsalın həcmində və strukturunda keyfiyyət dəyişikliklərinə yol açıb. Xatırladaq ki, 2015-ci ildə ümumi daxili məhsul təxminən 54 milyard manat səviyyəsində idisə, son on ildə baş verən dəyişikliklər nəticəsində bu göstərici 2025-ci ildə 129 milyard manata yüksələrək 2 dəfədən çox artıb. Lakin burada başlıca məqam iqtisadi böyümənin kəmiyyəti yox, keyfiyyət tərkibidir. Əgər əvvəlki dövrlərdə ölkə iqtisadiyyatının əsas sütununu enerji sahəsi təşkil edirdisə, son illərdə qeyri-neft sektorunun ÜDM-də payı 70 faizə qədər yüksəlib. Bu tendensiya nümayiş etdirir ki, iqtisadi tərəqqi yalnız karbohidrogen gəlirlərindən asılı deyil. Belə ki, qeyri-neft sənayesində istehsal həcmi son on ildə 2, kənd təsərrüfatı məhsulları istehsalı isə 1,5 dəfə artıb. Xidmət sektorunun payı 40 faizdən 50 faizə yüksələrək iqtisadiyyatın əsas hərəkətverici qüvvələrindən birinə çevrilib.

İqtisadiyyatın şaxələndirilməsi və sənayenin inkişafı fonunda ölkəmizin daxili resursları və istehsal sahələri coğrafi baxımdan da genişlənib. Tarixi Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsindən bu yana Azərbaycan iqtisadiyyatı özünün ən böyük və hərtərəfli strateji transformasiya dövrünə qədəm qoyub. Bu yeni mərhələ sadəcə postmünaqişə dövrünün bərpası deyil, bütövlükdə milli iqtisadiyyatın regional və qlobal miqyasda yenidən strukturlaşdırılması prosesidir.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkənin ümumi təsərrüfat sisteminə sürətli reinteqrasiyası regional inkişafın tamamilə yeni reallıqlarını diktə edir. Dövlətimizin reallaşdırdığı Böyük qayıdış proqramı çərçivəsində reallaşan bu nəhəng reinteqrasiya prosesi qeyri-neft sektorunun inkişaf tempini yeni keyfiyyət mərhələsinə daşıyır. Bu kontekstdə respublikamızın xarici investisiya cəlbediciliyi artıq ənənəvi sahələrlə məhdudlaşmır. Azərbaycanın "Masdar" (BƏƏ), "ACWA Power" (Səudiyyə Ərəbistanı) və BP kimi dünya nəhəngləri ilə Qarabağ, Şərqi Zəngəzur və Naxçıvanda günəş və külək-elektrik stansiyalarının, o cümlədən regional miqyaslı Qaradağ Günəş-Elektrik Stansiyasının inşası üzrə milyardlarla dollarlıq birbaşa xarici investisiya müqavilələri imzalaması bunun bariz sübutudur. Bu meqalayihələr investisiya cəlbediciliyinin neftdən kənar sahədə də zirvədə olduğunu aydın nümayiş etdirir.

İşğaldan azad edilmiş torpaqlarımızın reinteqrasiyası iqtisadiyyata yalnız yeni ərazilər qazandırmır, həm də ən müasir texnoloji yanaşmaların tətbiqi üçün poliqon rolunu oynayır. Müasir daxili və xarici investisiyaların cəlb edildiyi bu ərazilər, sıfırdan "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında yenidən qurulur ki, bu da bütövlükdə ölkədə innovativ rəqəmsal ekosistemin formalaşmasına güclü təkan verir. Regionun malik olduğu nəhəng iqtisadi potensial - bərpaolunan "yaşıl enerji" resursları, zəngin şirin su mənbələri və geniş kənd təsərrüfatı torpaqları ölkənin ərzaq və enerji təhlükəsizliyinə birbaşa töhfə verir.

Bununla yanaşı, bölgənin müxtəlif növ strateji tikinti materialları yataqları sənaye zəncirinin xammal bazasını əhəmiyyətli dərəcədə zənginləşdirir. Yerli metallurgiya, emal və tikinti sektorlarının xarici asılılığını minimuma endirir. Ölkəmizdə fəaliyyət göstərən sənaye parklarının daxili istehsalda və qeyri-neft ixracında payının kəskin artması milli sənayeləşmə siyasətinin mühüm qələbəsidir. Bu zonalarda istehsal olunan məhsullar daxili tələbatı yüksək səviyyədə ödəməklə yanaşı, "Made in Azerbaijan" brendi ilə Avropa, MDB və Yaxın Şərq bazarlarına ixrac edilərək ölkənin qeyri-neft potensialını daha da gücləndirir. Bölgənin xammal və istehsal potensialı eyni zamanda investisiya və logistika mərkəzlərinin qurulması ilə dəstəklənir. Azad olunmuş torpaqlarda yaradılan Ağdam və "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları vergi və gömrük güzəştləri vasitəsilə bu bölgəni regional investisiya mərkəzinə çevirir.

Eyni zamanda Füzuli, Zəngilan və Laçında inşa edilən beynəlxalq hava limanları, habelə Zəngəzur dəhlizi istiqamətində qurulan yeni nəqliyyat-logistika şəbəkəsi Qarabağ və Şərqi Zəngəzuru beynəlxalq tranzit marşrutlarının mərkəzi qovşağına çevirir. Bu isə yaxın gələcəkdə ölkəmizin ümumi ixrac portfelində qeyri-neft-qaz məhsullarının payının həndəsi silsilə ilə artmasına hüquqi və iqtisadi zəmin yaradır.

Azərbaycan iqtisadiyyatı müasir dünyada qlobal və geosiyasi çağırışlara çevik və proaktiv reaksiyası ilə seçilir. Əlverişli coğrafi mövqeyə malik olan ölkəmizin qlobal miqyasda tranzit əhəmiyyəti durmadan artır. Dünyada nəqliyyat-logistika zəncirinin qırıldığı bir vaxtda ölkəmiz "Şərq-Qərb" və "Şimal-Cənub" nəqliyyat dəhlizlərinin, xüsusən də Orta dəhlizin ən kritik və etibarlı qovşağına çevrilib. Qlobal "yaşıl keçid" tendensiyalarına uyğun olaraq, Azərbaycan Xəzər dənizinin və azad edilmiş ərazilərin bərpaolunan enerji potensialından istifadə edərək "yaşıl enerji" ixracatçısı statusunu qazanmaq istiqamətində sürətlə irəliləyir. Avropanın enerji təhlükəsizliyində strateji tərəfdaş rolunu qoruyan respublikamız, həm karbohidrogen gəlirlərini rəqabətqabiliyyətli qeyri-neft iqtisadiyyatına çevirir, həm də qlobal dayanıqlı inkişaf reytinqlərində mövqeyini ilbəil möhkəmləndirir.

Tranzit potensialının artırılması və qlobal layihələrin reallaşdırılması ölkəmizin beynəlxalq arenada mövqeyini daha da yüksəldir. Bu kontekstdə xüsusilə vurğulanmalıdır ki, Orta dəhlizin rəqabət üstünlüklərinin artırılması məqsədilə rəqəmsal gömrük dəhlizlərinin yaradılması, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ötürücülük imkanlarının genişləndirilməsi və dəmir yolu infrastrukturunun modernləşdirilməsi istiqamətində atılan addımlar ölkəmizin qitələrarası tranzit yüklərin daşınma müddətini iki dəfəyə qədər azaltmasına imkan verib.

Azərbaycan çoxşaxəli multimodal nəqliyyat mərkəzi funksiyasını mənimsəyərək qlobal tədarük zəncirinin diversifikasiyasında həlledici aktora çevrilib. Bu geoiqtisadi manevrlər iqtisadiyyatın xidmət və logistika sektorundan əldə edilən gəlirlərin tərkibində keyfiyyətcə yeni və dayanıqlı artım tempi formalaşdırıb. Eyni zamanda ölkəmizin beynəlxalq nüfuzunun təzahürü kimi qlobal iqlim hədəflərinə sadiqliyi və bu sahədə reallaşdırılan meqalayihələr respublikamızın dünya siyasətindəki mövqeyini keyfiyyətcə yeni mərhələyə daşıyıb.

Qlobal enerji böhranının beynəlxalq münasibətlər sistemini və tədarük zəncirlərini yenidən formalaşdırdığı müasir dövrdə Azərbaycanın mavi qazı Avropa qitəsi üçün alternativsiz təhlükəsizlik qarantına çevrilib. Xüsusilə ənənəvi enerji mənbələrindən asılılığın azaldılması və marşrutların diversifikasiyası məsələsinin kəskinləşdiyi bir vaxtda xarici tərəfdaşlar Azərbaycanı ən etibarlı və proqnozlaşdırıla bilən strateji tərəfdaş kimi qəbul edirlər. Avropa İttifaqı ilə imzalanmış enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu bu əməkdaşlığın hüquqi və iqtisadi təməlini təşkil edir. Həmin müqavilələrə əsasən, ölkəmizdən Avropaya qaz ixracının fiziki həcmi ildən-ilə ardıcıl və dinamik şəkildə artırılmaqdadır. "Cənub qaz dəhlizi"nin tam gücü ilə işləməsi və ötürücülük imkanlarının genişləndirilməsi, Trans-Adriatik (TAP) və Trans-Anadolu (TANAP) boru kəmərləri vasitəsilə Avropa qitəsinin içərilərinə doğru yeni interkonnektorların qurulması Azərbaycanın qlobal enerji arxitekturasında həlledici mövqeyə malik olmasının təzahürüdür.

Bu gün İtaliya, Yunanıstan, Bolqarıstan, Rumıniya, Macarıstan və Serbiya kimi bir çox Avropa ölkələrinin sənaye gücü və daxili istehlakı birbaşa Azərbaycan qazının sabit və kəsintisiz tədarükü hesabına sığortalanır. Bu amil təkcə ölkəmizə uzunmüddətli və davamlı xarici valyuta axınını təmin etmir, həm də respublikamızın geoiqtisadi nüfuzunu artıraraq onu qlobal enerji təhlükəsizliyinin həlledici aktorlarından birinə çevirir.

İqtisadiyyatın şaxələndirilməsi və regionların dirçəlişi fonunda dövlət büdcəsinin gəlir və xərclərində hər il ardıcıl artımların qeydə alınması da ənənə halını alıb. İqtisadi fəallığın yüksəlməsi və qeyri-neft sənayesindən daxilolmaların çoxalması nəticəsində büdcənin gəlir bazası davamlı olaraq genişlənir və icra prosesində tez-tez müsbət dinamika ilə yenidən baxılaraq dürüstləşdirilir. Bu artımlar Azərbaycanın maliyyə suverenliyini gücləndirməklə yanaşı, həm Qarabağda aparılan nəhəng infrastruktur layihələrinin tamamilə yerli resurslar hesabına maliyyələşdirilməsinə, həm də ölkə daxilində sosialyönümlü proqramların xərclərinin genişləndirilməsinə geniş imkanlar yaradır.

Büdcə gəlirlərinin şaxələndirilməsi həm də kənar maliyyə asılılığını aradan qaldıraraq daxili idarəetmə imkanlarını maksimum həddə çatdırıb. Davamlı büdcə profisiti və gəlir şaxələndirilməsi Azərbaycanın dövlət olaraq iqtisadi və maliyyə suverenliyini qlobal miqyasda ən üst səviyyəyə qaldırır. Belə möhkəm maliyyə immuniteti sayəsində ölkəmiz heç bir xarici maliyyə təsisatından, beynəlxalq banklardan və ya xarici kreditlərdən asılı olmayaraq, tamamilə daxili resurslar hesabına nəhəng layihələri idarə etmək qabiliyyətini ortaya qoyur. Bunun ən bariz nümunəsi, işğaldan azad edilmiş ərazilərdə aparılan çoxmilyardlıq tarixi infrastruktur layihələrinin tamamilə yerli qaynaqlar hesabına maliyyələşdirilməsidir. Bu faktor gələcək nəsillərin çiyinlərinə xarici borc yükü qoymadan böyük coğrafi arealları yenidən qurmaq bacarığının göstəricisidir.

Dövlətimizin güclü maliyyə imkanları makroiqtisadi layihələrlə yanaşı, vətəndaşların rifahının yüksəldilməsinə yönələn humanitar və sosial proqramların əsas sütununa çevrilib. Büdcənin gəlir imkanlarının artması, eyni zamanda ölkə daxilində "sosial dövlət" prinsiplərinin daha qətiyyətlə tətbiqinə birbaşa xidmət edir. İqtisadi tərəqqidən əldə olunan dividendlər sosialyönümlü proqramların xərclərinin genişləndirilməsinə, minimum əməkhaqqı və təqaüdlərin mütəmadi indeksasiyasına, müavinətlərin artırılmasına və əhalinin həssas qruplarının dövlət qayğısı ilə əhatə olunmasına yönəldilir. Beləliklə, iqtisadi islahatlar və regional dirçəliş layihələri sadəcə makroiqtisadi göstərici olaraq qalmır, vətəndaşların rifah halının yüksəldilməsi, keyfiyyətli təhsil, müasir səhiyyə sisteminin və güclü insan kapitalının formalaşdırılması üçün etibarlı maliyyə təminatına çevrilir. Bu qarşılıqlı vəhdət iqtisadi inkişafın cəmiyyətin bütün təbəqələri arasında ədalətli və balanslı paylanmasını təmin edir.

Ölkəmizin əldə etdiyi makroiqtisadi və sosial uğurlar qanunverici orqan səviyyəsində də rəsmi hesabatlarla təsdiqlənir və yüksək qiymətləndirilir. İyunun 9-da Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında ölkə prezidenti tərəfindən təqdim edilən "Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsinin icrası haqqında" qanun layihəsinin müzakirəsində qeyd olunub ki, ötən dövr ərzində müdafiə və təhlükəsizlik, əhalinin sosial müdafiəsi, işğaldan azad olunmuş ərazilərin bərpası üzrə xərclərin maliyyələşdirilməsi prioritet istiqamətlər kimi davam etdirilib.

Nəzərə çatdırılıb ki, büdcənin icrası 2025-ci ildə makroiqtisadi sabitliklə, xüsusilə 1,4 faizlik iqtisadi artımla, 5,6 faizlik orta illik inflyasiya ilə, cari hesablar üzrə tədiyyə balansının 3,5 milyard ABŞ dolları səviyyəsində müsbət saldosu ilə müşayiət olunub. Ölkəmizin strateji valyuta ehtiyatları 85,1 milyard ABŞ dollarına çatıb. Hesabata əsasən, gəlirlər proqnoz rəqəmlərini üstələyib. Belə ki, 2025-ci il üzrə dövlət büdcəsinin gəlirləri 39,2 milyard manat olmaqla, proqnoza qarşı 829 milyon manat və ya 2,2 faiz çox icra edilib. Dövlət büdcəsinin xərcləri proqnozun 93,2 faizi həcmində və ya 38,6 milyard manat icra edilib. Dövlət büdcəsi kəsirinin yuxarı həddi 3,1 milyard manat məbləğində təsdiq olunsa da, faktiki 580 milyon manat büdcə artıqlığı yaranıb.

Qeyd olunub ki, 2025-ci ildə ümumi daxil məhsul (ÜDM) 129,1 milyard manat, qeyri-neft-qaz sektoru üzrə ÜDM 92,3 milyard manat təşkil edib, xam neftin 1 barelinin orta illik qiyməti 71 ABŞ dollarına bərabər olub, orta illik inflyasiya 5,6 faiz, manatın məzənnəsi 1,7 manat təsbit edilib, əhalinin nominal gəlirlərində 8 faiz artım müşahidə olunub. Vurğulanıb ki, dövlət borcu ilin sonuna 26 milyard manata və ya illik ÜDM-in 20,1 faizinə bərabər olub və bu, 2025-ci ilin əvvəli ilə müqayisədə ilin sonu üçün 1,6 faiz azdır. Dövlət borcunun bu günə olan həcmi 24,1 milyard manata və ya illik ÜDM-in 18,4 faizinə bərabərdir. Bu, Azərbaycanın ümumi dövlət borcunun ÜDM-ə nisbətinin ən aşağı olduğu ölkələrdən biri olduğunun bariz nümunəsidir. Borc portfeli ilin sonuna 17,8 milyard manat daxili dövlət borcundan, 8,2 milyard manat xarici dövlət borcundan ibarət olub. Strateji valyuta ehtiyatlarımız bu günə 88,4 milyard ABŞ dollarına çatıb. Dövlət Neft Fondundan büdcəyə transfert 8,5 milyard ABŞ dolları məbləğində icra olunub, dövlət büdcəsi profisitlə icra edilib.

Hesabatda bəyan edilib ki, cari xərclərin qeyri-neft gəlirləri ilə örtülmə nisbəti 92 faiz təşkil edir, 2029-cu ilə hədəf bu rəqəmi 100 faizə çatdırmaqdır. İcmal büdcə xərcləri qeyri-neft ÜDM-in 48,4 faizinə bərabər olub. Həmçinin regionların büdcədən asılılığı daha da azalıb. Bununla yanaşı, nəzərə çatdırılıb ki, icmal büdcə xərcləri 44,7 milyard manat məbləğində icra olunub. Cari xərclər 22,1 milyard manat, əsaslı xərclər 14,4 milyard manat, dövlət borclarına xidmətlə bağlı xərclər 2,1 milyard manat icra olunub, sosialyönlü xərclər isə 15,3 milyard manat və ya büdcənin 40 faizini təşkil edib. Son 5 ildə sosialyönlü xərclər 3,9 milyard manat artıb.

Azərbaycanın həyata keçirdiyi unikal iqtisadi model və təhlükəsiz borc strategiyası qlobal maliyyə təşkilatlarının da diqqət mərkəzindədir. Hazırda beynəlxalq qurumların hesabatlarında respublikamızın makroiqtisadi sabitliyinin əsas təminatçısı qismində maliyyə rezervlərimiz çıxış edir. Bu aktivlər Beynəlxalq Valyuta Fondunun metodologiyasına əsasən, Dövlət Neft Fondu və Mərkəzi Bankın balansında cəmləşən ehtiyatlardan ibarətdir. Ölkəmizin kredit reytinqləri onun müsbət xarici balans mövqeyi, qlobal səviyyədə ən minimal öhdəlik hədəfləri və nəhəng suveren fond aktivlərinin verdiyi yüksək maliyyə manevr imkanları ilə şərtlənir.

Nüfuzlu "Fitch Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycanın strateji valyuta ehtiyatlarının 2026-cı ildə 93 milyard ABŞ dollarına çatacağını proqnozlaşdırır. Agentlik bu göstəricinin ölkənin proqnozlaşdırılan ümumi daxili məhsulunun (ÜDM) 117 faizinə bərabər olacağını bildirib. Aktivlərin 84 faizi Azərbaycan Dövlət Neft Fondunda (ARDNF), qalan hissəsi isə Azərbaycan Mərkəzi Bankının beynəlxalq ehtiyatlarında saxlanılır. Agentliyin qiymətləndirməsinə görə, Yaxın Şərqdəki münaqişə fonunda neft qiymətlərinin yüksəlməsi Azərbaycanın neft və qaz gəlirlərini artıracaq, bu da xarici aktivlərin həcminin böyüməsinə şərait yaradacaq. "Fitch Ratings" bildirib ki, Azərbaycanın xalis suveren xarici aktivləri 2026-cı ildə ÜDM-in 73 faizinə çatacaq ki, bu da "BBB" reytinqli ölkələr arasında ən yüksək göstəricidir.

Məhz bu uğurlu inkişaf strategiyasının məntiqi nəticəsi olaraq, gəlirləri 38 milyard 609 milyon manat, xərcləri isə 41 milyard 703 milyon manat məbləğində təsdiq edilən Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsi bütün Qafqaz regionunun və ölkəmizin müstəqillik tarixinin ən böyük maliyyə paketi olmaqla tarixi nailiyyətə çevrilib. Bu nəhəng büdcə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial-iqtisadi kursun effektivliyini maliyyə müstəvisində bir daha təsdiqləyir. "Azərbaycan 2030: Sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər" sənədini uzunmüddətli dövlət strategiyası kimi büdcənin mərkəzinə qoyan yeni maliyyə planı neft amilindən asılılığın sistemli şəkildə azaldılmasına və qeyri-neft resurslarının drayverə çevrilməsinə fundamental zəmin yaradır. Eyni zamanda təhsil, səhiyyə və sosial təminat proqramlarını əhatə edən sosialyönümlü xərclərin büdcədəki yüksək payı dövlətimizin ali məqsədinin birbaşa vətəndaş rifahının yüksəldilməsinə və insan kapitalının inkişafına yönəldiyini bariz şəkildə nümayiş etdirir.

Ölkə iqtisadiyyatının keçdiyi bu uğurlu inkişaf yolu və əldə olunan möhtəşəm dividendlər dövlətimizin başçısının qətiyyətli strateji yanaşmasının birbaşa nəticəsidir. Prezident İlham Əliyevin iyunun 1-də "Bakı Enerji Həftəsi"nin açılış mərasimində çıxışı zamanı vurğuladığı məqamlar bu reallıqları tam dolğunluğu əks etdirir: "Bu gün Azərbaycanın iqtisadi fəaliyyəti çox müsbətdir. Aparıcı beynəlxalq reytinq agentliklərindəki reytinqimiz ildən-ilə artır. Hazırkı vəziyyətə görə bizim artıq investisiya dərəcəli reytinqimiz var. Yoxsulluq səviyyəsi 5 faizə enib, işsizlik də təqribən eyni rəqəm səviyyəsindədir. Biz xarici borcumuzu əhəmiyyətli dərəcədə azalda bildik. Başlanğıcda biz borc götürmək məcburiyyətində idik, lakin sonra strategiyamız borc götürməyi dayandırmaq və borcları ödəmək oldu ki, biz istənilən beynəlxalq maliyyə institutundan asılı olmayaq. Bu günə bizim xarici borcumuz dünyada ən aşağı xarici borclardandır və o, təqribən ümumi daxili məhsulun 6 faizindən çoxdur. Biz ehtiyatlarımızı Dövlət Neft Fondu və Mərkəzi Bankda topladıq. Beləliklə, ehtiyatlarımız xarici borcu 18 dəfədən çox üstələyir. Bütün bunlar birinci növbədə bizim təbii sərvətlərimizdən düzgün istifadə etdiyimizə görə baş verdi".

Dövlətimizin başçısının çıxışı Azərbaycanın karbohidrogen resurslarından əldə olunan gəlirləri strateji uzaqgörənliklə idarə etdiyini ortaya qoyur. Ölkəmizin borclanma siyasətinə dair strategiyası tam müstəqil siyasəti şərtləndirən ən fundamental amildir. Xarici borcun ümumi daxili məhsulun cəmi 6 faizindən bir qədər çox olması və strateji rezervlərin bu borcu 18 dəfədən çox üstələməsi Azərbaycanın qlobal maliyyə arxitekturasında unikal tərəfdaşlıq mövqeyini və suveren maliyyə immunitetini təsdiqləyir. Digər tərəfdən, yoxsulluq və işsizliyin 5 faiz həddinə endirilməsi iqtisadi islahatların birbaşa sosial rifaha və insan kapitalına translyasiya olunduğunun bariz göstəricisidir.

Bütün bu mənzərə və makroiqtisadi göstəricilər bir reallığı tam aydınlığı ilə ortaya qoyur. Azərbaycan postneft dövrünün iqtisadi modelini geoiqtisadi reallıqların mərkəzində uğurla tətbiq edir. Ölkəmizin nümayiş etdirdiyi inkişaf fəlsəfəsi təbii resurslardan asılılığı minimuma endirərək insan kapitalına, rəqəmsal innovasiyalara və regional şaxələndirməyə əsaslanan yeni bir iqtisadi memarlığın qurulmasıdır. Tarixi Zəfərlə başa çatan postmünaqişə dövründən sonra Qarabağ və Şərqi Zəngəzurun ölkənin ümumi təsərrüfat sisteminə reinteqrasiyası, habelə Orta dəhliz və nəhəng "yaşıl enerji" layihələri respublikamızın gələcək inkişaf trayektoriyasını təyin edən əsas sütunlara çevrilib.

Mühüm məqam ondan ibarətdir ki, Azərbaycan bu genişmiqyaslı transformasiyanı heç bir kənar maliyyə təsisatından asılı olmadan, özünün suveren valyuta ehtiyatları və daxili resursları hesabına reallaşdırır. Xarici borcun ümumi daxili məhsula nisbətinin minimal səviyyədə saxlanılması və rezervlərin borcları dəfələrlə üstələməsi ölkənin gələcək nəsillərini qlobal borc yükündən sığortalamaqla yanaşı, respublikanın tam müstəqil xarici və daxili siyasət yürütmək imkanlarını da zirvəyə daşıyır.

*Beləliklə, karbohidrogen gəlirlərin rəqabətqabiliyyətli qeyri-neft sənayesinə yönəldilməsi və dayanıqlı sosial rifaha çevrilməsi strategiyası Azərbaycanı təkcə regionun deyil, Avrasiya məkanının ən etibarlı, investisiya cəlbediciliyi baxımından aparıcı dövlətlərindən biri kimi mövqelərini daha da möhkəmləndirir. Dayanıqlı və rəqabətqabiliyyətli inkişaf modeli milli iqtisadiyyatın istənilən qlobal böhran və dalğalanmalara qarşı immunitetini tam təmin edərək, Azərbaycanı inamla daha parlaq və dayanıqlı gələcəyə doğru aparır.*

***Səttar MÖHBALIYEV,***
***Milli Məclisin deputatı***

# Azərbaycan-Türkiyə münasibətləri türk dünyasında əməkdaşlığın əsas dayaqlarından biridir

**"Azərbaycan-Türkiyə münasibətləri adi dövlətlərarası əlaqələr çərçivəsinə sığmayan, tarixi yaddaşa, ortaq mədəniyyətə, dil və mənəvi bağlılığa söykənən nadir münasibətlər modelidir. Bu münasibətlərin mahiyyəti yalnız diplomatik protokollarda deyil, xalqların yaddaşında, tarixin sınaqlarında və müasir dövrün strateji reallıqlarında formalaşıb. "Bir millət, iki dövlət" fəlsəfəsi Azərbaycanla Türkiyə arasında əlaqələrin həm mənəvi, həm siyasi, həm də geosiyasi əsasını təşkil edir".**



Bu sözləri AZƏRTAC-a açıqlamasında **Milli Məclisin deputatı Azər KƏRİMLİ** söyləyib. O bildirib ki, tarixi baxımdan Azərbaycan və Türkiyə eyni sivilizasiya məkanının, türk-islam mədəniyyətinin və ortaq siyasi-mənəvi irsin daşıyıcısıdır. XX əsrin əvvəllərində Azərbaycan Xalq Cümhuriyyətinin yaranması dövründə Osmanlı Türkiyəsinin Azərbaycana verdiyi dəstək bu qardaşlığın ən parlaq səhifələrindən biri kimi tarixə düşdü. 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusunun Bakının azad edilməsində oynadığı rol Azərbaycan dövlətçiliyinin möhkəmlənməsi baxımından mühüm hadisə idi. Bu hadisə iki xalq arasında təkcə siyasi deyil, həm də qan və taleyin birliyi üzərində qurulan qardaşlığın rəmzinə çevrildi.

Sovet dövründə Azərbaycanla Türkiyə arasında rəsmi siyasi əlaqələr məhdudlaşdırılsa da, mənəvi bağlar heç vaxt qırılmadı. Dil, ədəbiyyat, musiqi, ailə yaddaşı və milli şüur iki xalq arasında görünməz körpü rolunu oynadı. Azərbaycanın dövlət müstəqilliyini bərpa etməsindən sonra isə bu bağlar yenidən rəsmi dövlət siyasəti səviyyəsinə yüksəldi. Müstəqilliyin ilk illərində Azərbaycan üçün Türkiyə yalnız dost və qardaş ölkə deyil, həm də beynəlxalq arenaya çıxış, dövlət institutlarının qurulması, ordu quruculuğu, təhsil, iqtisadi əməkdaşlıq və diplomatik dəstək baxımından mühüm strateji tərəfdaş idi. Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" konsepsiyası bu münasibətlərin siyasi-fəlsəfi əsasını müəyyənləşdirdi. Məhz həmin dövrdən başlayaraq, Azərbaycan-Türkiyə əlaqələri emosional qardaşlıq səviyyəsindən sistemli strateji tərəfdaşlıq səviyyəsinə yüksəldi.

"Azərbaycan-Türkiyə münasibətlərində yeni tarixi mərhələ 44 günlük Vətən müharibəsi dövründə özünü göstərdi. Türkiyə Azərbaycanın haqq işinə ilk gündən açıq siyasi və mənəvi dəstək verdi. Bu dəstək yalnız iki dövlətin yaxınlığını deyil, həm də regionda yeni reallığın formalaşmasında Türkiyənin Azərbaycanın yanında olduğunu nümayiş etdirdi. 2021-ci il iyunun 15-də Azərbaycanın mədəniyyət paytaxtı, Qarabağın tacı olan Şuşa şəhərində imzalanan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" bu münasibətlərin zirvə nöqtəsi oldu. Sənədin məhz Şuşada və Milli Qurtuluş Günündə imzalanması dərin siyasi və rəmzi məna daşıyırdı. Şuşa Azərbaycan xalqı üçün mədəniyyət, qürur və Zəfər rəmzidir. Bu şəhərdə imzalanan Bəyannamə Azərbaycan-Türkiyə qardaşlığını artıq hüquqi-siyasi baxımdan müttəfiqlik səviyyəsinə qaldırdı.

Şuşa Bəyannaməsinin əsas əhəmiyyəti ondan ibarətdir ki, bu sənəd Azərbaycan və Türkiyə münasibətlərinin bütün istiqamətlərini vahid strateji çərçivəyə saldı. Buraya siyasi dialoq, müdafiə və təhlükəsizlik, xarici siyasətin koordinasiyası, iqtisadiyyat, enerji, nəqliyyat, media, təhsil, mədəniyyət, humanitar sahə və türk dünyası daxilində əməkdaşlıq daxildir. Bəyannaməyə əsasən, tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə və təhlükəsizliyinə təhdid yaranarsa, tərəflər birgə məsləhətləşmələr aparmalı və BMT Nizamnaməsinə uyğun şəkildə zəruri yardım göstərməlidirlər.

Bu baxımdan, Şuşa Bəyannaməsi yalnız ikitərəfli sənəd deyil, həm də Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının mühüm elementi kimi qiymətləndirilməlidir. O, təkcə Azərbaycan və Türkiyənin deyil, bütövlükdə regionun gələcəyi baxımından mühüm əhəmiyyət kəsb edir. Sənəd Cənubi Qafqazda dayanıqlı sülhün, iqtisadi inteqrasiyanın və qarşılıqlı faydalı əməkdaşlığın genişlənməsinə xidmət edir. Azərbaycanın yaratdığı yeni geosiyasi reallıqlar regionun nəqliyyat və logistika xəritəsini dəyişdirib. Bu kontekstdə bəyannamədə xüsusi yer tutan Zəngəzur dəhlizi layihəsi Avropa ilə Asiyanı birləşdirən strateji körpü rolunu oynayır", - deyə A.Kərimli vurğulayıb.

Deputat qeyd edib ki, hazırda Azərbaycan-Türkiyə münasibətləri regional inteqrasiyanın, enerji təhlükəsizliyinin, nəqliyyat bağlantılarının və türk dünyasında əməkdaşlığın əsas dayaqlarından biridir. Orta dəhliz, Bakı-Tbilisi-Qars xətti, TANAP, "yaşıl enerji" layihələri, Qarabağ və Şərqi Zəngəzurda bərpa-quruculuq işləri bu əməkdaşlığın praktiki nəticələridir. Türkiyə şirkətlərinin işğaldan azad edilmiş ərazilərdə bərpa prosesində iştirakı, Füzuli Beynəlxalq Hava Limanı, Ağdamın baş planı və Zəngilan istiqamətində layihələr də bu tərəfdaşlığın real məzmununu göstərir. Azərbaycan və Türkiyə, eyni zamanda Türk Dövlətləri Təşkilatının əsas aparıcı qüvvələrindəndir. Bu istiqamətdə əməkdaşlıq təkcə etnik-mədəni birlik deyil, həm də iqtisadi inteqrasiya, nəqliyyat marşrutları, enerji siyasəti və beynəlxalq platformalarda qarşılıqlı dəstək baxımından strateji əhəmiyyət daşıyır. Şuşa Bəyannaməsi bu mənada Azərbaycan-Türkiyə münasibətlərini türk dünyasının daha geniş inteqrasiya prosesinə bağlayan mühüm sənəddir.

"Azərbaycan-Türkiyə münasibətləri tarixdən gələn qardaşlığın müasir geosiyasi müttəfiqliyə çevrilmiş nümunəsidir. Bu münasibətlər 1918-ci ilin tarixi yaddaşından, 1991-1992-ci illərin müstəqillik və diplomatik başlanğıcından, Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət" fəlsəfəsindən, Vətən müharibəsinin sınağından keçərək Şuşa Bəyannaməsi ilə yeni zirvəyə yüksəldi. Şuşa Bəyannaməsi keçmişin qardaşlığını gələcəyin strateji yol xəritəsinə çevirən sənəddir. Bu gün Azərbaycan və Türkiyə yalnız iki dost ölkə deyil, eyni hədəflərə doğru addımlayan, regionda sülhün, təhlükəsizliyin və inkişafın əsas dayaqlarından birinə çevrilmiş müttəfiqlərdir",-deyə o əlavə edib.

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Neftdənkənar inkişaf - Azərbaycan iqtisadiyyatının yenilənmə modeli

### Ötən il ölkə üzrə ÜDM istehsalının 71,5 faizi qeyri-neft sektorunun payına düşüb

**Azərbaycan iqtisadiyyatının son 20 ildə keçdiyi inkişaf yolu ölkənin neftdən asılılığının tədricən azaldığını göstərir. 2025-ci ildə ümumi daxili məhsulun (ÜDM) 71,5 faizinin neftdənkənar sahənin payına düşməsi iqtisadiyyatın strukturunda mühüm dəyişikliklərin baş verdiyini nümayiş etdirir.**

İki onillik əvvəl bu göstərici təxminən 44 faiz səviyyəsində idi, 45 faizə belə çatmırdı. Bu dinamika həyata keçirilən iqtisadi şaxələndirmə siyasətinin nəticəsi kimi qiymətləndirilir. Çünki Azərbaycanın artıq iqtisadiyyatın şaxələndirilməsi istiqamətində müsbət nəticələr əldə etdiyi aydın görünür. Əgər 2025-ci ildə ÜDM-in strukturuna baxsaq, neftdənkənar sahənin payının 71,5 faizə qədər yüksəldiyini görərik. Bu isə o deməkdir ki, ölkə iqtisadiyyatında neft-qaz sektorunun payı artıq 30 faizdən aşağı düşüb. Sənaye istehsalının genişlənməsi, neftdənkənar ixracın artması və xidmət sektorunun inkişafı bu prosesə dəstək verir.

Bu nəticələr həyata keçirilən iqtisadi siyasətin səmərəsini ortaya qoyur. Üstəlik, inkişaf ölkənin son 20 ildə müxtəlif iqtisadi sınaqlarla, o cümlədən müasir tariximizin ən çətin iqtisadi dövrlərindən biri ilə üzləşdiyi bir şəraitdə əldə olunub. Bütün bu çətinliklərə baxmayaraq, iqtisadiyyatın strukturunda neftdənkənar sahənin çəkisinin artması Azərbaycanın şaxələndirmə siyasətinin uğurlu nəticələrindən biri kimi qiymətləndirilə bilər. Neftdənkənar sənaye iqtisadi dayanıqlığın əsas təminatçılarından biri kimi qiymətləndirilir. Sənaye sahəsi yüksək texnologiyaların, mühəndislik biliklərinin, innovasiyaların və insan kapitalının inkişafına təkan verir. Azərbaycanın siyasi sabitliyi, əlverişli enerji qiymətləri, inkişaf etmiş infrastruktur və makroiqtisadi sabitlik kimi üstünlükləri sənayenin inkişafı üçün əlverişli zəmin yaradır.




Qeyd olunan amillər sənaye sektorunun strukturunun daha geniş şaxələndirilməsini və yeni prioritet istiqamətlər üzrə inkişafın davam etdirilməsini aktuallaşdırır. Bu baxımdan deyə bilərik ki, perspektivli istiqamətlərdən biri dağ-mədən sənayesidir. İşğaldan azad edilmiş ərazilərdə yerləşən zəngin mineral ehtiyatlar, xüsusilə qızıl, mis, gümüş və digər strateji minerallar bu sahənin inkişaf potensialını artırır. Eyni zamanda metallurgiya sənayesinin genişləndirilməsi əlavə dəyər yaradan istehsal zəncirinin formalaşdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Kimya sənayesi də prioritet sahələr sırasında yer alır. Azərbaycanın mövcud neft və qaz resursları polimerlər, polipropilen, polietilen və digər yüksək əlavə dəyərli məhsulların istehsalı üçün geniş imkanlar yaradır.

Kənd təsərrüfatı neftdənkənar ixracın əsas istiqamətlərindən biri olaraq qalır. Ölkənin əlverişli iqlim şəraiti, münbit torpaqları və mövcud bazarlara çıxış imkanları bu sahənin inkişafını dəstəkləyən əsas amillərdir. Xidmət sektorunda nəqliyyat-logistika xüsusi önəm daşıyır. Azərbaycanın Orta dəhliz və "Şimal-Cənub" nəqliyyat marşrutlarında mühüm tranzit mərkəzinə çevrilməsi ölkə üçün yeni iqtisadi imkanlar yaradır. Turizm sektoru da neftdənkənar gəlirlərin artırılması baxımından strateji istiqamətlərdən biri hesab olunur.

Qeyd olunan istiqamətlər neftdənkənar sahənin inkişafında prioritet sahələr kimi qiymətləndirilir. Bu baxımdan iqtisadiyyat naziri Mikayıl Cabbarovun İctimai Televiziya və AZƏRTACa verdiyi müsahibədə səsləndirdiyi fikirlər ölkənin iqtisadi şaxələndirmə siyasətinin əsas hədəflərini və perspektivlərini daha aydın şəkildə ortaya qoyur: "Mən ilk növbədə qeyri-neft sənayesini qeyd edərdim. Çünki sirr deyil ki, istənilən ölkənin sənaye potensialı onun iqtisadi dayanıqlılığını təmin edir. Azərbaycana gəldikdə, bizim bir sıra üstünlüklərimiz var. Onların əksəriyyəti bir çox digər sektorlara da aid ola bilər. Lakin sənayenin özəlliyi ondan ibarətdir ki, ticarətdən fərqli olaraq, bu, daha uzunmüddətli baxış tələb edir. Çünki qoyulan sərmayələrin qaytarılması prosesi daha uzundur. Biz dinamikaya baxdıqda görürük ki, məsələn, ölkə son altı il ərzində qeyri-neft ixracını təxminən iki dəfə artırmağa nail olub. Bu il də həmin artım dinamikası davam edir. Cari ilin dörd ayı ərzində qeyri-neft ixracının həcmi 17 faizdən çox artıb. Bu, kifayət qədər yüksək sürətdir. Burada biz hər zaman, həmçinin qeyri-neft ixracının keyfiyyətinə, yəni onun hansı məhsullardan ibarət olması məsələsinə fokuslanırıq".

Nazirin söylədiyi digər fikirlərə əsaslanaraq deyə bilərik ki, neftdənkənar sahənin inkişafının növbəti mərhələsində diqqət yalnız ənənəvi sahələrin genişləndirilməsinə deyil, həm də yüksək texnologiyalar və innovasiya əsaslı iqtisadiyyatın formalaşdırılmasına yönəldilməlidir. Dünya təcrübəsi göstərir ki, uzunmüddətli iqtisadi dayanıqlılıq bilik və texnologiya tutumlu sahələrin inkişafından asılıdır. Bu baxımdan informasiya texnologiyaları, süni intellekt, rəqəmsal xidmətlər, kibertəhlükəsizlik, data mərkəzləri və startap ekosisteminin gücləndirilməsi mühüm əhəmiyyət kəsb edir. Azərbaycan regional rəqəmsal mərkəzə çevrilmək üçün əlverişli coğrafi mövqeyə və enerji resurslarına malikdir.

Eyni zamanda "yaşıl iqtisadiyyat" və bərpaolunan enerji sahələri gələcək inkişafın əsas istiqamətlərindən biridir. Günəş və külək enerjisi layihələrinin genişləndirilməsi həm enerji təhlükəsizliyini möhkəmləndirə, həm də yeni investisiya və ixrac imkanları yarada bilər. "Yaşıl enerji" potensialından səmərəli istifadə və iqtisadiyyatın dayanıqlı inkişaf modelinə keçidi ilə bağlı dövlətin baxışı iqtisadiyyat naziri Mikayıl Cabbarovun məlum müsahibəsində aydın şəkildə ifadə olunub: "Bir element də burada "yaşıl enerji" ilə birbaşa bağlıdır. Bilirsiniz ki, ölkəmizdə enerji keçidi kifayət qədər uğurla baş verir. Belə ki, xarici investorların sərmayələri hesabına artıq inşa edilmiş və fəaliyyətdə olan iki böyük enerji stansiyası mövcuddur. Bunlar "Masdar" şirkəti tərəfindən tikilmiş 230 meqavatlıq günəş və "ACWA Power" tərəfindən tikilmiş 240 meqavat gücündə olan külək-elektrik stansiyalarıdır. İşğaldan azad olunmuş ərazilərdə hazırda BP, SOCAR və digər sərmayədarların iştirakı ilə "Şəfəq" layihəsi də həyata keçirilir. Bu layihələr ölkədaxili enerji təchizatına töhfə verməklə yanaşı, indiyə qədər elektrik enerjisi istehsalı üçün istifadə olunan təbii qazın emal həcmini azaldır və beləliklə, ölkənin ixrac imkanlarını genişləndirir. Onu da qeyd etmək istəyirəm ki, biz gələcəkdə Azərbaycanı yalnız enerji istehsalçısı kimi deyil, həm də bir enerji habı, yəni enerji qovşağı kimi görürük. Burada söhbət yalnız "yaşıl enerji"dən getmir, neft və qaz infrastrukturu da daxil olmaqla, ənənəvi enerji növləri üzrə də bu gün artıq real layihələr həyata keçirilir".

Göründüyü kimi, Azərbaycanın iqtisadi inkişaf gündəmində neftdənkənar sahənin gücləndirilməsi əsas prioritetlərdən biri olaraq qalır. Və əldə olunan göstəricilər iqtisadiyyatın şaxələndirilməsi istiqamətində mühüm irəliləyişlərin baş verdiyini təsdiqləyir.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı 6,5 faiz artıb

**Cari il mayın 1-i vəziyyətinə ölkədə muzdla çalışan işçilərin sayı 1 milyon 792,3 min nəfər olmuşdur. Onlardan 862,8 min nəfəri dövlət, 929,5 min nəfəri isə qeyri-dövlət sektorlarında fəaliyyət göstərib.**

Muzdla çalışan işçilərin 18,6 faizi ticarət; nəqliyyat vasitələrinin təmiri, 18,1 faizi təhsil, 13,8 faizi sənaye, 8,7 faizi əhaliyə səhiyyə və sosial xidmətlərin göstərilməsi, 6,6 faizi tikinti, 6,1 faizi dövlət idarəetməsi və müdafiə; sosial təminat, 4,4 faizi nəqliyyat və anbar təsərrüfatı, 4,0 faizi peşə, elmi və texniki fəaliyyət, 2,4 faizi maliyyə və sığorta fəaliyyəti, 2,3 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq, 15,0 faizi isə iqtisadiyyatın digər sahələrində məşğul olublar.

Yanvar-aprel aylarında ölkədə muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,5 faiz artaraq 1172,1 manat təşkil edib.

## 5 ayda DSMF-nin xərcləri 3,4 milyard manatı üstələyib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) gəlirləri bu ilin yanvar-may aylarında proqnozla müqayisədə 9 faiz və ya 307 milyon manat çox olmaqla 3 milyard 676 milyon manat təşkil edib.**

Fondun gəlirləri tərkibində məcburi dövlət sosial sığorta daxilolmaları proqnoza nisbətən 6 faiz və ya 167 milyon manat artaraq 2 milyard 815 milyon manat olub.

Bu ilin 5 ayında DSMF-nin xərcləri isə 3 milyard 440 milyon manat təşkil edib ki, bu da ötən ilin müvafiq dövrünə nisbətən 10 faiz və ya 316 milyon manat çoxdur.

## 5 ayda bahalaşma 6 faizdən az olmuşdur

**Dövlət Statistika Komitəsinin məlumatına görə, 5 ayda istehlak qiymətləri 5,6, o cümlədən qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə 6,7, qeyri-qida məhsulları üzrə 3,7, əhaliyə göstərilmiş ödənişli xidmətlər üzrə 5,7 faiz artıb.**

2025-ci ilin may ayı ilə müqayisədə illik qiymət artımı 5,6, son bir ayda isə 0,1 faiz təşkil edib. Cari ilin may ayında qida məhsulları, alkoqollu içkilər və tütün məmulatları üzrə istehlak qiymətləri əvvəlki aya nisbətən 0,1 faiz ucuzlaşmış, əvvəlki ilin müvafiq ayına nisbətən isə 6,6 faiz bahalaşmışdır.

Ötən ay aprelə nisbətən ayrı-ayrı qida məhsullarından qarabaşaq yarması, mal və qoyun əti, kolbasa məmulatları, pendir, kəsmik, süfrə marqarini, günəbaxan və qarğıdalı yağı, limon, alma, kivi və digər məhusllar bahalaşmış, təzə balıq, yumurta, banan, çiyələk, xiyar, pomidor və s. ucuzlaşmışdır.

Qeyri-qida məhsulları üzrə istehlak qiymətləri isə əvvəlki aya nisbətən 0,1, əvvəlki ilin müvafiq ayına nisbətən 3,9 faiz artmışdır.

Cari ilin may ayında əhaliyə göstərilmiş ödənişli xidmətlərə gəldikdə, burada qiymət artımı əvvəlki aya nisbətən 0,2, əvvəlki ilin müvafiq ayına nisbətən isə 5,7 faiz olmuşdur. May ayında əvvəlki ayla müqayisədə hava nəqliyyatı ilə beynəlxalq sərnişindaşıma xidmətlərinin qiymətləri bahalaşmışdır. Digər ödənişli xidmətlərin qiymətlərində ciddi dəyişikliklər baş verməmişdir.

## TANAP-ın istifadəyə verilməsindən 8 il ötür

### Azərbaycanla Türkiyənin birgə layihəsi bütün Avrasiya məkanına fayda gətirir

**"Cənub qaz dəhlizi" artıq doqquzuncu ildir fəaliyyət göstərir. Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən bu möhtəşəm layihə bir neçə seqmentdən ibarətdir və onlar mərhələli şəkildə istifadəyə verilib. Bu gün dəhlizin bel sütunu adlandırılan TANAP-ın (Trans-Anadolu Qaz Boru Kəməri) işə düşməsindən 8 il keçir.**

"Cənub qaz dəhlizi" qlobal layihədir. Burada söhbət yeni mənbədən və yeni marşrutla Avropaya qaz ixrac edən dəhlizdən gedir. Bu dəhlizin seqmentləri "Şahdəniz" yatağının ikinci mərhələsinin işlənməsini, CQBK-nın (Cənubi Qafqaz Boru Kəməri) genişləndirilməsini, TANAP-ın və TAP-ın (Trans-Adriatik Qaz Boru Kəməri) çəkilişini əhatə edirdi. İlk iki seqmentin - "Şahdəniz-2"dən qazın əldə olunmasının və CQBK-nın genişləndirilməsinin başa çatdırılması layihənin 2018-ci il mayın 29-da rəsmi açılışını etməyə imkan verdi.

Növbəti hissə TANAP-dır ki, onun da istifadəyə verilməsi 2018-ci il iyunun 12-də baş tutdu. TANAP Azərbaycandan İtaliya torpağınadək uzanan 3500 kilometrlik "Cənub qaz dəhlizi"nin ikinci və ən böyük hissəsidir. Onu bu möhtəşəm enerji dəhlizinin birləşdirici halqası, onurğa sütunu da adlandırırlar.

TANAP-ın təməli 2015-ci il martın 17-də Türkiyənin Qars vilayətinin Selim rayonunda qoyulmuşdur. Bu münasibətlə keçirilən mərasimdə Azərbaycanın, Türkiyənin və Gürcüstanın prezidentləri iştirak etmişlər.

Kəmərin təməlinin qoyulması uzunmüddətli danışıqlardan konkret işlərə keçmək demək idi. Axı TANAP-ın salnaməsi hələ bu hadisədən xeyli əvvəl başlanmışdı. 2012-ci ilin iyun ayında Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyənin o vaxt Baş naziri, indi Prezidenti olan Rəcəb Tayyib Ərdoğan İstanbulda TANAP üzrə hökumətlərarası saziş imzalamışdılar.

Həmin vaxtdan da layihənin həyata keçirilməsi istiqamətində genişmiqyaslı işlərə start verilmişdi. 2014-cü ilin ortalarınadək layihələndirmə işləri, araşdırmalar tamamlanmışdı. Sonra mühəndis-layihələndirmə, təchizat-tədarük, tikinti-idarəçilik müqavilələri imzalanmış və kəmərin tikintisinin bütün detalları nəzərdən keçirilmişdi. 2014-2015-ci illər TANAP üçün çox məsuliyyətli bir fəaliyyət dövrü olmuşdu.

TANAP Türkiyənin ərazisində 1850 kilometrlik məsafə qət edir, ölkənin 20 vilayətindən, 67 rayonundan və 600 kəndindən keçərək Avropanın qapısına çatır.

Bu kəmər Gürcüstan-Türkiyə sərhədində genişləndirilmiş CQBK ilə birləşir, Türkiyə-Yunanıstan sərhədində isə TAP-a qovuşur. Kəmərin Gürcüstan-Türkiyə sərhədində başlayıb Əskişəhərdə bitən hissəsinin uzunluğu 1350 kilometr, oradan Türkiyə-Yunanıstan sərhədinədək olan hissəsi isə 480 kilometr təşkil edir.

Enerjinin İpək yolu sayılan TANAP Türkiyənin Əskişəhər şəhərində istifadəyə verilib. Qardaş ölkəyə ilk qaz həcmlərinin nəqli planlaşdırıldığı kimi həmin il iyunun 30-da başlanıb. TANAP-ın Avropa ilə birləşən hissəsinin açılış mərasimi isə 2019-cu il noyabrın 30-da isə Türkiyənin Ədirnə vilayətinin İpsala qəsəbəsində keçirilib. Həmin tədbirdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan bu kəmərin əhəmiyyətini belə vurğulayıb: "TANAP Azərbaycan, Gürcüstan, Türkiyə marşrutundan Avropaya - TAP xəttinə birləşir və təbii ki, oradan davam edərək Bolqarıstan, Yunanıstan, Makedoniya, Albaniya, Serbiya, Bosniya və Herseqovina marşrutu üzərindəki ölkələr də ondan faydalanır. Təbii ki, bütün bu addımları atarkən bunun bir regional layihə, bir sülh layihəsi olduğunu da xüsusilə vurğulamaq lazımdır. Gürcüstan ərazisindən Anadoluya giriş reallaşarkən Gürcüstanın buradakı səylərini əsla inkar etmək olmaz. Bu bir həmrəylikdir və bu həmrəyliyin adı da sülhdür. Bu layihə hər şeydən əvvəl ölkələrimiz arasındakı köklü dostluğun rəmzidir. TANAP bu mərhələyə Türkiyə və Azərbaycanın qarşılıqlı inama söykənən əlaqələri sayəsində gələ bilmişdir. Layihənin uğur qazanmasında istehsalçı, tranzit və istehlakçı ölkələrlə bu layihədə pay sahibi olan şirkətlər arasındakı uzlaşma da həlledici rol oynayıb".

TANAP Azərbaycanla Türkiyənin birgə layihəsidir. Lakin bu xətt təkcə iki ölkə və region üçün deyil, həm də bütün Avrasiya məkanı üçün önəm daşıyan layihədir.

Bu gün Azərbaycan 16 ölkəyə qaz ixrac edir və bu, son hədd deyil. Uzun ixrac yolları isə Türkiyədən - TANAP-dan keçir.

Deyilənlərə onu da əlavə etmək istədik ki, 2026-cı ilin yanvar-mart ayları ərzində Azərbaycan xarici ölkələrə 6,5 milyard kubmetr təbii qaz ixrac edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə təxminən 8,3 faiz artım deməkdir. İxracın istiqamətləri isə belədir: Avropa - 3 milyard kubmetr, Türkiyə - 2,4 milyard kubmetr (bunun 1,5 milyard kubmetri TANAP vasitəsilə), Gürcüstan - 0,8 milyard kubmetr, Suriya - 0,3 milyard kubmetr. Bu dövrdə ölkədə ümumi qaz hasilatı 12,6 milyard kubmetr təşkil edib. 2026-cı ilin yanvar-aprel aylarında Azərbaycanın xaricə təbii qaz ixracı 8,416 milyard kubmetr olub.




Yeni karbohidrogen yataqları işə düşdükcə və "yaşıl enerji" layihələri mavi yanacağa qənaət etməyə imkan verdikcə ixrac daha da artacaq. Prezident İlham Əliyev ötən illərdəki çıxışlarının birində bu barədə demişdir: "Azərbaycan və Avropa Komissiyası energetika sahəsində strateji tərəfdaşlıqla bağlı memoranduma imza atdıqdan sonra Avropaya qaz təchizatımız təxminən 60 faiz artdı. Bu memorandum Avropa Komissiyasının Prezidenti və mənim tərəfimdən 2022-ci ilin ortasında imzalandı. Avropaya qaz təchizatımız 2021-ci ildə təxminən 8 milyard kubmetr idi. Ötən il demək olar ki, 13 milyard kubmetr oldu. Yəni bu, bizim ümumi ixracatımızın təxminən yarısından çoxdur. Bu, 25 milyard kubmetrdir və bundan sonra da artacaq. Bu gün həmin həcm artıq kifayət qədər çoxdur. Yeni yataqları əlavə etmək və mövcud qaz yataqlarında hasilatı artırmaq planlarımızı nəzərə alaraq, biz birmənalı olaraq istehlakçılarımıza daha çox qaz verəcəyik. Bir sözlə, təsəvvür edə bilərik ki, əgər bizə daha çox təbii qaza qənaət etmək imkanı verən "yaşıl enerji" gündəliyini əlavə etsək, Azərbaycan enerji təhlükəsizliyi baxımından tərəfdaşları üçün daha mühüm rol oynayacaq".

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## I Türkoloji Qurultay - 100

# Əli bəy Hüseynzadənin Vətənə son gəlişi və tarixi missiyası

**1926-cı ildə Şərq dünyasının mədəniyyət paytaxtı Bakı tarixinin ən böyük və həlledici günlərindən birini yaşayırdı. "İsmailiyyə" sarayının möhtəşəm salonunda toplaşan yüzlərlə alim, mütəfəkkir və dövlət xadimi sadəcə dil və əlifba islahatını deyil, bütöv bir coğrafiyanın - türk dünyasının gələcək elmi və mədəni intibahını müzakirə edirdi.**



Bu tarixi hadisənin - I Türkoloji Qurultayın mərkəzində isə İstanbuldan doğma vətəninə fəxri qonaq kimi dönən, ömrünü millətin oyanışına həsr edən görkəmli bir sima dayanırdı: Əli bəy Hüseynzadə. O, bu möhtəşəm tədbirdə tarixi şəxsiyyət və fikir adamı kimi iştirak edirdi və xaricdən dəvət olunan elm, mədəniyyət xadimi kimi yüksək ehtiramla qarşılanırdı.

İllər öncə Azərbaycan mətbuatının dəyərli orqanı olan "Füyuzat" jurnalı vasitəsilə "Türkləşmək, islamlaşmaq, müasirləşmək" formulunu xalqın şüuruna həkk edən böyük mütəfəkkirin bu qurultayda iştirakı sovet rejiminin ideoloji sədlərinə baxmayaraq, əslində, milli məfkurənin və ortaq türk ruhunun böyük qələbəsi idi. Əli bəy Hüseynzadə qurultaya Türkiyə nümayəndə heyətinin tərkibində qatılsa da, Bakıya addım atdığı andan bütün iştirakçıların və elmi elitanın diqqət mərkəzində oldu. O, Vilhelm Tomsen və Nikolay Marr, Villi Banq və Anatoli Lunaçarski kimi dünyaşöhrətli alimlərlə birgə qurultayın Fəxri Rəyasət Heyətinə üzv seçildi.

Qurultay günlərində Əli bəy Hüseynzadənin böyük türkoloq Fuad Köprülü və Azərbaycanın fədakar biblioqrafı Salman Mümtaz ilə çəkdirdiyi fotoşəkil sadəcə bir xatirə deyildi, parçalanmış türk dünyasının Bakıdakı elmi birliyinin gerçək rəmzi idi. Əli bəy "Qərbin iki dastanında türk" mövzusunda etdiyi dərin fəlsəfi çıxışlar ilə Avropa elminə bələd olan şərqli bir ziyalının intellektual gücünü ortaya qoydu.

Əli bəy Hüseynzadənin latın əlifbasına keçidlə bağlı mövqeyi və irəli sürdüyü arqumentlər, o dövrün sovet ideoloqlarının dar çərçivəli siyasi maraqlarından tamamilə fərqlənirdi. SSRİ rəhbərliyi latın qrafikasını Şərq xalqlarını islam dünyasından qoparmaq üçün bir alət kimi görürdüsə, Hüseynzadə bu islahata bütün türk xalqlarının gələcək inteqrasiyası və mədəni birliyi prizmasından yanaşırdı. Hüseynzadə israr edirdi ki, yeni əlifba sadəcə lokal bir xətt islahatı olmamalıdır. Bu əlifba xəritədəki siyasi sərhədləri aşmalı, İstanbuldan Yakutiyaya qədər bütöv bir coğrafiyanı vahid elmi mühitdə birləşdirən "ortaq körpü" funksiyasını daşımalıdır. O, yalnız qrafikanın dəyişdirilməsinin kifayət etmədiyini bildirirdi. Əgər hər bir türk xalqı latın hərflərini öz yerli ləhcəsinə uyğun fərqli fonetik qaydalarla mənimsəsəydi, bu, gələcəkdə bir-birini başa düşməyən onlarla fərqli yazı dilinin yaranmasına gətirib çıxaracaqdı. Bu səbəbdən o, vahid fonetik standartların və ortaq imla qaydalarının müəyyənləşdirilməsini tələb edirdi. Əli bəy Hüseynzadənin qurultayla bağlı xüsusi əhəmiyyəti həm də ondadır ki, o, tədbir zamanı gündəlik qeydlər aparmışdır. Bu qeydlər sonralar türkoloji elm üçün qiymətli mənbə hesab edilmiş və qurultayın gedişini daha dolğun şəkildə öyrənməyə imkan vermişdir.

### "Dildə birlik" və ortaq ədəbi dil

Əli bəy Hüseynzadənin I Türkoloji Qurultaya və ümumən XX əsrin əvvəllərində dil islahatlarına münasibəti "türk dillərinin ortaq mədəni köklərə qayıtması" və "milli modernləşmə" prinsiplərinə əsaslanırdı. O, dil məsələsini sadəcə qrammatika deyil, türk millətinin varlıq və birlik mübarizəsi kimi görürdü, ərəb qrafikasının çətinliyini qəbul edir, latın əlifbasına keçidi mədəni inkişaf üçün zəruri sayırdı. Əli bəy I Türkoloji Qurultayda qəbul edilən latın qrafikalı yeni türk əlifbasının bütün türk xalqları üçün ortaq olmasını müdafiə edirdi. Latın qrafikasına keçidi türk dünyasının elmi və texnoloji baxımdan Qərb sivilizasiyasına inteqrasiyasının ən qısa yolu kimi qiymətləndirirdi.

O, fars-ərəb tərkiblərindən imtinanı qarşıya qoyurdu. Köhnə Osmanlı dilindəki ağır, xalqın başa düşmədiyi ərəb və fars dillərinin qrammatik qaydalarının dildən çıxarılmasını müdafiə edirdi. Avropa terminologiyasına gəldikdə isə, elm, texnika və fəlsəfə sahələrində yeni anlayışları ifadə etmək üçün beynəlxalq terminlərin birbaşa qəbul edilməsini, yaxud türk dilinin öz daxili imkanları ilə yeni sözlərin (neologizmlərin) yaradılmasını təklif edirdi.

Əli bəy Hüseynzadənin dil baxışlarının ilkin forması ən aydın şəkildə 1906-1907-ci illərdə nəşr olunan "Füyuzat" jurnalı dövründə görünür. Bu mərhələdə onun əsas məqsədi təkcə Azərbaycan türkcəsini inkişaf etdirmək deyil, bütün türk xalqları üçün ortaq bir ədəbi dil yaratmaq idi.

Onun dil konsepsiyasının əsası türk dil birliyi ideyasıdır. Bir faktı da qeyd edək ki, o zaman füyuzatçılar ortaq dilin əsasını Osmanlı türkcəsində görürdülər. Jurnalın dili Azərbaycan xalq danışıq dilindən daha çox Osmanlı ədəbi dilinə yaxın idi: ərəb və fars mənşəli sözlər də geniş şəkildə işlədilirdi.

Həmin dövrdə "Molla Nəsrəddin" jurnalı isə xalqın başa düşdüyü sadə Azərbaycan türkcəsini müdafiə edirdi. Əli bəy Hüseynzadə daha yüksək üslublu, ümumtürk xarakterli ədəbi dili üstün tuturdu. Bu, "Molla Nəsrəddin"çilərlə "Füyuzat"çılar arasında dil mübahisələrinin yaranmasına səbəb olmuşdu. Maraqlıdır ki, sonrakı illərdə türk dünyasında və Azərbaycanda dil siyasətinin inkişafı göstərdi ki, tam osmanlılaşmış ortaq dil modeli praktik baxımdan çətin idi. Buna görə də Azərbaycan ədəbi dili öz milli bazası üzərində inkişaf etdi. Lakin Ə.Hüseynzadənin irəli sürdüyü türk dil birliyi, əlifba birliyi və mədəni inteqrasiya ideyaları sonrakı türkoloji düşüncəyə ciddi təsir göstərdi.

Əli bəy Hüseynzadə qurultay platformasında dil islahatının siyasi alətə çevrilməməsini, sırf elmi prinsiplərlə aparılmasını tələb edirdi. O, Türkiyə nümayəndə heyəti ilə birlikdə dilin struktur bütövlüyünün qorunması şərti ilə islahatların tərəfdarı idi.

Ankara nümayəndə heyətinin üzvü kimi Hüseynzadə Türkiyədə də bu istiqamətdə hazırlıqların getdiyini diqqətə çatdırırdı. O, Bakıda qəbul ediləcək qrafika strukturunun gələcəkdə Türkiyə türkcəsinin keçəcəyi ehtimal olunan latın modeli ilə mütləq uzlaşmalı olduğunu vurğulayırdı. Mütəfəkkir həm də ərəb qrafikasından imtinanın milli kitabxana fondlarını və çoxəsrlik klassik Şərq ədəbiyyatı irsini məhv etmək riskinə qarşı da xəbərdarlıqlar edirdi. Latın qrafikasına keçidi dəstəkləsə də, bunun keçmişi tamamilə silən bir "mədəni nihilizm"ə çevrilməməsini şərt kimi qarşıya qoyurdu.

Əli bəy Hüseynzadənin qurultaydakı ortaq əlifba mübarizəsi fərdi bir cəhd deyildi. Türkiyə nümayəndə heyətinin digər görkəmli rəhbəri, dahi alim və ədib Mehmet Fuad Köprülü başda olmaqla milli təfəkkürlü digər türkoloqlar da eyni elmi və ideoloji cəbhədə vuruşurdular. Sovet rəhbərliyinin "böl və idarə et" siyasətinə qarşı bu iki nəhəng sima Bakıda vahid cəbhə formalaşdırmağı bacarmışdı. Fuad Köprülü xəbərdarlıq edirdi ki, tələsik və plansız şəkildə həyata keçirilən əlifba islahatı türk xalqlarını əsrlər boyu formalaşmış elmi, ədəbi və dini qaynaqlardan məhrum edə bilər. Köprülü qurultay kürsüsündən bəyan edirdi ki, əgər latın qrafikasına keçilirsə, bu, türk dillərinin fonetik quruluşunu zədələməməlidir. O, Bakıda qəbul olunacaq hər bir hərfin və işarənin gələcəkdə Türkiyənin də qəbul edə biləcəyi ortaq standarta uyğunlaşdırılmasını zəruri sayırdı. Hüseynzadə ilə birlikdə onlar sovet türkoloqlarının hər ləhcəyə ayrı bir latın hərfi vermək (parçalamaq) planına qarşı ciddi elmi müqavimət göstərirdilər.

### Əli bəy Hüseynzadə ilə sovet dilçiləri arasında elmi fikir ayrılıqları

I Türkoloji Qurultayda Əli bəy Hüseynzadə ilə sovet dilçiləri arasında açıq qarşıdurma olmasa da, bir sıra məsələlərdə nəzəri fikir ayrılıqları mövcud idi. Türk birliyi və milli dillər məsələsində Ə.Hüseynzadə türk xalqlarının ortaq tarixi-mədəni köklərini və onların yaxınlaşmasını vurğulayırdı. O, türk dillərini vahid bir mədəni məkanın tərkib hissəsi kimi görürdü. Sovet türkoloqlarının əksəriyyəti isə türk dillərinin qohumluğunu qəbul etsələr də, hər bir xalqın ayrıca milli dili və milli ədəbi dilinin formalaşdırılmasını ön plana çəkirdilər. Sovet milli siyasəti də bu istiqaməti dəstəkləyirdi. Buna görə də türkçülük ideyası ilə milli dillərin ayrıca inkişafı arasında müəyyən konseptual fərq yaranırdı.

Digər məsələ türkçülük ideologiyası və sovet yanaşması ilə bağlı idi. Əli bəy Hüseynzadəni hamı türkçülüyün əsas ideoloqlarından biri kimi tanıyırdı. Onun "Türkləşmək, islamlaşmaq, müasirləşmək" düsturu dil məsələlərinə də təsir göstərirdi. Sovet alimləri isə dilləri əsasən tarixi-materialist və sinfi yanaşma çərçivəsində tədqiq etməyə çalışırdılar. Onlar dil problemlərini milli romantizm və ya ümumtürk siyasi ideyaları ilə əlaqələndirməyə ehtiyatla yanaşırdılar. Bu səbəbdən Ə.Hüseynzadənin ideoloji mövqeyi ilə sovet türkoloqlarının rəsmi mövqeyi arasında fərq vardı. Amma latın qrafikasına keçid məsələsində Ə.Hüseynzadə ilə sovet türkoloqları arasında ciddi ziddiyyət yox idi. Hər iki tərəf ərəb əlifbasının türk dillərinin fonetik xüsusiyyətlərini tam əks etdirmədiyini qəbul edirdi.

Məqsədlərə gəldikdə, tədqiqatçılar yazırlar ki, Əli bəy Hüseynzadə əlifba birliyini türk xalqlarının mədəni yaxınlaşmasının vasitəsi kimi görürdü. Sovet alimləri isə bunu savadlanma, modernləşmə və sovet milli quruculuğu baxımından əsaslandırırdılar.

"Füyuzat" dövründən gələn ənənəyə uyğun olaraq Əli bəy Hüseynzadə türk xalqlarının ortaq ədəbi-mədəni irsinə böyük əhəmiyyət verirdi. Sovet dilçilərinin bir hissəsi isə xalq danışıq dilinə əsaslanan milli ədəbi dillərin inkişafını daha vacib hesab edirdi. Bu yanaşma sonradan Azərbaycan ədəbi dilinin formalaşmasında da üstün mövqe qazandı.

### Sovet rejiminin "mənəvi və psixoloji" təqibi

Əli bəy Hüseynzadə və Fuad Köprülünün Bakıya gəlişi sovetin xüsusi xidmət orqanlarını (ÇK) ciddi təşvişə salmışdı. Qurultaydan cəmi bir neçə gün əvvəl hazırlanan məxfi xidmət hesabatlarında onların adı "təhlükəli milli ideoloqlar" kimi keçirdi. Araşdırmaçıların yazdıqlarına görə, sovetin gizli sənədlərində Əli bəy Hüseynzadə və Fuad Köprülünün Bakıdakı latın qrafikalı əlifba hərəkatını sovetlərin əleyhinə yönəldə biləcək "qatı millətçilər" olduğu vurğulanır, hətta onların nüfuzundan qorxaraq qurultayın tamamilə təxirə salınması təklif edilirdi. Həmin günlərdə sovet senzurası və gizli agentlərin təqibləri Əli bəy Hüseynzadənin ətrafını bürüsə də, onun Bakı tribunasından görünməsi türk dünyasının ortaq gələcək ideallarına vurulan ən böyük möhür idi.

Bu səfər Əli bəyin doğma vətəni Azərbaycana son gəlişi oldu. O, SSRİ-də daxili siyasi vəziyyətin və sovet rejiminin gələcək təhlükəliliyini çox yaxşı hiss edirdi. İstanbul qatarına minərkən Bakıda qalan yeganə qardaşı İsmayıl bəyə "Mən daha sizə məktub yazmayacağam. Bilirəm, bu, sizin üçün təhlükəlidir", - deyərək vidalaşmış və bir daha vətənə yaza bilməmişdir. Onun bu ehtiyat tədbirinə baxmayaraq, sonradan (1930-cu illərdə) sovet hökuməti Əli bəyin qardaşı İsmayıl bəyi, onun övladlarını və nəvələrini məhz "Əli bəy Hüseynzadənin qohumları" və "pantürkist şəbəkənin üzvləri" ittihamı ilə ağır sürgün və repressiyalara məruz qoymuşdu.

Əli bəyin qurultayda nümayiş etdirdiyi qətiyyətli elmi mövqeyi sonradan sovet repressiya aparatının qurultay iştirakçılarına, bütövlükdə 100-dən çox ziyalıya qarşı açdığı "pantürkizm" cinayət işlərində əsas bəhanələrdən birinə çevrilmişdi.

Beləliklə, 1926-cı ilin o qızğın günlərindən bu yana əsrdən çox vaxt keçib. I Türkoloji Qurultaydan az sonra onun Rəyasət Heyətində əyləşən bir çox fədakar elm xadimi sovet repressiya maşınının qurbanı oldu, onların müdafiə etdiyi ortaq latın əlifbası isə zorla kiril qrafikası ilə əvəzləndi.

Sovet ideoloqları türk dünyasının mədəni körpülərini uçurmağa çalışsalar da, Əli bəy Hüseynzadənin Bakı tribunasından səsini ucaltdığı o uzaqgörən milli məfkurəni tarixin yaddaşından silə bilmədilər. Bu gün Azərbaycanın və digər müstəqil türk dövlətlərinin yenidən latın qrafikalı əlifbaya qayıtması, ortaq dil və vahid terminologiya istiqamətində atılan qətiyyətli addımlar Əli bəy Hüseynzadənin o dövrdə irəli sürdüyü arqumentlərin nə dərəcədə düzgün yol, istiqamət olduğunu sübut edir. Zaman onun hər bir qorxusunda və hər bir tələbində nə qədər haqlı olduğunu göstərdi. Çünki Əli bəy Hüseynzadənin I Türkoloji Qurultaydakı iştirakı sadəcə elmi bir ezamiyyət deyildi, bütöv bir millətin intibah andı idi.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Şəfəqdə ucalan yurd sevgisi

**Ümidləri, arzuları nurlu simalarında şəfəq saçan şagirdlərin arasındayıq. Bura yerləşdiyi məkanın adını daşıyan Şəfəq qəsəbəsi tam orta məktəbidir.**





Şagirdlərin simasında kədərdən daha çox qürur, iftixar hissi təcəssüm edir. Təhsil aldıqları orta məktəbdə keçirilən növbəti tədbir Vətən müharibəsində şəhid olmuş Rövşən Zahid oğlu Təhməzova həsr olunub. Qəhrəmanın 29-cu doğum gününü onsuz qeyd edirlər. Şəfəq qəsəbəsi tam orta məktəbin direktoru Almaz Hüseynova vurğulayır ki, bu təhsil ocağında tez-tez vətən torpaqlarımızın azadlığı uğrunda canından keçmiş qəhrəmanlarımıza həsr olunmuş tədbirlərin keçirilməsi onlara ehtiramımız, mənəvi borcumuzdur: "44 günlük Vətən müharibəsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qəhrəman Azərbaycan Ordusu Ermənistan silahlı qüvvələrini məğlub edərək Qarabağ və Şərqi Zəngəzuru 30 illik işğaldan azad etdi. Bu müqəddəs yolda Azərbaycanın yüzlərlə igid övladı şəhid oldu, sağlamlığını itirdi. Bu gün qalib xalq olmağın qüruru ilə yaşadığımız üçün vətəni canından, doğmalarından çox sevmiş, sinəsini düşmən güllələrinə sipər etmiş igidlərimizə minnətdarıq. Biz onların xatirəsini hər zaman əziz tuturuq".

Məktəb direktorunun sözlərini tədbir iştirakçılarının üzündəki ifadə də təsdiq edirdi. Sonra şagirdlər Vətən müharibəsində qəhrəmanlıq göstərmiş igidlərimizə həsr olunmuş, vətənə məhəbbət tərənnümlü şeirlər söylədilər.

Tədbirdən sonra məktəbin sinifdənxaric oxu üzrə təşkilatçısı Şəms Cabbarova ilə sinif otaqlarını dolaşırıq. Məktəbə qədəm qoyduğun andan hiss edirsən ki, bu bina yalnız şagirdlərə təhsil verən bir məkan deyil. Burada sanki divarlar da, şəkillər də danışır. Məktəbin foyesində şəhidlərin portretləri düzülüb. Hər səhər məktəbə qədəm qoyan neçə-neçə şagird atasının, qardaşının və Vətən torpaqlarının azadlığı, onların qürurla, xoşbəxt yaşaması naminə canından keçmiş digər qəhrəmanların baxışları ilə salamlaşırlar.

Yaşı az olsa da, bu təhsil ocağı şanlı bir tarixin şahididir. Məktəb Vətən müharibəsindəki böyük qələbəmizdən sonra - 2021-ci ildə açılıb. Bu bina da məktəb üçün tikilib.

Məktəbin özü kimi, yerləşdiyi yaşayış məntəqəsi də yenidir. Abşeron rayonunun inzibati ərazisində salınmış bu yaşayış massivi 2023-cü ilin oktyabrında rəsmən "Şəfəq" adlandırılıb. 2024-cü ilin aprelində Prezident İlham Əliyevin təsdiqlədiyi "Abşeron rayonunun inzibati ərazi bölgüsündə qismən dəyişiklik edilməsi haqqında" qanunla Şəfəq yaşayış məntəqəsinə qəsəbə statusu verilib.

Məktəbin direktoru Almaz Hüseynova məlumat verir ki, o vaxt bu məktəbdə 120 şagird təhsil alırmış. Hazırda Şəfəq qəsəbəsi tam orta məktəbində şagirdlərin sayı 928 nəfərə çatıb.

Qeyd edək ki, Şəfəq qəsəbəsi sakinlərinin çoxu gözdən əlillər, Birinci və İkinci Qarabağ müharibələri əlilləri və şəhid ailələrindən ibarətdir. Şəfəq qəsəbəsi tam orta məktəbində bu səbəbdən həssas təbəqənin uşaqları - şəhid və qazi, gözdən əlil olan ailələrin övladları təhsil alırlar. Məktəbdə 45-ə yaxın şəhid övladı oxuyur. O uşaqların heç vaxt gözləri gülmür. Xoş söz də desən, gözlərindən qəm, qüssə çəkilmir. Almaz Hüseynova deyir: "Onların hər birinə xüsusi həssaslıq və qayğı ilə yanaşılır. Onların qəlbini azacıq da oxşamaq üçün ad günlərində yaxınlaşıb kiçik də olsa, sürpriz hazırlayırıq. Sinif yoldaşları da o uşaqlara olduqca həssaslıqla, hörmətlə yanaşırlar, bir dəfə onları incidən olmayıb. Onlar məktəbin rəhbərliyindən, müəllim heyətindən həmin uşaqlara hansı münasibəti görürlərsə, o cür davranırlar".

Məktəbin direktoru qeyd edir ki, şəhid övladları atalarının və onların timsalında Vətən uğrunda döyüşmüş bütün igidlərimizin qəhrəman olduqlarını yaxşı anlayırlar. Odur ki, qürur, iftixar hissləri kədərlərindən böyükdür: "Onlar sanki atalarının adlarını yaşatmaq üçün böyüyürlər. Bu səbəbdən məktəbimizdə təşkil olunan tədbirlərdə can-dildən iştirak edirlər. Məktəbimizdə tez-tez müxtəlif tədbirlər, viktorinalar, ustad dərsləri keçirilir. Zəfər Günü xüsusi təntənə ilə qeyd olunur. Şagirdlərimiz şeirlər söyləyir, səhnəciklər göstərirlər. Şəhid övladları atalarının, qardaşlarının şəkilləri həkk olunmuş köynəklərlə çıxış edirlər. Şəhid övladları şeir deyərkən, mahnı oxuyarkən çox vaxt kövrəlirlər. Amma onlar, eyni zamanda böyük qürur hissi yaşayırlar. Yaşca kiçik olanlar yoldaşlarına atalarının şəklini fəxrlə göstərib "Bu mənim atamdır", - deyirlər".

Məktəbin direktoru diqqətə çatdırır ki, övladları və ya qardaşı bu məktəbdə təhsil alan şəhidlərimizin doğum və anım günlərinin qeyd olunması da məktəbimizdə ənənəyə çevrilib: "Həmin günlərdə şəhidlərimizin evlərini də ziyarət edirik. Məktəbimizdə təşkil etdiyimiz tədbirlərə qəsəbəmizdə yaşayan, hətta doğmaları bu məktəbdə təhsil almayan şəhidlərimizin belə ailə üzvlərini dəvət edirik. Böyük məmnuniyyətlə dəvətimiz qəbul olunur".

Şəfəq tam orta məktəbində ən diqqətçəkən məqamlardan biri də şəhidlərin adlarının yaşadılmasıdır. Şəhid övladının təhsil aldığı sinfə atasının adı verilib. Ancaq elə sinif var ki, orada bir deyil, iki, üç, hətta dörd şəhid övladı oxuyur. Almaz Hüseynova bildirir: "Belə olduğu halda o sinfə ən birinci gəlmiş uşağın şəhid atasının adını veririk. Digər siniflərimizə şəhidlərimizin adını verərkən onların başqa siniflərimizdə bacı-qardaşlarının oxuyub-oxumadığına diqqət yetiririk. Əgər şəhidimiz subay olubsa, övladı qalmayıbsa, onun adını bacısının, yaxud qardaşının oxuduğu sinfə veririk".

Sinif otaqlarına baş çəkdikcə düşünürük ki, uşaqlar hər gün yalnız məktəb dərsliklərindən, müəllimlərindən deyil, həm də divara vurulmuş bu şəkillərdən tariximizi öyrənirlər. Məktəbin foyesində və giriş hissəsində də şəhidlərin fotoları və xatirə guşələri yaradılıb.

Tənəffüs zamanı məktəbin bir neçə müəllimi ilə də həmsöhbət oluruq. Deyirlər ki, şəhid övladları ilə işləməyin xüsusi həssaslıq tələb etdiyini dərsin planlaşdırılmasından uşaqlarla sağollaşana qədər hər mərhələdə nəzərə alırıq. Almaz Hüseynova: "Torpaqlarımızın işğal və azad edildiyi tarixi günləri tədris etdiyimiz fəndən asılı olmayaraq, mütləq şagirdlərimizə xatırladırıq. Şagirdimizin atasının şəhid olduğu gün isə sinifdə ümumi məlumat veririk. Atasının şəhidliyini xüsusi vurğulamırıq. Qələbəyə olan töhfəsini, vətənimizdə rahat yaşamağımızda onun atasının da əməyi olduğunu qeyd edirik. Ailələri ilə də əlaqə saxlayırıq, onların evlərinə baş çəkirik".

Müəllim - cəmiyyətin gələcəyini formalaşdıran ən məsuliyyətli peşə sahiblərindən biridir. O, yalnız şagirdlərinə bilik öyrətmir, həm də onların dünyagörüşünün, xarakterinin və həyata baxışının formalaşmasında mühüm rol oynayır. Gənc nəslə milli-mənəvi dəyərləri, vətənə sevgi və vətənpərvərlik hisslərinin aşılanmasında, onların layiqli vətəndaş kimi yetişməsində müəllimlərin rolu böyükdür. Müəllimin verdiyi düzgün istiqamət uşağın gələcək taleyinə təsir edə bilir. "Buna görə də müəllim peşəsi böyük məsuliyyət, vicdan və fədakarlıq tələb edir".

Məktəbin gənc müəllimlərindən soruşuruq: "Hazırkı dövrdə müəllim olmaq çətin deyil?" Cavab verirlər ki, ola bilər yeni başlayanda çətinlik çəkirdik, amma artıq yox. Məktəbin coğrafiya müəllimi Aytən Məhərrəmli artıq beşinci ildir müəllim işlədiyini söyləyir: "Və özümü tamamilə aid olduğum yerdə hiss edirəm", - deyir.

Şəms Cabbarova isə qeyd edir ki, 20 ildir ki, dərs deyirəm, uşaqlarla sevərək işləyirik: "Çalışdığımız təhsil ocağında qayda-qanuna, nizam-intizama əməl olunduğu üçün əlavə problemlərlə qarşılaşmırıq. Elə müəllimlərimiz var ki, hər gün Şəfəq qəsəbəsinə gəlmək üçün uzun yol qət edir və bundan qətiyyən şikayətlənmir".

Hər bir şagirdin uğuru, yalnız özünün, ailəsinin deyil, eyni zamanda təhsil aldığı məktəbin, ona dərs deyən müəllimlərin uğurudur. Almaz Hüseynova Şəfəq qəsəbəsi tam orta məktəbin məzunlarının qazandığı uğurlardan fərəhlə söz açır: "Məzunlarımız arasında Bakı Dövlət Universitetində, Azərbaycan Dövlət Tibb Universitetində, Polis Akademiyasında və başqa ali məktəblərdə təhsillərini davam etdirənlər, peşə, sənət öyrənib müxtəlif sahələrdə çalışanlar var. Onların dövlətə, xalqa faydalı vətəndaş kimi yetişmələri, öz həyatlarını düzgün qurmaları bizi sevindirir".

Məktəbin məzunlarından biri də Ağadadaş Xəlilovdur. Ağadadaş hazırda Milli Müdafiə Universitetinin nəzdində olan Bakı Hərbi Kollecində Aviasiya ixtisası üzrə I kursda təhsil alır. Ağadadaş kiçik yaşlarından hərbçi olmaq istəyib. Ancaq Bakı Hərbi Kollecində oxumağı o, yalnız özünün ən böyük arzusunu gerçəkləşdirmək üçün seçməyib. Həm də bununla Vətən müharibəsində şəhid olmuş atasının - hərbçi Nadir Ağadadaş oğlu Xəlilovun arzusunu reallaşdırıb. Ağadadaş deyir: "Atam mənim hərbçi olmağımı istəyirdi. Bu peşəyə yiyələnmək uşaq çağlarımdan mənim də ən böyük arzum oldu. Mən Vətənə xidmət etməklə həm atamın xatirəsini yaşatmaq, həm də onun mənə öyrətdiyi milli dəyərlərimizi qorumaq istəyirəm. Çünki şəhid övladı olmaq yalnız bir ad deyil, onu ömür boyu daşımaq böyük bir məsuliyyət və qürurdur".

Bu məktəbdən ayrılarkən bir daha anlayırsan ki, Vətən sevgisi yalnız dərsliklərdə öyrədilmir. O sevgi şəhid şəkillərinin qarşısında dayanıb susan uşağın baxışlarında, müəllimin qayğı dolu münasibətində, sinif otaqlarında yaşadılan xatirələrdə yaşayır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

# REGİONLAR

● Tovuz xəbərləri

## "Milli Qurtuluşun hüquqi təməlləri və qanunçuluq" mövzusunda konfrans keçirilib

**Tovuz rayonu Nizami adına Mədəniyyət Evində keçirilən konfransda iştirakçılar öncə Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən sərgi ilə tanış olmuşlar. Sonra Ümummilli Liderin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarını fəda etmiş şəhidlərimizin xatirələri birdəqiqəlik sükutla yad edilmişdir.**



Milli Məclis deputatlarının, Respublika Baş Prokurorluğunun məsul əməkdaşlarının, rayon icra hakimiyyəti rəhbərlərinin, hüquq-mühafizə orqanları nümayəndələrinin, Müdafiə Nazirliyinin, Ombudsman Aparatının və rayon ağsaqqallarının iştirakı ilə keçirilən konfransda Baş Prokurorluğun idarə rəisi Ceyhun Kazımov çıxış edərək Milli Qurtuluş Gününün Azərbaycan dövlətçiliyində sabitliyin təmin olunması, hüquqi dövlət quruculuğunun möhkəmləndirilməsi və qanunun aliliyinin bərqərar olunması baxımından tarixi əhəmiyyət daşıdığını qeyd etmiş, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hüquq sistemində aparılan islahatların bu gün də davamlı inkişafın əsasını təşkil etdiyini diqqətə çatdırmışdır. Milli Məclisin deputatı Nizami Səfərov çıxışında bu tarixi mərhələnin müasir Azərbaycan dövlətçiliyinin hüquqi-siyasi əsaslarının formalaşmasında həlledici rol oynadığını, konstitusion inkişafın və qanunvericilik sisteminin güclənməsinə şərait yaratdığını qeyd etmişdir.

Sonra Tovuz rayon prokuroru Maarif Hüseynov, Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, Müdafiə Nazirliyinin Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsinin rəisi Anar Eyvazov, Ombudsmanın Qərb Regional Mərkəzinin rəhbəri Səbuhi Abbasov, Yeni Azərbaycan Partiyası Tovuz rayon təşkilatının sədri Nihad Pənahov və Azərbaycanın Milli Qəhrəmanı Qasım Rzayevin qardaşı Valeh Rzayev çıxış edərək Milli Qurtuluşun hüquqi dövlət quruculuğu, milli həmrəylik və qanunçuluğun möhkəmləndirilməsində əvəzsiz rolundan danışmışlar.

Konfransda Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov çıxış edərək Milli Qurtuluşun hüquqi əsaslarının və qanunçuluğun təbliği baxımından mühüm əhəmiyyət daşıdığını vurğulamışdır. Qeyd etmişdir ki, 15 İyun-Milli Qurtuluş Günü Azərbaycanın dövlətçilik tarixində dönüş nöqtəsi olmaqla ölkəmizi xaos və parçalanma təhlükəsindən xilas etmişdir. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu dövlətçilik kursunun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdıran natiq ölkədə həyata keçirilən hüquqi islahatların regionların inkişafına mühüm töhfə verdiyini, Tovuz rayonunda qanunçuluğun təmin olunması istiqamətində prokurorluq orqanları ilə səmərəli əməkdaşlığın davam etdirildiyini bildirmişdir.

Sonda Heydər Əliyevin həyat və fəaliyyətinə, eləcə də onun müəyyən etdiyi quruculuq və şəhərsalma siyasətinə həsr olunmuş "Qurulan gələcək" sənədli filmi nümayiş etdirilmişdir.

## Rayon Prokurorluğunda "Açıq qapı" günü

**Tovuz Rayon Prokurorluğunun inzibati binasında media nümayəndələri, qeyri-hökumət təşkilatlarının təmsilçiləri və ictimai fəalların iştirakı ilə "Açıq qapı" günü keçirilmişdir.**



Əsas məqsədi prokurorluq orqanlarının fəaliyyəti barədə ictimaiyyətə daha geniş məlumat vermək, vətəndaş cəmiyyəti institutları ilə əməkdaşlığı inkişaf etdirmək, eləcə də hüquqi maarifləndirmə sahəsində görülən işləri iştirakçıların diqqətinə çatdırmaq olan tədbiri giriş sözü ilə Tovuz rayon prokuroru Maarif Hüseynov açaraq bildirmişdir ki, bu cür görüşlər dövlət qurumları ilə ictimaiyyət arasında qarşılıqlı etimadın möhkəmləndirilməsinə, açıq dialoqun təşviqinə və vətəndaşların hüquqi məlumatlılığının artırılmasına mühüm töhfələr verir. O, rayon prokurorluğunun fəaliyyət istiqamətləri, cinayətkarlığa qarşı mübarizə sahəsində görülən tədbirlər, vətəndaş müraciətlərinə baxılması qaydaları və qanunun aliliyinin təmin olunması istiqamətində həyata keçirilən işlər barədə ətraflı məlumat vermişdir.

Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov çıxışında prokurorluq orqanlarında həyata keçirilən müasir islahatlar, rəqəmsallaşma prosesləri və vətəndaş məmnunluğunun artırılmasına yönəlmiş təşəbbüslərdən danışmışdır. Qeyd olunmuşdur ki, "Elektron prokurorluq" informasiya sistemi və digər innovativ hallar vətəndaşlara göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsinə, müraciətlərin daha operativ və şəffaf şəkildə araşdırılmasına imkan yaradır.

Sonra iştirakçılar üçün rayon prokurorluğunun fəaliyyət sahələri barədə təqdimatlar keçirilmiş, onları maraqlandıran məsələlər ətrafında geniş müzakirələr aparılmış və ünvanlanan suallar cavablandırılmışdır.

Tədbir çərçivəsində qonaqlar həmçinin Tovuz Rayon Prokurorluğunun inzibati binası ilə tanış olmuş, əməkdaşların iş şəraiti və gündəlik fəaliyyəti barədə məlumat əldə etmişlər. Bundan başqa, tədbir çərçivəsində "Elektron prokurorluq" informasiya sisteminin funksional imkanları nümayiş etdirilmiş, müasir kriminalistik texnika və avadanlıqların istintaq prosesində tətbiqi barədə əyani təqdimat keçirilmişdir.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

## Astara: sitrusçuluq və düyüçülükdən tutmuş balıqçılıq və akvakulturayacan

**Prezident İlham Əliyevin sədrliyi ilə mayın 25-də keçirilən kənd təsərrüfatı məsələlərinə həsr edilmiş müşavirədən irəli gələn vəzifələrin, qarşıya qoyulan məsələlərin icrası ilə bağlı görüləcək işlər Astarada fermer və sahibkarların iştirakı ilə müzakirə olunub.**







Çıxış edən rayon icra hakimiyyətinin başçısı Qəzənfər Ağayev qeyd edib ki, ölkəmizin hər yerində olduğu kimi, Astara rayonunda da regionların sosial-iqtisadi inkişafı ilə əlaqədar nəzərdə tutulan tədbirlərin icrası istiqamətində işlər davam edir: "Məlumdur ki, 3 sentyabr 2017-ci il tarixdə Prezident İlham Əliyevin sədrliyi ilə Lənkəranda çay, çəltik və sitrus meyvələri istehsalının inkişafı məsələlərinə dair respublika müşavirəsi keçirilmişdir. Həmin müşavirədən sonra dövlət başçısının sərəncamları ilə çaycılığın, çəltikçiliyin və sitrus meyvəçiliyinin inkişafına dair dövlət proqramları təsdiq edilib. Bu il mayın 25-də isə Prezidentin sədrliyi ilə kənd təsərrüfatı məsələlərinə həsr olunmuş müşavirə keçirilib, "Azərbaycan Respublikasında kənd təsərrüfatı, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafına dair 2026-2030-cu illər üçün Dövlət Proqramı" təsdiqlənib. Dövlət proqramının icrası ilə aqrar sahədə məhsuldarlığın, əlavə dəyərin və ixrac potensialının yüksəldilməsi, müasir və intensiv istehsal texnologiyalarının tətbiqinin genişləndirilməsi, kənd yerlərində dayanıqlı məşğulluq və gəlir imkanlarının artırılması, ərzaq təhlükəsizliyinin və ekoloji dayanıqlılığın möhkəmləndirilməsi, eləcə də kənd təsərrüfatı, balıqçılıq və akvakultura sahələrinin innovativ, yüksək məhsuldarlığa əsaslanan və rəqabətqabiliyyətli inkişaf modelinə keçidinin təmin edilməsi nəzərdə tutulur".

RİH başçısı sözünə davam edərək bildirib ki, təsdiq edilmiş dövlət proqramları kənd təsərrüfatının müxtəlif sahələrinin dirçəldilməsi üçün böyük imkanlar yaratmaqla ölkədə qeyri-neft sektorunun inkişafına, əhalinin sosial rifahının yüksəldilməsinə xidmət edir: "Son illər Astarada sitrus və subtropik meyvələrin istehsalına diqqət artmış, fiziki şəxslər və pay torpaq mülkiyyətçiləri tərəfindən yeni bağlar salınaraq sahəsi ümumilikdə 4 min 666 hektara çatdırılıb ki, bu da əvvəlki illərlə müqayisədə 2 dəfə çoxdur. Sitrusçuluğun inkişaf etdiyi ölkələrin təcrübəsi öyrənilərək müasir üsullardan istifadəyə daha çox üstünlük verilir. Bu sahənin rayonda daha sürətli inkişafı üçün sitrus bağlarının yerli iqlim şəraitinə uyğun yeni texnologiya əsasında əkilməsi üçün mütəxəssislərin iştirakı ilə maarifləndirici tədbirlər keçirilir. 2018-ci ildən etibarən rayona xaricdən gətirilərək əkilən şaxtayadavamlı və məhsuldar tinglər müsbət bəhrəsini verir, başqa sözlə, intensiv üsulla əkilmiş bağlardan artıq yüksək nəticələr əldə edilir".

Tədbirdə diqqətə çatdırılıb ki, ötən il 78 min tonsitrus və subtropik meyvə istehsal edilib və nəticədə fermerlərin və fərdi təsərrüfatçıların ailə büdcələri əhəmiyyətli dərəcədə artıb. İstehsal olunan sitrus və subtropik meyvələri ölkə əhalisinin tələbatının çox hissəsini ödəsə də, əlavə olaraq ildə ölkəmizə 20 min ton portağal, 20 min ton limon və 8 min ton naringi idxal edilir. Bu səbəbdən sitrusçular intensiv bağ sahələrinin artırılması üzərində düşünməli, istehsalı 2 dəfə artıraraq 150 min tona çatdırılmasına nail olmalıdırlar.

Məruzədən o da məlum olub ki, Astarada ilk dəfə sutkalıq istehsal gücü 50-55 ton olan sitrus meyvələrinin çeşidlənməsi və qablaşdırılması məntəqəsi yaradılır. Bunun üçün artıq müasir avadanlıqlar alınıb, sitrus meyvələrin yığımına qədər quraşdırılması nəzərdə tutulur. Bu yerdə qeyd edək ki, Astarada sitrus və subtropik meyvələrinin saxlanması üçün soyuducu anbarlar kifayət qədər olmadığından sakinlər və fermerlər istehsal etdikləri məhsulları dəyərindən ucuz qiymətə satmaq məcburiyyətində qalırlar. Odur ki, yeni soyuducu anbarların tikintisi istehsalçıların öz məhsullarını daha keyfiyyətli saxlamasına və mənfəətlərinin artmasına şərait yaradardı.

Çayçılıq Astarada kənd təsərrüfatının ənənəvi sahələrindən biridir. Rayonun çay fabriklərində istehsal edilən ekoloji təmiz Astara çayı beynəlxalq sərgilərdə mükafatlara layiq görülmüşdür. O üzdən rayonda istehsal edilən çay məhsulunun xarici bazarlara ixracında problem yoxdur. Yeri gəlmişkən bildirək ki, ötən il rayon üzrə 232 hektar sahədən 725 ton yaşıl çay yarpağı yığılaraq fabriklərə təhvil verilib. Amma bu, kifayət etmir. Odur ki, qarşıya çay plantasiyalarının modern üsullar tətbiq edilməklə genişləndirilməsi vəzifəsi qoyulub. Bununla həm də yüzlərlə insanın məşğulluğunu təmin etmək mümkün olacaq.

Rayonda çəltikçiliyin də inkişafı üçün bir sıra tədbirlər həyata keçirilib, o cümlədən sutkada gücü 40 ton olan müasir Çəltik emalı zavodu istifadəyə verilib. Artıq Astara düyüsünün brend olaraq ölkə bazarlarında öz alıcısı var. Söz düşmüşkən xatırladaq ki, ötən il 307 hektar sahədən 1226 ton məhsul yığılıb, orta məhsuldarlıq 41 sentnerə çatıb. Bu il 181 hektar çəltik əkilib və hazırda çətik əkini davam edir.

Son illər rayonda balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin inkişafı üçün də müəyyən işlər görülüb. Regionda ilk dəfə illik istehsal gücü 30 ton olan "Astara FİSH" və istehsal gücü 15 ton olan "Belluqa Astara" MMC-ləri yaradılıb. Həmin müəssisələrdə nərə cinsli balıqlar yetişdirilir. Rayonun təbii iqlim şəraitinin əlverişli olması gələcəkdə bu sahənin daha da genişləndirilməsinə imkan yaradır.

Rayon sakinləri və fermerlər heyvandarlığın inkişafına da xüsusi maraq göstərirlər. Son illər onlar heyvanların cins tərkibini yaxşılaşdıraraq təsərrüfatlarını genişləndirirlər. 2025-ci ildə rayon üzrə 37 min baş qaramal, 21 min davar mövcud olub. 4 min 100 ton ət, 25 min 600 ton süd istehsal edilib. Rayonda yaradılmış müasir ət kəsimi məntəqəsi sanitar-gigiyenik normalara əməl edilməklə yanaşı, istehlakçıların təmiz və keyfiyyətli ət məhsulları ilə təmin edilməsinə şərait yaradır.

Müşavirədə çıxış edən fermer və sahibkarlar məşğul olduqları sahələr üzrə dövlət dəstəyindən yararlanmaqla qazandıqları nailiyyətlərdən, mövcud problemlərdən, qarşıdakı planlardan danışıb, həyata keçirmək istədikləri yeni layihələr barədə təkliflərini səsləndirib və prezidentin kənd təsərrüfatı ilə bağlı qarşıya qoyduğu hədəflərə çatmaq üçün bütün imkanlarını səfərbər edəcəklərini bildiriblər. RİH-in başçısı qaldırılan məsələlərin həlli istiqamətində aidiyyəti dövlət qurumları qaşısında məsələ qaldırılacağını qeyd edib. Vurğulayıb ki, dövlət proqramında qarşıya qoyulan hədəflərə nail olmaq üçün müasir texnologiyalar tətbiq etməklə Astara üçün xarakterik olan yeni intensiv bağların salınması, istifadəsiz qalan əkinəyararlı torpaq sahələrinin əkin dövriyyəsinə daxil edilməsi, suvarma suyundan səmərəli istifadə olunması, yeni su mənbələrinin yaradılması, balıqçılıq və akvakultura məhsullarının istehsalı və emalı sahələrinin genişləndirilməsi vacibdir. O, həmçinin kənd təsərrüfatının bütün sahələri üzrə peşəkar mütəxəssislərə böyük ehtiyac olduğunu xatırladıb.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

## Masallıda yaş barama tədarükünə başlanılıb

**Masallıda kümçülər tərəfindən yetişdirilən yaş baramanın tədarükünə başlanılıb. Cari mövsümün ilk məhsulları artıq qəbul məntəqələrində toplanaraq Şəki "İpək" MMC-yə təhvil verilib.**

İlkin mərhələdə rayonun 8 ərazisi üzrə ümumilikdə 171,1 kiloqram yaş barama tədarük edilərək müəssisəyə təqdim edilib. Mövsümün başlanması ilə əlaqədar tədarük prosesi davam edir.



Mövsüm ərzində yaş barama istehsalının və tədarük həcminin daha da artacağı gözlənilir.

***"Azərbaycan"***

## Neftçalada "Şəhərsalma və Memarlıq İli" çərçivəsində tədbirlər davam edir

**Rayon icra hakimiyyətinin təşəbbüsü ilə Qaraqaşlı kəndində ictimaiyyət nümayəndələrinin, icra hakimiyyətinin məsul şəxslərinin iştirakı ilə "Şəhərsalma və Memarlıq sahəsində Qanunvericiliyin tələbləri və bələdiyyələrin rolu" mövzusunda növbəti ictimai maarifləndirici tədbir keçirilib.**



Neftçala RİH başçısının müavini Burcalı Ağayev tədbiri giriş sözü ilə açaraq müasir şəhərsalma siyasətində dayanıqlı inkişafın Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinin maddələri ilə tənzimlənməsi barədə yığıncaq iştirakçılarına ətraflı məlumat verib. RİH başçısı aparatın şöbə müdirinin müavini Dilavər Əliyev isə çıxışında Şəhərsalma və Tikinti Məcəlləsinin 75-ci maddəsinə əsasən tikintiyə icazə verilməsinin ümumi qaydaları, 80-ci maddəsinə əsasən, məlumatlandırma icraatı barədə qanunvericiliyin tələblərini izah edərək tikinti norma və qaydalarına əməl edilməklə qanunsuz tikintilərin qarşısının alınması istiqamətində mütəmadi monitorinqlərin keçirilməsini diqqətə çatdırıb. RİH-in sektor müdiri Nəsib Abbasov qanunsuz tikililərdən danışıb. Bildirib ki, icazəsiz və normativləri pozan tikililər şəhərsalma qaydalarını pozur, memarlıq estetikası və ətraf mühitlə bir araya sığmır.

İctimai maarifləndirmə tədbirinin yekununda yığıncaq iştirakçılarının təklif və fikirləri dinlənilib, qarşılıqlı fikir mübadiləsi formatında müzakirələr aparılıb.

"Şəhərsalma və Memarlıq İli" çərçivəsində Neftçala şəhərində genişmiqyaslı ekoloji təmizlik aksiyası da keçirilib. Aksiya çərçivəsində şəhərin bir sıra küçələri bərk məişət tullantılarından, yabanı ot və tikandan təmizlənib. Aksiyada 115 nəfərdən çox təmizlik işçisi, bələdiyyə və digər təşkilatların nümayəndələri iştirak edib.

"Şəhərsalma və Memarlıq İli" çərçivəsində Neftçala şəhərinin, o cümlədən rayonun qəsəbə və kəndlərində ərazilərin təmizlənməsi, parklarda yaşıllıq işlərinin aparılması, yolkənarı ərazilərin abadlaşdırılması diqqət mərkəzində saxlanır və təmizlik aksiyalarının il ərzində mütəmadi keçirilməsi ilə bağlı şəhər və digər yaşayış məntəqələrinin bölgüsü təsdiqlənib.

***S.QUBADOĞLU,***
***"Azərbaycan"***

## Lənkərandakı Həzi Aslanov parkında yenidənqurma işləri aparılır

**Aparılan əsaslı təmir işləri çərçivəsində parkın ərazisi tamamilə yeni dizaynda təmir olunur, tametlər yeni və ən müasir standartlara cavab verən yeniləri ilə əvəzlənir, səkilər və bordürlər insanların zövqünü oxşayacaq və rahatlığını təmin edəcək səviyyədə yenilənir.**

Sonrakı mərhələdə parkın ərazisində insanların rahatlığını təmin etmək üçün yeni və daha rahat oturacaqlar qoyulacaq, parkın işıqlandırılmasında da ən yeni texnologiyalar tətbiq ediləcək. Əsaslı təmir işləri paralel olaraq Lənkəranın bir sıra ərazilərində, o cümlədən Əfqanıstan veteranları parkında, Həzi Aslanov parkında, Xocalı parkında və Əsgər Əliyev adına Dostluq parkında, Heydər Əliyev prospektində, Paşa Təhməzov, Həzi Aslanov, M.M.Axund, Qala, Xiyabanı və Şirəli Axundov küçələrində aparılır.

***"Azərbaycan"***





# Mədəniyyət





● Maarifçi qadınlarımız

# Çətinliklərdən ümidə doğru...

**Övladlar həmişə atalarının yolu ilə gedir, onların yarımçıq qalmış işlərini davam etdirir, işıqlı ideyalarını həyata keçirirlər. Azərbaycan milli mətbuatının banisi Həsən bəy Zərdabinin qızı Qəribsoltan Məlikova da atasının ölümündən sonra müəllim və maarif xadimi kimi onun yolunu davam etdirmişdir.**




Azərbaycanın görkəmli maarif xadimi, Azərbaycan SSR-in Əməkdar müəllimi, Qəribsoltan Məlikovanın 140 yaşı tamam olur. Bu fədakar maarif xadiminin keçdiyi faciələrlə dolu ömür yolunu vərəqlədik. Öyrənirik ki, Qəribsoltan Həsən bəy qızı Məlikova 11 iyun 1896-cı ildə Göyçay qəzasının Zərdab kəndində (indiki Zərdab şəhərində) dünyaya göz açmışdı. Əvvəlcə Tiflisdəki rus-qız gimnaziyasında oxumuş, sonra təhsilini anası Hənifə xanımın 1901-1905-ci illərdə direktoru olduğu nümunəvi qız məktəbində davam etdirmişdi. Qızını dünyalar qədər sevən, həmişə onun uğurlarına sevinən Hənifə xanım fəxr və qürurla deyirdi ki, Qəribsoltan 1914-cü ildə İmperator Üçüncü Aleksandr adına Birinci Bakı kişi gimnaziyasının Pedoqoji Şurasında bütün sınaqlardan keçmiş, xalq məktəblərinin müəllimi adına layiq görülmüşdür.

Bacarığı və çalışqanlığı ilə müəllim adını aldıqdan sonra Qəribsoltan xanımın həyatının ən gözəl günləri başlamışdı. O, 1915-ci ildən 1918-ci ilədək Bakıdakı Rus-Tatar (rus-Azərbaycan) qız məktəbində dərs demiş, 1918-1920-ci illərdə isə Rus-Tatar qız gimnaziyasında müəllim işləmişdir.

Həsən bəy Zərdabinin böyük əziyyətlər və zəhmətlər bahasına yaratdığı və nəşr etdirdiyi "Əkinçi" qəzetinin "zərərli ideyalar" yayıcısı kimi ittiham olunub yasaq edilməsi, atasının "burjua jurnalisti", "qəzet sahibkarı" adlandırılması ailə üzvlərinin gündəlik həyatlarının əvvəlki nizamını pozmuşdu. Qapılarını döyməkdə olan repressiya səbəbindən Qəribsoltan Məlikova sakit həyat sürmək, təhlükədən uzaq olmaq üçün Gəncəyə getmiş, bir müddət Şəmkirdə müəllim işləmişdir.

Günlərin birində Qəribsoltan xanım atası Həsən bəylə, anası Hənifə xanımla bağlı xatirələrini yazmağa başlayır. Onlarla birgə keçirdiyi illər ərzində gördüyü, şahidi olduğu maraqlı hadisləri tarixin yaddaşında qalması üçün qələmə alır. Bu addımı ilə övladlıq borcunu yerinə yetirdiyindən daxilən rahatlıq tapır. Qəribsoltan Məlikovanın yazdığı "Atam haqqında xatirələrim" tariximizi öyrənmək baxımından da çox dəyərlidir. Bu xatirələr sanki keçmişi özündə əks etdirən güzgüdür. Qəribsoltan xanım xatirələrinin birində yazırdı: "Atam qonaq qəbul etməyi çox sevirdi... Atam onda "Kaspi" qəzetinin redaksiyasında işləyirdi. Bir dəfə o, qulluqçusunu evə göndərərək anama xəbər verdi ki, redaksiyaya onun yanına Rusiyadan qonaqlar gəliblər və onları hörmətlə qarşılamaq lazımdır. Anam bu xəbəri bizə çatdırdı. Biz təzə paltarlarımızı geyindik. Axşam atam qonaqlarla birlikdə evə gəldi, anam onları eyvanda qarşıladı. Anamın rus dilində mükəmməl danışmağı onların çox xoşuna gəldi. Onlar gecə yarısına qədər oturdular... Atam yalnız səhər bizə dedi ki, qonaqlardan biri yazıçı Maksim Qorki, o biri isə məşhur müğənni Şalyapin idi".

Həyat heç də həmişə insanın üzünə gülmür, bəzən rahatlığını əlindən alır, ona acılar yaşadır. Qəribsoltan xanımın da həyatı çətinliklər içindən işığa, ümidə doğru yol keçmişdi. Başı elmə, təhsilə qarışdığından ailə həyatı qurmamışdı. 1929-cu ildə anası Hənifə xanımı itirmişdi. Bundan sonra qapısını çətinliklər döyməyə başlamışdı. Böyük qardaşı Midhəd bəy 1937-ci ildə repressiyanın qurbanı olmuşdu. O, Almaniyada oxumağa göndərilmiş cümhuriyyət tələbələrindən biri idi. Müxtəlif zamanlarda Bakıda, Gəncədə yaşamışdı. Sonra da ermənilərin donosu və üzə durması nəticəsində 1937-ci ildə güllələnmişdi.

Qəribsoltan xanım ömrünün sonuna qədər kiçik qardaşı Səffət bəylə əlaqə saxlaya bilməmişdi. Səffət bəy əvvəlcə Fransada, sonra Türkiyədə yaşamış, təhsilini başa vurduqdan sonra Bakıya dönməmişdi, həbs olunacağından ehtiyat etmişdi. Qəribsoltan xanım Parisdə yaşayan bacısı Pəri xanımın başına nələr gəldiyindən xəbərsiz olmuşdu. Pəri xanım Topçubaşova Fransada mühacirətdə vətən həsrəti ilə yaşamış və geri dönə bilməmiş, 1947-ci ildə orada vəfat etmişdi. Həyatının son illərində Pedaqoji İnstitutun Fizika kafedrasının müdiri vəzifəsində işləyən qardaşı oğlu Rəhim bəy isə 1936-cı il fevralın 23-də Bakıda dünyasını dəyişmişdi. Amansız həyat bütün acıları bu qadına göstərmişdi. Amma Qəribsoltan xanım üzləşdiyi acılarla mübarizə apara-apara çətinliklə də olsa, ömür yoluna davam etmişdi.

1937-ci ildə onun qapısını daha bir acı xəbər döydü. Məlum oldu ki, yeni çəkilən Bakı-Salyan şose yolu Şıx kəndindəki Bibiheybət məscidinin ətrafında yerləşən qəbiristanlıqdan keçəcək. Bildirilmişdi ki, kim istəsə, doğmalarının, yaxınlarının məzarını başqa yerə köçürə bilər. Bu acı xəbəri eşidən Qəribsoltan xanım rahatsız olur, atasının nəşini köçürmək üçün yollar axtarır. Amma nə qədər götür-qoy etsə də, üz tutmağa kimsəni tapmır. Çıxış yolunu cənazəni qəbirdən çıxarmaqda görür. Elə də edir. Pul verib iki nəfər fəhlə tutur. 1937-ci ilin payızında mərhumun cəsədinin qalıqları yeşiyə yığılır və Bayıla gətirilir. Buradan isə tramvayla Qəribsoltan xanımın evinə aparılıb ona təhvil verilir. Atası - Həsən bəy Zərdabinin sümükləri bir neçə il onun mənzilində qalır. Sonra çox çətinliklə də olsa, cənazənin qalıqlarını anası Hənifə xanımın yanında dəfn edə bilir.

Üzləşdiyi bütün çətinlik və iztirablara baxmayaraq, Qəribsoltan xanım müəllim kimi fəaliyyətini davam etdirmişdi. Xalqın övladlarının maariflənməsi üçün bir pedoqoq kimi üzərinə düşən vəzifələrin öhdəsindən bacarıqla gəlmişdi. Müəllimlik peşəsinə həmişə sadiq qalmış, məsuliyyətlə yanaşmışdı. Vətənpərvər müəllim Azərbaycanda Sovet hakimiyyəti qurulan ilk illərdə yeni yaradılan məktəblərin, savad kurslarının təşkilində yaxından iştirak etmiş və qabaqcıl pedaqoq kimi respublikada maarifin inkişafı, genişlənməsi naminə əlindən gələn hər şeyi etmişdir. Onun uzunmüddətli, qüsursuz pedaqoji fəaliyyəti zaman-zaman dövlətimiz tərəfindən layiqincə qiymətləndirilmişdir. Qəribsoltan Məlikova maarif sahəsində fəaliyyətinə görə 1948-ci ildə Azərbaycan SSR-in Əməkdar müəllimi fəxri adına layiq görülmüş, "Lenin" ordeni ilə təltif olunmuşdur. Qəribsoltan xanım 1956-cı ilədək müəllim işləmiş, peşəsinin sevimlisi olmuşdur. Elmi bilikləri gənclərə böyük sevgi ilə tədris etmişdir.

Bütün mənalı ömrünü xalqının maariflənməsinə, təhsilli olmasına sərf edən, məqsəd və amalına hamişə sadiq qalan, iztirablarla dolu həyat yaşayan Qəribsoltan Məlikova 1967-ci il mart ayının 9-da Bakıda dünyasını dəyişmişdir.

***Vahid MƏHƏRRƏMOV, "Azərbaycan"***

● Sənət dünyası

# Aktyor əbədiyyəti səhnədə qazanır

**Azərbaycan teatr və kino sənətinin görkəmli nümayəndələrindən biri olan Hamlet Xanızadə özünəməxsus yaradıcılığı ilə seçilərək tamaşaçıların rəğbətini qazanıb.**



Hamlet Xanızadə 1941-ci il iyunun 5-də Bakının Şağan qəsəbəsində dünyaya göz açıb. Körpəliyi İkinci Dünya müharibəsinin dəhşətli illərində keçib. O zaman müharibənin gətirdiyi məşəqqətlər - aclıq, qıtlıq onun da sevincinə, qayğısızlığına kölgə salıb.

1945-ci il mayın 9-da alman faşist ordusunun məğlub edilməsi keçmiş SSRİ-yə daxil olan digər respublikalar kimi, Azərbaycana dinclik gətirib. Ancaq müharibənin gətirdiyi çətinliklər uzun müddət davam edib. Hamlet Xanızadə belə bir dövrdə böyüyüb, orta məktəbə gedib. Uşaqlıqdan teatra, kinoya meyil salıb. Onun səhnəyə, ekrana artan marağı atası Bəbir kişinin xoşuna gəlməyib. Oğlunu aktyor görmək istəməyən Bəbir kişinin səyləri faydasız qalıb. O, balaca Hamletin aktyorluq sənətinə həvəsinin, səhnə və kino sevdasının qarşısına sədd çəkə bilməyib. Beləliklə, orta məktəbi bitirən Hamlet Xanızadə arzularını gerçəkləşdirib, aktyor olub.

O, 1950-ci illərin sonlarında Teatr İnstitutuna (indiki Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti) daxil olub. Ali məktəbdə oxuduğu illərində aktyorluq məharətini nümayiş etdirib. Tədris teatrında onun oynadığı rollar həm müəllimlərin, həm də tələbə yoldaşlarının diqqətini cəlb edib. Hamletin gələcəkdə məşhur aktyor olacağına heç kimin şübhəsi qalmayıb.

1961-ci ildə Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında işə başlayıb. Bu böyük sənət ocağının istedadlı və təcrübəli aktyorlarının sırasına qoşulması gənc aktyoru sevindirdiyi, qürurlandırdığı qədər də özünə qarşı məsuliyyətini artırıb. Əliağa Ağayev, Hökumə Qurbanova, Ağasadıq Gəraybəyli, Mehdi Məmmədov, İsmayıl Osmanlı, İsmayıl Dağıstanlı kimi sənətkarlarla eyni səhnəyə çıxan Hamlet Xanızadə seçdiyi sənəti daha dərindən öyrənib, püxtələşib. Gənc aktyor hər tamaşanın sonunda teatr salonunu titrədən tamaşaçı alqışlarında onun da payı olduğunu görüb iftixar hissi keçirib.

Hamlet verilən fərqli rolları məharətlə ifa edib. Həsən Səbbah ("Xəyyam"), İblis ("İblis"), Qacar ("Vaqif"), Molla Abbas ("Dəli yığıncağı"), Nizami ("Atabəylər"), Doktor ("Şöhrət və ya unudulan adam"), Antonino ("Fırtına") və başqa rolların hər birini elə yaradıb ki, tamaşaçıların yaddaşında dərin iz sala bilsin.

O, istedadını yalnız teatr sənətində deyil, kino sahəsində də sınayıb. Kinorejissorların dəvəti ilə ayrı-ayrı illərdə "Yeddi oğul istərəm", "Axırıncı aşırım", "Arxadan vurulan zərbə", "Şəhərin yay günləri", "Qızıl uçurum", "Babək", "Bir cənub şəhərində", "İnsan məskən salır", "İstintaq davam edir", "Qatarda", "Qatır Məmməd", "Qəm pəncərəsi", "Qərib cinlər diyarında", "Möcüzələr adası", "Nizami", "Topal Teymur", "Yaramaz", "Yol əhvalatı", "Qətl günü" və başqa filmlərdə çəkilib. Ona tapşırılan hər rolu sanki elə onun üçün yazılmış, necə deyərlər, boyuna biçilmiş kimi canlandırıb. Odur ki, teatr kimi, kino sahəsində də tezliklə məşhurlaşıb. Bu məşhurluğun sayəsində Hamlet Xanızadə 1982-ci ildə Əməkdar artist fəxri adına layiq görülüb. 1984-cü ildə isə Dövlət mükafatı alıb.

"Qətl günü" filmindəki Sədi Əfəndi Hamlet Xanızadənin son rolu olub. Filmə ilk ictimai baxış 1990-cı il fevralın 11-də keçirilib. O günü görmək Hamlet Xanızadəyə qismət olmayıb. Hələ çəkilişlər zamanı aktyor filmin ssenarisindən sarsıldığını dilə gətirmişdi. Həyat yoldaşı Nailə xanım bu barədə demişdir: "Çəkilişlər zamanı, bəlkə də gündə neçə yol ölüb-dirilirdi. Filmdəki dövrlə bağlı ədəbiyyatı oxuduqca öz-özünə deyirdi: "Gör biz neçə böyük bir millətin övladlarıyıq". Təəssüf ki, bizim milli taleyimizin əks-sədası olan bu filmə Hamletsiz baxdıq".

1990-cı il yanvarın 20-də baş verən qanlı hadisələr Hamlet Xanızadəyə də ağır təsir edib. Sovet qoşun hissələri tərəfindən atəşə tutulmuş, şəhid olmuş soydaşlarımızın faciəsindən dərindən sarsılan sənətkarın ürəyi tab gətirməyib. Aktyorun qızı Aygün Xanızadə müsahibələrinin birində bildirmişdir: "Fevralın 2-si çəkilişdən sonra dostlarıyla qəbirüstünə gedirlər, orda güclü başağrıları tutur, onu evə gətirirlər, onda artıq demək olar ki, özündə deyildi, Bürcəli Əsgərovun həkim oğlu dedi ki, xəstəxanaya aparmaq lazımdır. Atamı reanimasiyaya yerləşdirdilər, orda bir gün qaldı, səhərə yaxın xəbər gəldi ki, keçinib". Millətini böyük məhəbbətlə sevən aktyor 1990-cı il fevralın 3-də, 49 yaşında gözlərini əbədi yumub.

Ömrü kimi yaradıcılığı da yarımçıq qalsa da, səhnədə və kinoda yaratdığı rollar Hamlet Xanızadənin adını Azərbaycan mədəniyyəti tarixinə əbədi yazıb. İllər keçir, nəsillər dəyişir. Lakin lent yazılarının yaddaşında qalan ifası aktyoru unudulmağa qoymur. Tamaşaçılar onun ifasına heyranlıqla baxırlar. Əməkdar artist Hamlet Xanızadənin səhnəyə, ekranlara gətirdiyi səmimiyyət və güclü ifa tərzi Azərbaycan teatr və kino sənətində silinməz iz qoyub.

***Zöhrə FƏRƏCOVA, "Azərbaycan"***

● Yaşıl məkanlarımız

# Güllü-çiçəkli Mərkəzi Nəbatat Bağı

**Bu gün Bakı yalnız müasir memarlıq nümunələri ilə deyil, eyni zamanda geniş yaşıllıq zolaqları, park və bağları ilə də diqqət çəkir. Bu yaşıllıq məkanları sırasında xüsusi yeri olan ünvanlardan biri də Mərkəzi Nəbatat Bağıdır.**




1935-ci ildə yaradılmış bu bağ 43 hektar ərazini əhatə edir və 2000-dən çox bitki növü olan bağda "küçəbəküçə" salınmış yerli flora ilə yanaşı, dünyanın müxtəlif bölgələrindən gətirilmiş dekorativ və ekzotik bitkilər göz oxşayır.

91 yaşlı bu bağ AMEA-nın nəzdində ölkənin flora zənginliyinin qorunması və öyrənilməsi istiqamətində mühüm elmi mərkəz kimi formalaşıb. Burada aparılan araşdırmalar bitkilərin uyğunlaşdırılması, nadir növlərin qorunması və biomüxtəlifliyin təmin olunmasına xidmət edir. Bağ müxtəlif iqlim zonalarına aid bitki kolleksiyalarının qorunması, öyrənilməsi və nümayişi məqsədilə fəaliyyət göstərir. Ərazi geniş landşaft sahələri, dendroloji kolleksiyalar və nadir bitki növləri ilə zəngindir. Bu məkan həm də istirahət zonasıdır, şəhərin mühüm yaşıllıq və ekoloji məkanlarından biri hesab olunur.

Prezident İlham Əliyevin sərəncamı əsasında Mərkəzi Nəbatat Bağında həyata keçirilən abadlıq və yenidənqurma tədbirləri ölkəmizdə bitki biomüxtəlifliyinin qorunmasına və səmərəli istifadəsinə göstərilən diqqətin nümunəsidir. Xüsusilə 2024-cü ildə Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakı ilə Botanika İnstitutunun yeni inzibati binasının açılışı bu məkanın inkişafında yeni mərhələnin başlanğıcı kimi yadda qalıb. Açılışdan sonra bağın ərazisində həyata keçirilən işlər onun həm elmi, həm də ictimai əhəmiyyətini daha da artırıb.

Bağda gəzintidə olan Bakı şəhər sakini Telman Musayevlə həmsöhbət olduq: "Dövlət başçısı İlham Əliyev və birinci xanım Mehriban xanım Əliyeva bir neçə il öncə Bakıda, mənim ən çox sevdiyim Mərkəzi Nəbatat Bağının ərazisində abadlıq, yenidənqurma və tikinti işlərinin gedişi ilə tanış olarkən ictimaiyyət nümayəndələri arasında mən də vardım. Öyrəndim ki, bərpa işləri nəticəsində bağın ərazisi 39 hektardan 44,8 hektara çatdırılıb. Bildiyimə görə, burada 2000-dən çox ağac, kol, ot bitkiləri və sair var. Bağda 130-a yaxın nadir bitki növü qorunur. Vaxtilə ərazidə yerləşən avtomobil təmiri boksları, bir neçə ictimai-iaşə obyekti və müxtəlif təyinatlı qanunsuz tikililər sökülüb. Göründüyü kimi, bağ başdan-başa dəyişib. Bu, bizi çox sevindirir".

Bağın ərazisində təşkil olunan ekskursiyalar zamanı ziyarətçilərin diqqətini bağın müasir infrastruktur elementləri və zəngin landşaft quruluşu cəlb edir. Bunlara yerli və dünyanın müxtəlif regionlarından gətirilmiş nadir bitki növlərinin qorunması və nümayişi üçün inşa edilmiş müasir tipli oranjeriyalar, piyadalar üçün nəzərdə tutulmuş 650 metr uzunluğunda müasir körpü, göl kompleksi, uşaqlar üçün yaradılmış oyun meydançası, eləcə də ziyarətçilər üçün istirahət məkanı kimi salınan labirint daxildir.

Ziyarətçilər tərəfindən xüsusi maraqla qarşılanan bitkilər sırasında bağa yeni introduksiya olunmuş Çin lorapetalumu, respublika ərazisində yalnız Mərkəzi Nəbatat Bağında yetişdirilən Luzitan Sərvi, dünyanın ən nəhəng ağac növlərindən biri hesab olunan Sekvoya, həmçinin dünyanın ən hündür ağac növləri sırasında yer alan Mavi Evkalipt xüsusi seçilir. Bununla yanaşı, Çiyələk ağacı, Azərbaycanın "Qırmızı kitab"ına daxil edilmiş Uzunsaplaq palıd və Eldar şamı da ziyarətçilərin diqqətini cəlb edən nadir növlər sırasındadır. Oranjeriya şəraitində nümayiş etdirilən kofe ağacı, banan bitkisi və həşəratlarla qidalanan Nepentes (Nepenthes gaya) kimi ekzotik bitkilər də ekskursiya iştirakçılarında böyük maraq doğurur.

Bağda sərv ağacları, əsasən, küləkqırıcı zolaqlar şəklində əkilib. Bu da ərazidə digər bitkilərin daha yaxşı inkişaf etməsinə kömək edir. Sərv ağacı həmişəyaşıl və uzunömürlüdür. Mütəxəssislərin fikrincə, bəzi növləri 800 -1000 ilə qədər yaşaya bilir. Buna görə də qədim dövrlərdən sərv ağacı "əbədi həyat" və uzunömürlülük rəmzi kimi qəbul olunub.

Ekskursiyalar zamanı ziyarətçilərin maraq göstərdiyi ağaclardan biri də Dağdağandır. Dağdağan xalq arasında göz - nəzərdən qoruyan ağac kimi tanınır. İnsanlar qədimdən bəri dağdağan ağacına xüsusi inamla yanaşıblar və onu pis enerjidən qoruyan təbii simvol hesab ediblər. Dağdağan ağacı həm də çox davamlı və uzunömürlüdür. Şəhər şəraitinə uyğunlaşdığı üçün parklarda və bağlarda geniş istifadə olunur.

Mərkəzi Nəbatat Bağının "Qida və dərman bitkilərinin biokimyası" laboratoriyasının böyük mütəxəssisi Aynurə Seyfullayeva söhbət zamanı bildirdi ki, yenidənqurmadan sonra bura ziyarətə gələn yerli sakinlərdən əlavə, xarici turistlərin də sayı çoxalıb. Onun sözlərinə görə, ümumilikdə bağa ay ərzində təxminən 600-800 xarici turist gəlir. Yerli ziyarətçilərin sayı xüsusilə həftəsonları 1000 nəfəri keçir. Bayram günlərində isə bu rəqəm 2-3 dəfə artır.



Bağın ərazisində ziyarətçilərin rahatlığını təmin etmək üçün müasir infrastruktur yaradılıb. Ərazidə müxtəlif yaş qrupları üçün nəzərdə tutulmuş istirahət və əyləncə zonaları, yaşıllıq labirintləri və açıq məkanlar salınıb ki, bu da bağa gələnlərin təbiətlə daha yaxından ünsiyyət qurmasına əlverişli şərait yaradır. Xatırladaq ki, Nəbatat Bağı yarandığı gündən həm də elmi-mədəni mərkəz kimi fəaliyyət göstərir və bu missiya mütəxəssislər tərəfindən bu gün də yüksək səviyyədə davam etdirilir.

Müasir şəhərsalmanın əsas prinsiplərindən biri məhz yaşıl məkanların qorunması və artırılmasıdır. Bu baxımdan, bağ yalnız bir istirahət məkanı deyil, həm də Azərbaycanın dünyaya təqdim edə biləcəyi uğurlu ekoloji modeldir. Bu yeniliklər şəhərin səs-küyündən uzaqlaşaraq ziyarətdə olanlarda böyük məmnunluq doğurur. Müşahidələrdən hiss olunur ki, insanları güllü-çiçəkli Mərkəzi Nəbatət Bağına çəkib gətirən floramızın canlı kolleksiyaları ilə istirahətin bir arada cəmləşməsidir.

***Rəhman SALMANLI, "Azərbaycan"***



# "Bakı tamaşaçısı üçün çalışmaq mənə maraqlı gəldi"

**"Bakıda əla çalışdım. Çox gözəl komandamız vardı, bütün yolu onunla birlikdə qət etdik. Bakı tamaşaçısı üçün çalışmaq mənə maraqlı gəldi. Azərbaycanlılar musiqisevər xalqdır, rəqs etmək, mahnı oxumaq xoşlarına gəlir, mənim üçün maraqlı idi - onların zövqünü oxşaya biləcəyəm?"**

Bu barədə AZƏRTAC-ın müxbirinə "Sahildə axşam" (rejissor - Leonid Klyots) şousunun rəssamı Yelizaveta Nevinnaya bəhs edib.

Rəssamın sözlərinə görə, sirkə olan sevgisi obrazların yaradılmasında ona ilham verib.

"İş prosesində sirk estetikasına güclü bağlılığım olduğunu anladım. Sənətçilərin arenada göstərdiyi fəndlərin əsrlər boyu dəyişməməsi, onların parlaq keçmişdən qalması fikri mənə ilham verir. Mən həmçinin sovet qrafik rəssamı Vladimir Lebedevin əsərlərindən ilham aldım", - deyə müsahibimiz qeyd edib.

O, layihənin əhatə dairəsinin geniş olduğunu vurğulayıb.

"Şoumuzun əsas ideyası sevginin bizi necə ucaltması, baş verən hər şeyi yenidən düşünməyimiz ilə bağlı hekayə idi. Sirk şousuna rəqs, mahnı və teatr elementlərini daxil etməli idik. Bütün bunları bir araya gətirmək çətindir. Komandamız bunu necə edəcəyimizi anlamaq üçün birlikdə çalışdı", - deyə Y. Nevinnaya bildirib.

"Sahildə axşam" açıq hava şousu Azərbaycan və beynəlxalq sənətçilərin iştirakı ilə yay mövsümündə Dənizkənarı Milli Parkda keçirilir.



# Dünya Çempionatı -2026



# Mundial tarixə yeniliklərlə düşəcək

Start götürmüş futbol üzrə dünya çempionatı bir sıra yeniliklərlə yadda qalacaq.

Belə ki, ilk dəfə üç ölkənin - ABŞ, Kanada və Meksikanın birgə evsahibliyi ilə təşkil olunacaq.

Eyni zamanda bu, dünya çempionatları tarixində ən çox komandanın iştirak edəcəyi yarış kimi tarixə düşəcək. FIFA-nın qərarına əsasən, DÇ-2026-da əvvəlki turnirlərdə olduğu kimi 32 deyil, 48 milli komanda mübarizə aparacaq. Beləliklə, iştirakçıların sayı 16 komanda artırılıb.

Turnir çərçivəsində rekord sayda - 104 oyun keçiriləcək. Kabo-Verde, Kurasao, İordaniya və Özbəkistan millilərі mundialda debüt edəcəklər.

Mundialın matçları 16 şəhərdə keçiriləcək. Turnirin əsas yükünü ABŞ daşıyacaq. Belə ki, oyunlar adıçəkilən ölkənin 11 şəhərində baş tutacaq. Kanada və Meksika isə müvafiq olaraq hərəyə 2 və 3 şəhərlə mundial atmosferini yaşayacaq.

ABŞ-də oyunlara evsahibliyi edəcək şəhərlər arasında Hyuston, Boston Kanzas, Nyu York/Nyu Cersi, Los-Anceles, Mayami, Dallas, Atlanta, Filadelfiya, Sietl və San-Fransisko kimi nəhəng mərkəzlər yer alır. Kanadada oyunlar Toronto və Vankuverdə, Meksikada isə Mexiko, Qvadalaxara və Monterreydə keçiriləcək.

Meksika və Cənubi Afrika Respublikası komandalarının üz-üzə gəldiyi açılış qarşılaşması Mexikodakı məşhur "Estadio Azteca" stadionunda baş tutub. Final qarşılaşması isə ABŞ-nin Nyu York/Nyu Cersi bölgəsində yerləşən "MetLife Stadium"da baş tutacaq.

DÇ-2026 həm iştirakçıların sayına, həm oyunların miqyasına, həm də üç ölkəni əhatə edən təşkilatçılığına görə dünya futbolu tarixinin ən böyük çempionatı hesab olunur.

**DÇ-2026**

**A qrupu:** Meksika, Cənubi Koreya, Cənubi Afrika Respublikası, Çexiya
**B qrupu:** Kanada, İsveçrə, Qətər, Bosniya və Herseqovina
**C qrupu:** Braziliya, Mərakeş, Şotlandiya, Haiti
**D qrupu:** ABŞ, Avstraliya, Paraqvay, Türkiyə
**E qrupu:** Almaniya, Ekvador, Fildişi Sahili, Kurasao
**F qrupu:** Niderland, Yaponiya, Tunis, İsveç
**G qrupu:** Belçika, İran, Misir, Yeni Zelandiya
**H qrupu:** İspaniya, Uruqvay, Səudiyyə Ərəbistanı, Kabo Verde
**I qrupu:** Fransa, Seneqal, Norveç, İraq
**J qrupu:** Argentina, Avstriya, Əlcəzair, İordaniya
**K qrupu:** Portuqaliya, Kolumbiya, Özbəkistan, Konqo Demokratik Respublikası
**L qrupu:** İngiltərə, Xorvatiya, Panama, Qana

Dünya çempionatının son qalibi 2022-ci ildə Qətərdə təşkil edilən yarışda Argentina millisi olub.




# DÇ-2026 FIFA-ya 9 milyard dollar gəlir gətirə bilər

FIFA-nın dünya çempionatından iqtisadi və media baxımından rekord nəticələr əldə edəcəyi proqnozlaşdırılır.

"Marca"nın verdiyi xəbərə görə, "Global Market Intelligence"in hesabatında turnirin FIFA-ya ümumilikdə təxminən 9 milyard ABŞ dolları gəlir gətirəcəyi bildirilir. Bu göstəricinin dünya çempionatları tarixində rekord olduğu qeyd olunur. Hesabatda göstərilir ki, gəlirlərin böyük hissəsi, yəni təxminən 3,9 milyard dolları televiziya yayım hüquqlarından əldə olunacaq. 48 komandanın iştirakı ilə 104 matçın keçirilməsi turnirin həm iqtisadi, həm də media təsirini artıran əsas amillərdən biri kimi qiymətləndirilir. Turnir ərzində stadionlara ümumilikdə 5 milyonadək azarkeşin cəlb olunacağı gözlənilir. Bilet satışlarından əldə olunacaq gəlirin əvvəlki dünya çempionatları ilə müqayisədə əhəmiyyətli dərəcədə artacağı və əlavə olaraq 950 milyon ABŞ dolları həcmində daha yüksək göstərici qeydə alınacağı bildirilir.

Proqnozlara görə, 2023-2026-cı illəri əhatə edən dünya çempionatı dövrü ümumilikdə



13 milyard ABŞ dolları həcmində gəlir gətirəcək. Növbəti dövr - 2030-cu ildə İspaniya, Portuqaliya və Mərakeşdə keçiriləcək dünya çempionatına qədər olan mərhələ isə 14 milyard ABŞ dolları gəlirlə daha yüksək göstərici nümayiş etdirəcək.

Digər bir hesabata əsasən, 2026-cı il mundialının qlobal ümumi daxili məhsula (ÜDM) 40,9 milyard dollar töhfə verəcəyini və dünyada 824 min yeni iş yerinin yaradılacağını göstərir. Bununla belə, hesabatlarda ABŞ-də turnirin iqtisadi təsirinin "məhdud və qısamüddətli" olacağı da vurğulanır.



# Türkiyə millisinin ilk oyununun baş hakimi venesuelalıdır

Futbol üzrə Türkiyə millisinin dünya çempionatında ilk oyununu idarə edəcək baş hakim açıqlanıb. D qrupunda Avstraliya ilə keçiriləcək görüş venesuelalı FIFA referisi Xesus Valensuelaya tapşırılıb.

İyunun 14-də Kanadanın Vankuver şəhərindəki "Bi-Si Pleys" arenada oynanılacaq qarşılaşma Bakı vaxtı ilə saat 08:00-da başlayacaq.

Türkiyə millisi D qrupunda növbəti oyunlarını iyunun 20-də Paraqvaya, 26-da isə ABŞ-yə qarşı keçirəcək.



# Üç futbolçu dünya çempionatı tarixinə düşməyə hazırlaşır

**Meksika millisinin qapıçısı Qilyermo Oçoa futbol üzrə dünya çempionatları tarixinə düşməyə hazırlaşır.**

**2026-cı il mundialı 39 yaşlı qolkiperin karyerasında altıncı dünya çempionatı olacaq. Bununla da o, turnirin altı final mərhələsində iştirak edən ilk futbolçu kimi tarixə düşəcək.**

**Cari mundialda bu göstəricini daha iki ulduz futbolçu təkrarlayacaq. Belə ki, Argentina millisinin kapitanı Lionel Messi və Portuqaliya yığmasının lideri Kriştianu Ronaldu da karyeralarında altıncı dəfə dünya çempionatının final mərhələsində iştirak edəcəklər.**

# Neymar Braziliya millisinin dünya çempionatındakı ilk oyununu buraxa bilər

Neymar Braziliya millisinin dünya çempionatının Mərakeşlə keçiriləcək birinci tur matçını qaçıra bilər.

AZƏRTAC xarici mətbuata istinadən xəbər verir ki, 34 yaşlı hücumçu hələ də komandanın məşqlərinə qoşulmayıb.



"Santos"un heyətində zədə alan oyunçunun hələ də sağalma prosesində olduğu qeyd edilib.

C qrupunda yer alan Braziliya millisi Mərakeşlə iyunun 14-də üz-üzə gələcək.

# Almaniya millisi dünya çempionatında azarkeşlərinə pulsuz səyahət imkanı yaradacaq

Almaniya millisi dünya çempionatında Ekvadora qarşı keçirəcəyi qrup mərhələsinin son oyunu üçün azarkeşlərinə pulsuz səyahət imkanı yaradacaq. "The Athletic"in verdiyi xəbərə görə, qarşılaşma iyunun 25-də Şərqi Rezerforddakı "MetLife" stadionunda baş tutacaq və qatarla gediş-qayıdış biletləri 98 dollar olacaq.



Almaniya Futbol İttifaqı və komandanın oyunçuları bahalı aviabilet və hotel yerləşməsində çətinlik çəkən tərəfdarlara kömək etmək qərarına gəliblər.

Qurum azarkeşlərin elektron poçtlarına məlumatlar da göndərib. Təşkilat fanatlar üçün xüsusi avtobuslar ayırıb və bu imkandan istifadə etmək istəyənlərdən qeydiyyatdan keçmələrini xahiş edib.

# Dünya çempionatında yeni qaydalar tətbiq olunacaq

ABŞ, Kanada və Meksikada keçiriləcək dünya çempionatı çərçivəsində futbol azarkeşləri bir sıra yeni qaydaların tətbiqinin şahidi olacaqlar.

Sportinfo.az xəbər verir ki, Beynəlxalq Futbol Assosiasiyaları Şurasının (IFAB) qərarına əsasən, oyunun tempini artırmaq və fasilələri azaltmaq məqsədilə bir neçə mühüm dəyişiklik ilk dəfə rəsmi turnirdə tətbiq olunacaq.

Yeni qaydalara görə, künc və qapı zərbələrinin yerinə yetirilməsi üçün 5 saniyəlik vaxt limiti müəyyən ediləcək. Vaxtın aşılması halında künc zərbəsi rəqib komandaya veriləcək, gecikən qapı zərbələri isə autla nəticələnəcək.

Əvəzetmələrlə bağlı da sərt qayda tətbiq ediləcək: futbolçuların oyuna daxil olması üçün 10 saniyəlik limit nəzərdə tutulur. Bu müddət keçərsə, oyunçu meydanda qalmaq hüququ qazanmayacaq və komanda müvəqqəti olaraq azlıqda çıxış edəcək.

VAR sisteminə də əlavə səlahiyyətlər verilir. Videokömәkçi hakimlər səhv künc zərbələri, ikinci sarı vərəqə halları və qola birbaşa təsir edən standart vəziyyətlərdə müdaxilə edə biləcəklər.

Yeni qaydaların məqsədinin oyunun axınını sürətləndirmək, vaxt itkisini azaltmaq və daha ədalətli qərarlar təmin etmək olduğu bildirilir.

# Dünya çempionatına buraxılmadı, ölkəsində qəhrəman kimi qarşılandı



DÇ-2026-da idarəçilik etmək üçün ABŞ-yə yollanan, lakin bu ölkəyə girişinə icazə verilməyən somalili tanınmış hakim Ömər Əbdülqadir Artan vətəninə qayıdıb.

Sportinfo.az xəbər verir ki, ABŞ-dən geri göndərildikdən sonra ölkəsinə dönmək üçün İstanbul üzərindən tranzit uçuş reallaşdıran referi jurnalistlərin suallarını cavablandırıb.

O, yaranmış vəziyyətlə bağlı qısa danışaraq "FIFA-ya və Somali xalqına mənə göstərdikləri dəstəyə görə təşəkkür edirəm" deməklə kifayətlənib. Daha sonra o, Somalinin paytaxtı Moqadişuya uçub. Qarşılamaya gələn somalili azarkeşlər ABŞ-nin qərarına etiraz edərək gənc hakimə mənəvi dəstək nümayiş etdiriblər. Məsələ ilə bağlı ali futbol qurumu FIFA-dan da rəsmi bəyanat gəlib. Qurum bəyan edib ki, yaranmış vəziyyəti dəyişmək artıq mümkün deyil: "FIFA viza qiymətləndirilməsi də daxil olmaqla, ev sahibi ölkənin daxili miqrasiya proseslərinə müdaxilə etmək səlahiyyətinə malik deyil. ABŞ rəsmiləri tərəfindən cənab Artanın statusunun hazırkı mərhələdə dəyişdirilməyəcəyi barədə məlumatlandırılmışıq".

Ömər Əbdülqadir Artan ötən il Afrikanın ən yaxşı hakimi seçilmişdi. O, DÇ-2026-da oyun idarə etmək üçün təyinat alan ilk somalili hakim kimi futbol tarixinə düşmüşdü.

# Türkiyə millisinin yarımfinala yüksəlməsi çempionluq qədər dəyərli olar



"Türkiyə millisinin yarımfinala yüksəlməsi mənim üçün çempionluq qədər dəyərli olar".

Bu sözləri AZƏRTAC-a eksklüziv açıqlamasında Türkiyə millisinin sabiq məşqçisi Hamza Hamzaoğlu bu gün start götürəcək dünya çempionatı ilə bağlı fikirlərini bölüşərkən deyib.

Mütəxəssis Türkiyə millisinin mundiala qədər uğurlu yol keçdiyini vurğulayıb: "Milli komandamız dünya çempionatına yaxşı hazırlaşıb. Düşünürəm ki, qrup mərhələsini adlayacağıq. Bundan sonrakı mərhələdə yarımfinala yüksəlmək isə mənim üçün çempionluq qədər dəyərli olar. Çünki çox güclü komandaların iştirak etdiyi dünya çempionatını izləyəcəyik. Belə bir turnirdə yer almaq böyük uğurdur. Ancaq bura qədər gəlib çıxmışkən inanıram ki, millimiz mümkün olan ən yaxşı nəticə ilə Vətənə qayıdacaq".

Türkiyə millisinin hədəflərindən söz açan təcrübəli mütəxəssis deyib: "Kuboku qazanmağı hamımız istəyirik. Amma hazırda komandada müəyyən çatışmazlıqların olduğunu düşünürəm. Bəzi rəqiblərlə fiziki mübarizədə çətinlik çəkə bilərik, müdafiədə problemlər yaşaya bilərik. Bununla belə, futbolçularımıza inanıram. Onların əllərindən gələni edəcəklərinə şübhəm yoxdur. Mənim üçün əsas məsələ komandanın meydanda yaxşı mübarizə aparmasıdır. Bu halda əldə olunacaq istənilən nəticə uğur hesab edilə bilər".

Türkiyə millisinin sabiq məşqçisi turnirin favoritlərini də açıqlayıb: "Favoritlərim arasında Fransa, İspaniya və Argentina milliləri var. Xüsusilə İspaniyanın şanslarını yüksək qiymətləndirirəm. Bundan başqa, ABŞ və Yaponiya yığmalarının da sürpriz nəticələrə imza ata biləcəyini düşünürəm".




# DÇ-2026-nın rəsmi himni

FİFA 2026-cı ildə keçiriləcək futbol üzrə dünya çempionatının rəsmi himnini açıqlayıb.

"DNT" adlı kompozisiya turnir ərəfəsində FIFA Dünya Kuboku platformalarında yayımlanıb.

Dünya Kubokunun rəsmi himni tanınmış italyan tenor Andrea Boçellinin iştirakı ilə yazılmış mahnı olub.

Fransız DJ David Quetta, amerikalı reper "Meqan Thee Stallion" və EJAE də bəstəyə öz töhfələrini veriblər.

Mahnının premyerası 2026-cı ildə ABŞ, Kanada və Meksikada keçirilən dünya çempionatına hazırlıq çərçivəsində baş tutub.

# Haiti Futbol Federasiyası FIFA-nın tələbi ilə oyun formalarını dəyişdirməyə razı olub



Haiti millisi FIFA-nın tələbindən sonra futbol üzrə dünya çempionatı üçün nəzərdə tutulan ev və səfər formalarını dəyişdirməyə razılıq verib.

Buna səbəb beynəlxalq qurumun Karib hövzəsi təmsilçisinin formasında yer alan elementləri "siyasi məzmunlu" hesab etməsi olub.

Qeyd olunur ki, FIFA-nın iradından sonra Haiti Futbol Federasiyası hər iki oyun formasında dəyişikliklə bağlı qərar qəbul edib.

Haiti mundialda ilk matçını Şotlandiya seçməsinə qarşı keçirəcək.

# Məhərrəm ayının başlanacağı tarix açıqlanıb

Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Qazılar Şurası və səlahiyyətli nümayəndələri Məhərrəm ayının başlanması ilə əlaqədar iyunun 11-də əhaliyə müraciət edib. AZƏRTAC müraciəti təqdim edir:

"Qafqaz Müsəlmanları İdarəsinin Qazılar Şurası və səlahiyyətli nümayəndələri müsəlman qardaş və bacıların nəzərinə çatdırır ki, Türk Dövlətləri Təşkilatı Müsəlman Dini İdarə rəhbərləri Şurasının Fətva şöbəsinin tərtib etdiyi təqvimə, həmçinin Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Şamaxı Astrofizika Rəsədxanasının hesablamalarına əsasən, Hicri-qəməri təqvimi ilə 1447-ci il başa çatır, 1448-ci ilin başlanğıcı - Məhərrəm ayının 1-i Miladi təqvimlə iyunun 16-na, Aşura günü isə iyunun 25-nə təsadüf edəcək.

Əsrlər boyu Azərbaycan dindarlarının yaddaşında iz qoyan Məhərrəm ayının Aşura günü - Peyğəmbərimiz Məhəmməd (s.a.s.) əziz nəvəsi İmam Hüseyn əleyhissalamın ailəsi və səhabələri ilə birlikdə haqsızlığa və zülmə məruz qalaraq şəhadətə yetişməsi dünya tarixində haqq uğrunda dəyanət salnaməsi kimi dəyərləndirilir. Kərbəla şəhidləri islamın "yaxşılığa dəvət və pislikdən çəkindirmə" məfkurəsini bütün ümmət üçün əsl nümunəyə çevirmiş, din, əqidə, eyni zamanda Vətən, torpaq, ailə şərəfi, ədalət və müqəddəs amallar naminə şəhadətin mükəmməl əxlaq nümunəsini yaradıblar. Hamımız yaxşı xatırlayırıq ki, Ulu Öndər Heydər Əliyev Təzəpir məscidində Aşura mərasimindəki tarixi çıxışında demişdi: "Biz bundan sonra da haqq-ədalət, torpaq, Vətən yolunda şəhid olmuş Həzrəti İmam Hüseynin və onun bütün silahdaşlarının qəhrəmanlığını, şəhidliyini heç vaxt unutmayacağıq". Onun siyasi kursunu davam etdirən xələfi, ölkəmizin başçısı Prezident İlham Əliyev də bu əqidəyə sadiq qalaraq: "İslam dini bizim tariximizin, keçmişimizin və hazırkı həyatımızın ayrılmaz hissəsidir", - deyə milli kimliyimizi bir daha təsdiqləyib.

Müzəffər Ali Baş Komandan, Prezident İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində şanlı Ordumuzun bizlərə yaşatdığı qürur və sevincə görə Uca Yaradana həmd-sənalar, dövlətimizin rifahı üçün dualar edirik. İşğaldan azad olunmuş Qarabağda və Şərqi Zəngəzurda yenidənqurmanın başlanması, dini-mədəni abidələrimizin bərpası, həmvətənlərimizin doğma yurd-yuvalarına Böyük Qayıdışı - bütün bunlar Allah-taalanın lütfü ilə müdrik dövlət başçımızın səyləri sayəsində reallaşan arzularımız, dualarımızdır.

Qazılar Şurası olaraq dindarlarımıza xatırlatmaq istərdik ki, Məhərrəm və Səfər aylarında 60 gün ərzində keçirilən təziyə mərasimləri, xüsusilə Tasua və Aşura əzadarlığı zamanı müxtəlif alətlərlə bədənə xəsarət yetirmək, qan çıxarmaq, qurşağadək soyunaraq sinə vurmaq və s. dinimizə görə qəbuledilməzdir. Həmçinin QMİ Qazılar Şurası yerlərdəki nümayəndələrinin nəzərinə çatdırır ki, qazılar və imamlar Azərbaycan Respublikasının "Dini etiqad azadlığı haqqında" Qanunun müddəalarına riayət edərək dini mərasimləri məscid, ziyarətgah və onlara aid ərazilərdə keçirsinlər. Azərbaycan qanunlarına əsasən, təziyə mərasimləri zamanı milli-mənəvi dəyərlərimizə və dövlətçilik ənənələrimizə xələl gətirən şüarların səsləndirilməsi, dövlət simvollarına uyğun olmayan atributların istifadəsi, küçə yürüşləri və ictimai asayişin pozulması icazəli deyildir. Xüsusilə qeyd etmək istərdik ki, Azərbaycan din xadimləri tərəfindən məscidlərdə Vətən sevgisini, milli dəyərlərə sədaqəti, şərəf və ləyaqəti ehtiva edən moizələr və xütbələr oxunmalıdır. Məhərrəmlik dönəmində ibadət və dualarımızda Kərbəla şəhidləri ilə yanaşı, Birinci və İkinci Qarabağ müharibələrində Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş qəhrəman övladlarımızın, həmçinin 20 Yanvar və Xocalı soyqırımı qurbanlarının əziz xatirəsini yad etməklə şəhidlərimizə rəhmət, qazilərimizə şəfalar diləmək bizim vəfa borcumuzdur. Qeyd olunan tövsiyələri bölgələrdəki din xadimlərinin dindarlara çatdırması vacibdir, qazılar və səlahiyyətli nümayəndələr öz bölgə məscidlərində görülən tədbirlər barədə tam hesabatlarını Qafqaz Müsəlmanları İdarəsinə təqdim etməlidirlər.

Məhərrəmlik dönəmində önəmli tədbirlərdən biri - Kərbəla şəhidlərinin xatirəsinə qanvermə aksiyası müqəddəs dinimizə layiq olan ən münasib əzadarlıq nümunəsi kimi bilavasitə Qafqaz Müsəlmanları İdarəsinin təşəbbüsü ilə reallaşan və xalq tərəfindən təqdir edilən hadisədir. Ümidvarıq ki, inşallah, dindarlarımız bu il də humanist ənənəni davam etdirərək, qan bankının paytaxtda və bölgələrdəki filiallarında, habelə digər səhiyyə ocaqlarında Allah rizası üçün İmam Hüseyn (ə) və əziz şəhidlərin xatirinə ehsan niyyəti ilə qan verəcək, minlərlə xəstə insana, irsi xəstəliklərdən əziyyət çəkən uşaqların şəfa tapmasına yardımçı olacaqlar. Həmin məkanların ünvanları Qafqaz Müsəlmanları İdarəsinin rəsmi veb-səhifəsində (www.qafqazislam.com) yerləşdiriləcəkdir.

Mübarək Məhərrəmlik günlərində Peyğəmbərimiz Həzrət Məhəmməd Salavatullahın hədisi-şərifində buyurulduğu kimi, Allah yanında imanın, mənəviyyatın ən yüksək məqamına yüksələn şəhidlərimizə rəhmət, qazilərimizə şəfalar, bütün xalqımıza dəyanət və səadət diləyirik. Uca Allah xalqımızı, dövlətimizi hifz etsin, dövlət rəhbərimiz və Ali Baş Komandanımızın Azərbaycan naminə fəaliyyətinə daima rəvac versin".

# Bəzi yerlərdə yağış yağacaq



Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Lakin gecə yarımadanın bəzi yerlərində qısamüddətli az yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz yarımadanın bəzi yerlərində arabir güclənəcək. Havanın temperaturunun gecə 18-22, gündüz 26-30 dərəcə isti olacağı ehtimal edilir. Atmosfer təzyiqi 756 millimetr civə sütunu, nisbi rütubət gecə 70-75, gündüz 45-50 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə şimşək çaxacağı, dolu düşəcəyi, əsasən dağlıq və dağətəyi rayonlarda yağıntıların bir qədər intensivləşəcəyi ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 17-21, gündüz 29-34, dağlarda gecə 8-13, gündüz 17-22, bəzi yerlərdə 25-28 dərəcə isti olacaq.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərur rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin gündüz dağlıq ərazilərdən başlayaraq bəzi yerlərdə fasilələrlə yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20, gündüz 27-32 dərəcə isti olacağı proqnozlaşdırılır.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöl rayonlarının bəzi yerlərində fasilələrlə yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 8-13, gündüz 16-21, bəzi yerlərdə 25-28 dərəcə isti olacağı bildirilir.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanın bəzi yerlərində fasilələrlə yağış yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 8-13, gündüz 17-22, bəzi yerlərdə 25-29 dərəcə isti olacağı ehtimal edilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 15-20, gündüz 25-30 dərəcə isti olacağı ehtimalı var.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusar rayonlarının bəzi yerlərində arabir yağış yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 13-18, gündüz 24-29, dağlarda gecə 9-14, gündüz 17-22 dərəcə isti olacaq.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçala rayonlarında hava əsasən yağmursuz keçəcək. Lakin axşam qərb rayonlardan başlayaraq bəzi yerlərdə arabir yağış yağacağı proqnozlaşdırılır. Ayrı-ayrı yerlərdə intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturunun gecə 17-21, gündüz 29-34 dərəcə isti olacağı gözlənilir.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Lakin gündüz bəzi yerlərdə arabir yağış yağacağı bildirilir. Ayrı-ayrı yerlərdə qısamüddətli intensiv olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Arabir duman müşahidə ediləcək. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 18-21, gündüz 27-32, dağlarda gecə 16-19, gündüz 21-26 dərəcə isti olacağı proqnozlaşdırılır.


## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN" *qəzetinə***

***abunə yazılışı davam edir!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| "Azərpoçt" MMC | (012) 598-49-55, (051) 225-02-13 |
| "Azərmətbuatyayımı" ASC | (012) 441-19-91, (050) 322-33-17 |
| "Qaya" firması | (012) 566-77-80, (050) 214-40-53 |
| "Region Press" MMC | (055) 316-79-01, (050) 316-79-01 |
| "Səma-M" MMC | (012) 594-09-59 |
| "Ziya" LTD | (012) 497-76-96, (050) 306-77-22 |
| "Pressinform" MMC | (012) 598-49-52, (070) 340-01-00 |
| "City press" MMC | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


AZƏRBAYCAN
Cənubi Qafqazda yeni dövr
Azərbaycanın sülh, təhlükəsizlik və regional bağlantılar strategiyası bölgənin inkişafının qarantıdır
Azərbaycan-Portuqaliya əlaqələrinin inkişafı istiqamətində səylərimizi bundan sonra da davam etdirəcəyik
Azərbaycan Respublikasının Prezidenti zati-aliləri cənab İlham Əliyevə
Rəqəmsal Azərbaycan - yeni dövrün idarəçilik modeli
Qarabağda bərqərar olan ədalət
Ermənistanın qarşısında duran geosiyasi çağırışlar

**Hörmətli oxucular!**

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*


# Yayda düzgün qidalanmağın yolları

Yay mövsümündə həyat tərzində və gündəlik vərdişlərdə ciddi dəyişikliklər etmək lazımdır. Havanın temperaturunun yüksəlməsi ilə birlikdə orqanizmin suya, minerallara və enerji balansını qoruyan qidalara olan ehtiyacı da artır. Mütəxəssislər bildirirlər ki, yay aylarında düzgün qidalanma və sağlam həyat tərzi həm günvurma, susuzlaşma və həzm problemlərinin qarşısını almaqda, həm də immun sistemini gücləndirməkdə mühüm rol oynayır. Bu səbəbdən isti havalarda qida seçiminə, maye qəbuluna, fiziki aktivliyə və gündəlik rejimə xüsusi diqqət yetirilməlidir.

Yüksək temperaturun təsiri ilə insan bədəni daha çox tərlədiyi üçün su ilə yanaşı, vacib minerallar da itirir. Natrium, kalium və maqnezium kimi elementlərin azalması isə halsızlıq, yorğunluq, baş ağrısı və diqqət zəifliyi yaradır. Buna görə də yay aylarında su balansının qorunması sağlamlığın əsas şərtlərindən biri hesab olunur. Həkimlər gün ərzində orta hesabla ən azı 2-2,5 litr su içməyi tövsiyə edirlər. Xüsusilə isti havalarda su ehtiyacını hiss etmədən belə maye qəbul etmək vacibdir. Çünki susuzluq hissi yarandıqda bədən artıq müəyyən qədər maye itirmiş olur. Çay, qəhvə və qazlı içkilər suyun yerini tam əvəz etmir. Əksinə, bəzi hallarda sidikqovucu təsir göstərərək orqanizmdən daha çox maye itkisinə səbəb ola bilir.



Yayda qida rasionunda yüngül və təbii qidaların üstünlük təşkil etməsi tövsiyə olunur. Ağır, yağlı və qızardılmış yeməklər isti havalarda həzm sisteminə əlavə yük yaradır, insanı daha tez yorur və halsızlıq hissini artırır. Bu səbəbdən qaynadılmış, sobada və ya buxarda hazırlanmış yeməklərə üstünlük vermək daha məqsədəuyğundur. Mövsümi tərəvəz və meyvələr isə yay qidalanmasının əsas hissəsini təşkil etməlidir. Xiyar, pomidor, göyərti, qarpız, yemiş, şaftalı, ərik, albalı, moruq və müxtəlif giləmeyvələr həm orqanizmi sərinləşdirir, həm də vitamin və mineral ehtiyacını qarşılayır. Liflə zəngin olan bu məhsullar həzm sisteminin fəaliyyətini yaxşılaşdırır, bağırsaqların normal işləməsinə kömək edir və toxluq hissi yaradır.

Dietoloqlar bildirirlər ki, yay aylarında xüsusilə səhər yeməyi diqqətdən kənarda qalmamalıdır. Səhər yeməyi günün enerji ehtiyatını formalaşdırır və uzun müddət toxluq hissi yaradır. Yumurta, pendir, göyərti, tam taxıllı məhsullar və mövsümi tərəvəzlərdən ibarət səhər yeməyi həm qidalandırıcı, həm də balanslı hesab olunur. Günorta saatlarında isə daha yüngül qidalara üstünlük verilməsi məsləhət görülür. Xüsusilə 12:00-16:00 aralığında ağır yeməklərin qəbulu ürək-damar sisteminə əlavə yük yarada bilər. Bu saatlarda tərəvəzli salatlar, qatıq, ayran, meyvə və yüngül zülal mənbələri daha uyğun seçim sayılır.

Bu mövsümdə qida təhlükəsizliyi məsələsi də xüsusi əhəmiyyət daşıyır. İsti hava məhsulların daha tez xarab olmasına təsir göstərir və bu da qida zəhərlənmələrinin sayını artırır. Xüsusilə mayonezli salatlar, süd məhsulları və açıq havada satılan qidalar diqqətlə seçilməlidir. Mütəxəssislər küçədə açıq şəkildə satılan məhsullardan uzaq durmağı, meyvə və tərəvəzləri yaxşı yumağı, bişmiş yeməkləri uzun müddət otaq temperaturunda saxlamamağı tövsiyə edirlər. Qidaların düzgün saxlanılması və gigiyena qaydalarına əməl olunması yay mövsümündə sağlamlığın qorunması üçün əsas şərtlərdən biridir.

Yayda insanların ən çox istifadə etdiyi məhsullardan biri də dondurmadır. İsti havalarda sərinlədici təsiri ilə seçilən bu məhsulun həddindən artıq istehlakı müəyyən problemlərə səbəb ola bilər. Tərkibində şəkər miqdarı yüksək olan dondurmalar çəki artımına və qan şəkərinin yüksəlməsinə gətirib çıxarır. Eyni zamanda çox soyuq içkilər və qidalar boğaz ağrıları, həzm narahatlıqları və mədə problemləri yarada bilər. Dietoloqlar ev şəraitində hazırlanmış meyvəli desertləri və şəkəri az olan içkiləri daha sağlam seçim hesab edirlər.

Son illərdə yay aylarında "detoks" anlayışı da geniş yayılıb. Mütəxəssislər bildirirlər ki, yay mövsümü yüngül və təbii qidalanma vasitəsilə orqanizmi toksinlərdən təmizləmək üçün əlverişli dövrdür. Detoks zamanı əsas məqsəd orqanizmin maye balansını bərpa etmək, həzm sisteminin fəaliyyətini yaxşılaşdırmaq və enerji səviyyəsini artırmaqdır. Bunun üçün gündəlik qida rasionuna bol su ilə yanaşı, vitamin və minerallarla zəngin tərəvəz və meyvələr daxil edilməlidir. Xiyar, pomidor, göyərti, qarpız, yemiş, giləmeyvə, albalı kimi məhsullar orqanizmi həm sərinləşdirir, həm də antioksidantlarla təmin edir. Yulaf, çia toxumu, kətan toxumu və tam buğda məhsulları isə lif baxımından zəngin olduqları üçün bağırsaq fəaliyyətinə müsbət təsir göstərir.

Detoks məqsədilə istifadə olunan içkilər arasında bitki çayları da xüsusi yer tutur. Zəncəfil, nanə, çobanyastığı və qarabaşaq çayları orqanizmi sakitləşdirən və həzmi yaxşılaşdıran vasitələrdir. Lakin mütəxəssislər xəbərdarlıq edirlər ki, detoks çaylarından nəzarətsiz şəkildə istifadə etmək düzgün deyil. Belə içkilərin tərkibindəki məhsullar bəzi insanlara mənfi təsir edə bilər. Yüksək təzyiq, diabet, ürək-damar xəstəlikləri, qanazlığı və digər sağlamlıq problemləri olan şəxslər, həmçinin hamilələr, yaşlı insanlar və uşaqlar detoks içkilərindən istifadə edərkən ehtiyatlı olmalıdırlar. Bu səbəbdən detoks proqramına başlamazdan əvvəl mütəxəssis məsləhəti almaq daha məqsədəuyğundur.

Detoks çaylarının hazırlanma qaydası da önəmlidir. Bitki çaylarını təxminən 80 dərəcə temperaturda 15-20 dəqiqə dəmləmək tövsiyə olunur. Çünki çox qaynar su bitkilərin tərkibindəki faydalı maddələrin bir hissəsini məhv edə bilər. Mütəxəssislər belə çayların səhər oyandıqdan sonra və gecə yatmazdan əvvəl qəbulunu daha faydalı hesab edirlər. Səhər qəbul edilən detoks çayı orqanizmə enerji və təravət verir, gecə qəbul edilən içki isə sakitləşdirici təsir göstərərək yuxu keyfiyyətini yaxşılaşdırır.

Yay mövsümündə detoks sularından da geniş istifadə olunur. Bu içkilər suya müxtəlif meyvə, tərəvəz və ədviyyatların əlavə edilməsi ilə hazırlanır. Limon, xiyar, nanə, giləmeyvə ilə yanaşı, darçın çubuqları, mixək və qara bibər kimi ədviyyatlar da detoks suyunun tərkibinə əlavə edilə bilər. Mütəxəssislər belə suların müəyyən müddət saxlanılmasını tövsiyə edirlər ki, meyvə və tərəvəzlərin vitaminləri suya keçsin. Bununla belə, detoks sularının həddindən artıq istifadəsi də məsləhət görülmür. Uzun müddət nəzarətsiz şəkildə istifadə olunduqda bəzi mineral və vitaminlərin bağırsaqlarda sorulmasına mane ola, hətta əzələ spazmlarına səbəb ola bilər.

Mütəxəssislərin fikrincə, yay mövsümünü sağlam və enerjili keçirməyin əsas yolu balanslı qidalanma, düzgün maye qəbulu, aktiv həyat tərzi və istirahət rejiminin qorunmasından keçir. Sadə, lakin vacib qaydalara əməl etməklə yay aylarını daha sağlam, rahat və enerjili keçirmək mümkündür.

***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***


Bakı şəhəri 132-134 nömrəli təhsil kompleksini 2021-ci ildə bitirmiş Uğur Qafar oğlu Əliyevə verilmiş EN 374457 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.


## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Vəkillər Kollegiyasının Bakı şəhəri 4 saylı Vəkil Bürosunun kollektivi iş yoldaşları vəkil Rəfail İbrahimova qardaşı

**TARYEL RZA OĞLU İBRAHİMOVUN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının rəhbərliyi və kollektivi iş yoldaşları Nuranə İbadovaya anası

**NƏZAKƏT SALMANOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**BAŞ REDAKTOR**
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

**Qeydiyyat № 1**

**"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir**

**Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır**

**Gündəlik rəsmi dövlət qəzeti**

**Tiraj 3794**
**Sifariş 724**

**Qiyməti 60 qəpik**